RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 222 (9967) 16 oktyabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq məsələləri müzakirə olunub

### Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiya Respublikasının xarici işlər naziri Elina Valtonenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

2

## 5 müxtəlif coğrafiyada, fərqli tədbirdə

### Azərbaycan Prezidenti bütün siyasi platformalarda hörmətlə qarşılanan liderdir

Müstəqilliyini qazandığı ilk illərdən işğal faktı, bir milyondan çox qaçqın, məcburi köçkün problemi, siyasi, iqtisadi, sosial böhranlarla üz-üzə qalan Azərbaycanın düşdüyü bu çətin vəziyyətdən sürətlə çıxması və hazırda hərtərəfli inkişafa malik ölkə kimi adından söz etdirməsi beynəlxalq səviyyədə etiraf olunan gerçəklikdir. Şərqlə Qərbin enerji, nəqliyyat qovşağı olan Azərbaycan hazırda əksər ölkələrin ikitərəfli əlaqələr qurmaqda maraqlı olduğu tək-tük dövlətlərdəndir.

BMT TŞ-nin qətnamələrini hərb yolu ilə özü yerinə yetirərək beynəlxalq hüququ təmin edən Azərbaycan apardığı haqq savaşında müharibə qanunlarını heç bir halda pozmayıb, mülki insanlara, obyektlərə zərər verməyib. Bakının liderliyi ilə yürüdülən normallaşma prosesi bölgədə de-fakto sülhə yol açıb. Bu il avqustun 8-də Vaşinqtonda ABŞ rəhbəri Donald Trampın iştirakı ilə Ermənistanla



Azərbaycan arasında sülh sazişinin mətni paraflanaraq barış üçün həlledici mərhələnin, sülh sazişinin imzalanmasının təməli qoyulub. Bununla da üç onillik boyu Cənubi Qafqazda var olan münaqişə birdəfəlik bitib və bölgədə təkcə region ölkələri üçün deyil, daha geniş coğrafiya üçün əhəmiyyət daşıyan əməkdaşlıqlara geniş imkanlar açılıb.

8

## Azərbaycanın mövqeyini gücləndirən xarici siyasət




7



# ÜÇ CƏBHƏDƏ MÜBARİZƏNİ ZƏRURİ EDƏN MƏQAMLAR

İlham Əliyev ölkənin çox ağır və çətin dövründə ölkəyə rəhbərliyə başlasa da, ilk vaxtlardan doğru və uzaqgörən addımlar atdı, nəyi necə edəcəyini dəqiq müəyyənləşdirdi, üç mühüm istiqamətdə mübarizəsini davam etdirdi!

Birinci mərhələdə əsas diqqət yetirilən məqamlardan biri Azərbaycanın sürətli və davamlı iqtisadi inkişafını təmin etmək, ölkə daxilindəki iqtisadi problemlərin həllinə nail olmaq idi.

Belə problemlər isə istənilən qədər idi:

* İşsizlik və yoxsulluq 49-50 faizə çatırdı.

5-6 faizədək endirildi.

* Elektrik enerjisi çatışmazlığı vardı, regionların enerji təchizatında daimi fasilələr təkcə məişətdə çətinliklər yaratmır, həm də aqrar sahənin və sahibkarlığın inkişafına əngəl törədirdi.

Regionların inkişafına dair bir-birinin ardınca dörd dövlət proqramı qəbul olundu, sistemli enerji təchizatı qaydaya salındı, sahibkarlar üçün münbit şərait yaradıldı, üstəlik, ölkəmizdə yeni yol infrastrukturunun yaradılması başa çatdırıldı.

* Rusiya Azərbaycana təbii qaz ixracını dayandırdığından əhali böyük çətinliklərlə üzləşirdi.

Tezliklə bu problem də aradan qaldırılmaqla ölkə üzrə qazlaşdırma 95 faizi keçdi, hazırda Azərbaycan 14 dövlətə təbii qaz ixrac edir.

* Məcburi köçkünlərin bir qismi ağır şəraitdə, sosial qayğılar məngənəsində yaşayırdı.

Prezident İlham Əliyev "Bir nəfər də olsun çadır şəhərciyində yaşamayacaqdır" vədini qısa müddətdə icra etdi, 116 yeni yaşayış kompleksi və qəsəbə salınaraq 300 mindən artıq məcburi köçkünün həyat şəraiti yaxşılaşdırıldı, dövlətin onlara sistemli qayğı və dəstəyi təmin olundu.

* Enerji resurslarından əldə olunan gəlirlər iqtisadiyyatın digər sahələrinin inkişaf lokomotivinə çevrildi.

Məqsədyönlü və uzaqgörən tədbir, bazar iqtisadiyyatına keçidin doğurduğu nəticələr qısa zaman kəsiyində tarixinin ən qüdrətli Azərbaycanının yaradılması ilə nəticələndi.

Azərbaycan siyasi-diplomatiya sahəsində də böyük uğurlara imza atdı.

Yaxın-uzaq dövlətlərlə bir-birinin suverenliyinə hörmət, daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqları təmin etmək prinsiplərinə əməl etməklə qurulan əməkdaşlıq tezliklə öz bəhrəsini verdi, Azərbaycanla dostluq əlaqəsi quranların və mövqeyini müdafiə edənlərin sayı xeyli artdı.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə hücum diplomatiyasına keçid, beynəlxalq təşkilatlarda fəallığımızın artırılması həm tərəfdarlarımızın sayını çoxaltdı, həm də düşmənin əvvəlkitək sərbəst fəaliyyətinə ciddi maneə törətdi.

Xüsusən də Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının iclaslarına, habelə İslam Əməkdaşlıq Təşkilatına, Qoşulmama Hərəkatına rəhbərliyi dövründə çoxluğun maraqlarına xidmət edən təşəbbüslər irəli sürməsi, inkişaf etməkdə olan ölkələrin mənafelərini qoruyan qətiyyətli addımlar atması Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə, çəkisinin artmasına səbəb oldu.

Çoxcəhətli istiqamətlərdə fəaliyyət göstərən cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpasının özü üçün birnömrəli vəzifə olduğunu kimsədən gizlətmirdi.

Bütün görüş və tədbirlərdə, danışıqlarda torpaqların sülh yolu ilə qaytarılmasının baş tutmayacağı təqdirdə digər vasitələrə əl atacağını açıq şəkildə bəyan edirdi.

Yeni ordu quruculuğu, Azərbaycanın hərbi gücünün artırılması da əsas hədəflərdən biri sayılırdı.

Yaranan iqtisadi imkanlardan səmərəli istifadə edən dövlət başçısı daim müasir ordu yaradılması məsələləri ilə ciddi məşğul olurdu.

5

## 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

6

# Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq məsələləri müzakirə olunub

## Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiya Respublikasının xarici işlər naziri Elina Valtonenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qəbula görə təşəkkürünü bildirən Elina Valtonen, ilk növbədə, Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubbun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Stubba çatdırmağı xahiş etdi.

Söhbət zamanı dövlətimizin başçısı ilə Finlandiya Prezidentinin görüşləri, həmçinin Bakıda keçirilmiş COP29 tədbirində Finlandiyanın ən yüksək səviyyədə iştirakı məmnunluqla xatırlandı.

Elina Valtonen Vaşinqtonda Azərbaycanla Ermənistan arasında əldə olunmuş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevi təbrik edərək, bunun ATƏT məkanında sülh və sabitliyin bərpası, həmçinin regional əməkdaşlıq baxımından önəmini qeyd etdi.

Qonaq Azərbaycan və Ermənistanın müraciəti əsasında ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların fəaliyyətinin 2025-ci il dekabrın 1-dək ləğv ediləcəyini bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmalar sülh gündəliyinin irəli aparılmasına şərait yaratdı.

Prezident İlham Əliyev Vaşinqtonda Ermənistanın icrası ilə bağlı üzərinə öhdəlik götürdüyü TRIPP layihəsinin regional əməkdaşlıq baxımından önəminə toxundu, onun bütün bölgə üçün faydalı olacağını dedi.

Söhbət zamanı ölkəmizlə ATƏT arasında əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycan-Finlandiya ikitərəfli əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 115 (Cild I); 2024, № 10, maddə 1109)8.5-ci maddəsində "qanunsuz miqrantların saxlanılması" sözləri "müvafiq icra hakimiyyəti orqanının müvəqqəti yerləşdirmə" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

# "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ictimai səhiyyə sahəsində sanitariya-epidemioloji xarakterli fövqəladə vəziyyətlərin qarşısının alınması və cavab tədbirləri üzrə əməkdaşlığı haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Müstəqil Dövlətlər Birliyi Hökumət Başçıları Şurasının 2022-ci il 28 oktyabr tarixli iclasında imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ictimai səhiyyə sahəsində sanitariya-epidemioloji xarakterli fövqəladə vəziyyətlərin qarşısının alınması və cavab tədbirləri üzrə əməkdaşlığı haqqında Saziş" Azərbaycan Respublikasının ona dair müvafiq qeyd-şərti ilə (qeyd-şərtin mətni əlavə olunur) təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2025-ci il*

# "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 10, maddə 709 (Cild I) 9.8-ci maddəsinin birinci cümləsinə "rəyi" sözündən sonra "və dövlət dilinin normaları" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 oktyabr 2025-ci il*

# "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1501 (Cild I); 2025, № 5, maddə 454) 3-cü hissəsində "55" rəqəmləri "65" rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2025-ci il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Braziliya Federativ Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il sentyabrın 1-də Brazilia şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Braziliya Federativ Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Braziliya Federativ Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2025-ci il*

# Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçılarına

Hörmətli Forum iştirakçıları!

Sizi Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun açılışı münasibətilə salamlayıram. Xankəndi şəhərinə xoş gəlmisiniz.

Azərbaycanda üçüncü dəfə təşkil olunan və artıq ənənə halını almış bu tədbir şəhərsalma sahəsində milli, regional və beynəlxalq tərəfdaşları bir araya gətirərək təcrübə mübadiləsi aparmaq, yeni təşəbbüslər formalaşdırmaq və əməkdaşlığı gücləndirmək üçün mühüm platforma rolunu oynayır.

BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlıq çərçivəsində keçirilən Milli Şəhərsalma Forumları Azərbaycanın bu sahədə beynəlxalq tərəfdaşlarla uğurlu əməkdaşlığının növbəti parlaq təzahürüdür. Builki forumda 60-dan çox ölkədən 200-dən artıq xarici qonağın, ümumilikdə 400-ə yaxın nümayəndənin iştirakı həm ölkəmizə olan etimadın və dostluğun, həm də şəhərsalma istiqamətində ortaq məqsədlər naminə həmrəyliyimizin göstəricisidir.

Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən birini təşkil edir. Ölkədə şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycan dövlətinin şəhərsalma sahəsində strateji baxışını və icra imkanlarını nümayiş etdirir.

Ötən otuz il ərzində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində şəhər və kəndlər tamamilə viran edilmiş, tarixi-mədəni irsimiz dağıdılmış, torpaqlar geniş miqyasda mina çirklənməsinə məruz qalmış, bir milyondan artıq azərbaycanlı öz yurd-yuvasından didərgin salınmışdır. 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər sayəsində həmin ərazilərin işğaldan azad edilməsi ölkəmiz üçün bərpa, yenidənqurma və dirçəliş dövrünün əsasını qoydu.

Bu gün Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadrat kilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin baş planları artıq təsdiqlənib. İşğaldan azad olunmuş 6 şəhər, 2 qəsəbə və 20 kəndə insanlar geri qayıdaraq məskunlaşıb.

Müasir şəhərsalma prinsiplərinin tətbiqi ilə Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı infrastrukturunun qurulması, yaşayış məntəqələrinin yenidən salınması və əhalinin qayıdışı üçün zəruri şəraitin yaradılması istiqamətində sistemli və ardıcıl tədbirlər həyata keçirilir. Burada son dörd il ərzində 3 yeni beynəlxalq hava limanı, avtomobil və magistral yolları, yeni dəmir yolu infrastrukturu inşa olunub, həmçinin yaşayış evləri, səhiyyə müəssisələri, təhsil ocaqları və digər sosial infrastrukturun tikintisi davam etdirilir.

İşğaldan azad edilmiş ərazilərin bərpası prosesində enerji infrastrukturunun yenidən qurulmasına və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi önəm verilir. "Yaşıl enerji" zonası elan edilmiş və 10 min meqavat "yaşıl enerji" üzrə texniki potensiala malik Qarabağ və Şərqi Zəngəzurda günəş və külək enerjisi layihələri sürətlə həyata keçirilir. Burada "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Regionda iqtisadi inkişafın və məşğulluğun təmin edilməsi məqsədilə sənaye parkları, iqtisadi zonalar yaradılır. Bütün bunlar yerli istehsal imkanlarının genişləndirilməsi və yeni iş yerlərinin açılması ilə yaşayış məntəqələrinin dayanıqlı inkişafına töhfə verir. Eyni zamanda salınan yeni yol infrastrukturu sayəsində Qarabağ və Şərqi Zəngəzurun Bakı və ölkənin digər əraziləri ilə birbaşa əlaqələndirilməsi bu regionların sürətli iqtisadi və sosial inkişafına xidmət edir. Bu gün Böyük qayıdış proqramı çərçivəsində artıq 60 minə yaxın insan bu ərazilərdə yaşayır, işləyir və təhsil alır.

Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun Xankəndi şəhərində keçirilməsi xüsusi məna daşıyır. Uzun illər işğal altında qalmış bu şəhər bu gün sülhün, bərpanın və dirçəlişin rəmzidir. Xankəndidə icra olunan infrastruktur layihələri şəhərin müasir, ağıllı və innovativ şəhər konsepsiyasına uyğun inkişafını təmin edir.

Qarabağ və Şərqi Zəngəzur regionlarında həyata keçirilən quruculuq prosesi təkcə şəhərsalma və infrastrukturun inkişafı deyil, regionda uzunmüddətli sülh və əməkdaşlığın qurulması baxımından xüsusi əhəmiyyət daşıyır. Həyata keçirilən məqsədyönlü layihələr, qurulan yeni əməkdaşlıqlar və formalaşan iqtisadi mühit yerli əhali üçün dayanıqlı yaşam imkanları yaradır və şəhərlərin dayanıqlı inkişafına xidmət edir.

Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi qabaqcıl təcrübə beynəlxalq ictimaiyyət tərəfindən böyük maraqla qarşılanır. Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma sahəsində qlobal çağırışların həllində və innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. Bu sahədə beynəlxalq əməkdaşlıq, xüsusilə də BMT-nin Məskunlaşma Proqramı ilə birgə həyata keçirilən təşəbbüslər xüsusi önəm daşıyır.

2026-cı ildə dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın göstəricisidir. Bu mötəbər tədbir Azərbaycanın ümumdünya urbanizasiya proseslərində rolunu daha da gücləndirəcək, regionun dayanıqlı inkişafınavə ümumilikdə qlobal urbanizasiya məqsədlərinə mühümtöhfə verəcəkdir.

Bugünkü Forum 13-cü Ümumdünya Şəhərsalma Forumuna gedən yolda mühüm mərhələdir. Əminəm ki, burada aparılan müzakirələr şəhərlərin planlaşdırılması, bərpası və davamlı inkişafı sahəsində strateji təşəbbüslərin həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edəcək, gələcək nəsillər üçün daha "yaşıl", inklüziv və firavan yaşayış mühitinin formalaşdırılmasına xidmət edəcəkdir.

Bir daha hamınızı Azərbaycanda salamlayır, forumun işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2025-ci il*

# "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 sentyabr tarixli 256-VIIKQD nömrəli Konstitusiya Qanununun tətbiqi və "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 mart tarixli 671 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 sentyabr tarixli 256-VIIKQD nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 8.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir.

2. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında "Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 mart tarixli 671 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 121 (Cild I) 1-ci və 2-ci hissələri müvafiq olaraq 2-ci və 3-cü hissələr hesab olunsun və aşağıdakı məzmunda 1-ci hissə əlavə edilsin:

"1. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 8.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti həyata keçirir.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 sentyabr tarixli 256-VIIKQD nömrəli Konstitusiya Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2025-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli və "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturunun təkmilləşdirilməsi və "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2023-cü il 8 fevral tarixli 2035 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1841 (Cild I); 2024, № 8, maddə 938, № 12 (II kitab), maddə 1373; 2025, № 7, maddə 659) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə "165" rəqəmləri "181" rəqəmləri ilə, "88" rəqəmləri "104" rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə"nin 5-ci hissəsi üzrə:

1.2.1. 5.1-ci bəndin birinci cümləsindən", habelə Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti" sözləri çıxarılsın;

1.2.2. 5.6-cı bəndin birinci cümləsindən ", Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktorundan" sözləri çıxarılsın.

2. "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturunun təkmilləşdirilməsi və "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2035 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 243 (Cild I) 1.8-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.9-cu bənd əlavə edilsin:

"1.9. Naxçıvan Regional Turizm İdarəsi.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 oktyabr 2025-ci il*

# Milli Məclisin Sədri TÜRKPA-nın yeni baş katibinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova təşkilatın baş katibini yeni fəaliyyətə başlaması münasibətilə təbrik edərək, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.**

Qeyd olunub ki, eyni kökdən olan, ortaq milli-mənəvi dəyərləri bölüşən xalqlarımızın birlik və həmrəyliyinin gücləndirilməsi, qardaş ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əlaqələrin, qarşılıqlı dəstək və birgə fəaliyyətin daha da möhkəmləndirilməsində türk əməkdaşlıq təşkilatları özünəməxsus rol oynayırlar. Bu sırada TÜRKPA çərçivəsində əməkdaşlığın dərinləşməsinin əhəmiyyəti vurğulanaraq, bildirilib ki, Türk Dövlətləri Parlament Assambleyası parlamentlərimizin qarşılıqlı faydalı işbirliyinin səmərəli mexanizminə çevrilib və ortaq maraqlarımızı reallaşdırmağa imkan verən mühüm platforma kimi çıxış edir.

Diqqətə çatdırılıb ki, Milli Məclis bu təşkilat çərçivəsində fəaliyyətə böyük önəm verir. Spiker Sahibə Qafarova deyib ki, Milli Məclisin TÜRKPA çərçivəsində əməkdaşlığının, həmçinin təşkilata üzv ölkələrin parlamentləri ilə əlaqələrinin mahiyyətində Prezident İlham Əliyevin "Bizim ailəmiz türk dünyasıdır. Bizim başqa ailəmiz yoxdur" fikri dayanır.

Görüşdə bu təşkilatın qarşıdakı dövrdə də fəaliyyətinin səmərəli və məqsədyönlü həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

TÜRKPA-nın baş katibi Ramil Həsən göstərilən etimada görə minnətdarlığını bildirərək, rəhbərlik etdiyi təşkilatın bundan sonra da fəaliyyətinin genişləndirilməsi, təşkilata üzv olan qardaş ölkələrin parlamentləri arasında əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində səylərini davam etdirəcəyini bildirib.

Görüşdə TÜRKPA-nın baş katibinin müavinləri Talqat Aduov, Sakı Sadıkov və Muhammet Alper Hayali də iştirak ediblər.

*"Azərbaycan"*

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



**Məzahir Pənahovun sədrliyi ilə oktyabrın 15-də Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın 2025-ci il iyunun 20-də keçirilən iclasının protokolu təsdiq olunub.

Sonra VII çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Sahib oğlu Həsənin deputat səlahiyyətlərinə xitam verilməsi məsələsinə baxılıb.

Bildirilib ki, Milli Məclisin deputatı Ramil Həsən Türk Dövlətləri Parlament Assambleyasının qərarı ilə təşkilatın baş katibi vəzifəsinə seçilib. Bununla əlaqədar onun MSK-ya ünvanladığı müraciəti və Türk Dövlətləri Parlament Assambleyasının müvafiq təsdiqedici sənədləri qanunvericiliyə uyğun qaydada araşdırılıb, deputat səlahiyyətlərinə xitam verilməsi üçün əsasların olduğu müəyyənləşib. Komissiya qeyd olunanları nəzərə alaraq, ölkə konstitusiyasının və Seçki Məcəlləsinin tələblərinə əsasən, R.Həsənin deputat səlahiyyətlərinə xitam verilməsi barədə qərar qəbul edib.

İclasda daha sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi məsələsinə baxılıb. MSK üzvlərinin müzakirəsinin ardınca 44 saylı Sumqayıt üçüncü, 60 saylı Quba-Qusar, 62 saylı Kürdəmir, 65 saylı Salyan-Biləsuvar-Neftçala, 76 saylı Lənkəran-Masallı, 100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər, 102 saylı Şəmkir şəhər, 108 saylı Ağstafa və 117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairəsi dairə seçki komissiyasının tərkibində dəyişiklik olunması qərara alınıb.

Media mənsublarının iştirakı ilə keçirilən iclasda, həmçinin cari məsələlərə də baxılıb.

QƏRAR № 18/77

## Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Sahib oğlu Həsənin deputat səlahiyyətlərinə xitam verilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Sahib oğlu Həsən 2025-ci il oktyabrın 2-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək Türk Dövlətləri Parlament Assambleyasının (2025-ci il 12 iyun tarixli) Qərarı ilə həmin təşkilatın Baş katibi vəzifəsinə seçilməsilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam verilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı R.S.Həsənin müraciəti və Türk Dövlətləri Parlament Assambleyası tərəfindən təqdim olunmuş təsdiqedici sənədlər qanunvericilikdə nəzərdə tutulmuş qaydada araşdırılmış və onun deputat səlahiyyətlərinə xitam verilməsi üçün əsasların olduğu müəyyən edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin 4-cü bəndinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin deputatı başqa ödənişli fəaliyyətlə məşğul olduqda onun deputat səlahiyyətlərinə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 175.3-cü maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının qərarı ilə xitam verilir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək və Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin I hissəsinin 4-cü bəndinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.14-cü, 28.2-ci, 28.4-cü, 175.3-cü, 176.2-ci və 176.3-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramil Sahib oğlu Həsənin deputat səlahiyyətlərinə xitam verilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*15.10.2025*

# Milli Məclisin Sədri Sahibə Qafarova Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasının iştirakçıları ilə görüşüb

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, oktyabrın 15-də parlamentdə keçirilən görüşdə Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasının iştirakçılarını salamlayan Sahibə Qafarova deyib ki, təxminən 100 ölkənin milli Hakimlər Assosiasiyalarını bir araya gətirən bu təşkilat dialoq və əməkdaşlıq üçün mühüm platforma rolunu oynayır.**





Bu tədbirin Azərbaycanda keçirilməsi ölkəmiz üçün rəmzi əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən, 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunub. 30 il əvvəl, 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanaraq qəbul edilib.

Konstitusiyada hakimiyyət bölgüsü prinsipi təsbit olunub ki, bu prinsipə əsasən, qanunverici, icraedici və məhkəmə hakimiyyətləri qarşılıqlı əlaqədə fəaliyyət göstərir və öz səlahiyyətləri çərçivəsində müstəqildirlər.

Parlamentin spikeri söyləyib ki, Prezident cənab İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı müraciətdə də qeyd olunduğu kimi, Azərbaycan Respublikasının Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasına evsahibliyi etmək hüququnu qazanması ölkəmizin beynəlxalq nüfuzunun artmasının göstəricisidir və qlobal hüquq ictimaiyyətinin Azərbaycan məhkəmə-hüquq sisteminə olan inam və etimadını əks etdirir.

Sonra spiker Sahibə Qafarova Azərbaycanın parlamentarizm tarixi haqqında məlumat verib.

Görüşdə Milli Məclisin Sədri parlamentin qanunvericilik, təmsilçilik və nəzarət funksiyalarını həyata keçirdiyini qeyd edərək parlamentin əsas funksiyalarına uyğun olaraq Milli Məclisin konstitusiya qanunlarını, eləcə də səlahiyyət dairəsinə daxil olan digər qanun və qərarları qəbul etdiyini qeyd edib. Onun sözlərinə görə, parlamentin təmsilçilik funksiyası mühüm əhəmiyyətə malikdir. Bu funksiyaya uyğun olaraq, deputatlar seçicilərinin qaldırdığı məsələləri hökumət, bələdiyyələr və digər aidiyyəti qurumlar qarşısında gündəmə gətirir, onların ehtiyac və tələblərinə uyğun həll yollarının tapılması üçün səy göstərirlər.

Spiker parlamentin nəzarət funksiyası barədə danışarkən deyib ki, konstitusiyaya əsasən, Milli Məclis dövlət büdcəsini təsdiq edir və onun icrasına parlament tərəfindən formalaşdırılan Hesablama Palatası vasitəsilə nəzarəti həyata keçirir. Qanunvericiliyə görə, Hesablama Palatası öz fəaliyyətinə dair illik hesabatı Milli Məclisə təqdim edir. Azərbaycan Respublikasının Nazirlər Kabineti də hər il yaz sessiyası zamanı Milli Məclis qarşısında öz fəaliyyətinə dair hesabat verir.

Qonaqların diqqətinə çatdırılıb ki, Milli Məclis ilə məhkəmə sistemi arasındakı münasibətlər qarşılıqlı əməkdaşlıq xarakteri daşıyır. Məhkəmə-hüquq islahatlarına dair təşəbbüslər parlamentdə mütəmadi olaraq müzakirə edilir, təkmilləşdirilir və qəbul olunur.

Milli Məclisin Sədri deyib ki, hazırda fəaliyyət göstərən, VII çağırış Milli Məclis 2024-cü ilin sentyabrında keçirilmiş seçkilərlə formalaşıb. Müstəqillik dövründə ilk dəfə olaraq seçkilər ölkəmizin bütün ərazisində keçirilib. Azərbaycan ərazisinin 20 faizi təqribən 30 il ərzində Ermənistanın işğalı altında olub. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında keçirilmiş birgünlük antiterror tədbirləri nəticəsində Qarabağ və Şərqi Zəngəzur bölgələri işğaldan azad edilmiş, dövlətimizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur. Bu səbəbdən həmin seçkilər bizim üçün tarixi əhəmiyyət daşıyır.

Çıxışının sonunda Milli Məclisin Sədri Sahibə Qafarova əmin olduğunu bildirib ki, Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasının nəticələri məhkəmə müstəqilliyinin və hüququn aliliyinin gücləndirilməsinə mühüm töhfə verəcəkdir.

Tədbirdə çıxış edən Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasının iştirakçılarını parlamentdə salamlayaraq illik toplantının işinə uğurlar arzulayıb. O, parlament və məhkəmə orqanları arasında əməkdaşlıqla bağlı fikirlərini açıqlayaraq, Milli Məclisin məhkəmə sisteminə dair bir sıra təşəbbüsləri dəstəklədiyini bildirib. Diqqətə çatdırılıb ki, Milli Məclis Azərbaycan Prezidentinin təqdimatı əsasında Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və Apellyasiya məhkəmələri hakimlərinin namizədliklərini, hakimlərin statusu, məhkəmə qərarlarının icrası və digər məsələlərlə bağlı qərarları təsdiq edir. Hakimlərin özünüidarəetmə orqanı olan Məhkəmə-Hüquq Şurasının bir üzvü də məhz Milli Məclis tərəfindən təyin olunur.

Sonra Fərid Hacıyev slaydlar vasitəsilə parlamentin səlahiyyətləri, onun fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar barədə məlumat verib. Habelə parlamentin prosedur qaydalarını, deputatların fəaliyyətini tənzimləyən digər normativ-hüquqi aktlardan da söhbət açılıb.

Aparat rəhbəri daha sonra qanunvericilik təşəbbüsü hüququ haqqında danışaraq, bununla bağlı prosedur qaydalarına dair ətraflı məlumat verilib. Fərid Hacıyev, habelə qanunverici orqanın strukturu barədə də söhbət açıb.

Tədbirdə Azərbaycan Ali Məhkəməsinin Mülki kollegiyasının sədri Sənan Hacıyev və Beynəlxalq Hakimlər Assosiasiyasının prezidenti Valter Baron çıxış ediblər. Onlar Beynəlxalq Hakimlər Assosiasiyasının Bakıda keçirilən 67-ci Baş Assambleyasının iştirakçıları ilə keçirilən görüşə, Azərbaycan parlamentinin tarixi, səlahiyyətləri, qanunvericilik prosedurları və digər məsələlər barəsində ətraflı təqdimata görə təşəkkür ediblər. Qonaqlar Azərbaycan parlamentinin məhkəmə hakimiyyəti ilə sıx əməkdaşlığını təqdir ediblər, Azərbaycanda olmaqdan məmnun olduqlarını və xalqımızın qonaqpərvərliyini yüksək qiymətləndirdiklərini bildiriblər.

Sonda xatirə şəkli çəkilib.

*"Azərbaycan"*

QƏRAR № 18/76

## Mərkəzi Seçki Komissiyasının 2025-ci il 20 iyun tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2025-ci il 20 iyun tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*15.10.2025*

QƏRAR № 18/78

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Ələsgər Xəlil oğlu Abdullayev 44 saylı Sumqayıt üçüncü, Rauf Hüseyn oğlu Heydərov 76 saylı Lənkəran - Masallı, Aida Marks qızı Məmmədova 108 saylı Ağstafa, Səbinə Məhərrəm qızı Həmidova 117 saylı Oğuz - Qəbələ - Şəki seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.
2. Sevinc Asim qızı Səlimova 60 saylı Quba - Qusar, Zahid Hüseyn oğlu Hüseynov 62 saylı Kürdəmir, Aftandil Rzalı oğlu İsayev 65 saylı Salyan - Biləsuvar - Neftçala, Aytac Müşfiq qızı Nəbiyeva 100 saylı Göygöl - Daşkəsən - Kəlbəcər, Babək Yaşar oğlu Abbasov 102 saylı Şəmkir şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*15.10.2025*

# Milli Məclisdə Qazaxıstan nümayəndə heyəti ilə görüş olub



**Oktyabrın 15-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Qazaxıstan Xalqları Assambleyasının vilayət mediasiya şurasının və Manqıstau vilayət məclisinin sədri Matayev Janbırbay Canibekoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, dövlətlərarası əlaqələrin yüksək səviyyədə olduğunu deyən Hicran Hüseynova qeyd edib ki, hər iki dövlətin liderləri ailə, qadın və uşaq məsələlərinə xüsusi əhəmiyyət verirlər. O, bu il Almatı şəhərində keçirilən ailə dəyərlərinin möhkəmləndirilməsi, qadın hüquqlarının qorunması mövzularına həsr edilmiş forumda iştirakını xatırlayaraq, tədbirin çox səmərəli keçdiyini söyləyib. Görüşdə belə bir əminlik ifadə olunub ki, parlamentlərarası əlaqələrin dərinləşdirilməsi gələcəkdə bu sahədə qarşılıqlı faydalı əməkdaşlığı daha da dərinləşdirəcək.

Öz növbəsində, Matayev Janbırbay Canibekoviç göstərilən səmimi qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O vurğulayıb ki, dövlətlərimiz arasındakı dostluq və qardaşlıq münasibətləri hər iki ölkənin parlament sədrlərinin səmərəli və məqsədyönlü fəaliyyəti nəticəsində daha da möhkəmlənib, yüksək səviyyədə inkişaf edib. Qonaq gələcəkdə bu əməkdaşlığın parlamentlərarası dialoq və qarşılıqlı layihələr vasitəsilə daha da dərinləşəcəyinə ümidvar olduğunu qeyd edib.

Görüşdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, Qazaxıstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov, deputat İlham Məmmədov və Qazaxıstan nümayəndə heyətinin üzvləri çıxış edərək parlamentlərarası münasibətlərin inkişaf perspektivlərini və qarşılıqlı faydalı əməkdaşlıq barədə fikirlərini səsləndiriblər.

*"Azərbaycan"*

# Azərbaycan Prezidentinin köməkçisi Almaniya Kanslerinin müşaviri ilə görüşüb



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Berlində Almaniya Kanslerinin xarici və təhlükəsizlik siyasəti üzrə müşaviri Günter Sautter ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin köməkçisi "X" hesabında bu barədə paylaşım edib.

Görüşdə iki ölkə arasında ikitərəfli və regional məsələlərin müzakirə olunduğunu qeyd edən Hikmət Hacıyev əlavə edib: "Regionda yaranmış yeni sülh dövrü əlaqələrimizin və Avropa İttifaqı ilə əməkdaşlığın inkişafı üçün geniş imkanlar açır".

# Xankəndi şəhərində III Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib




**Oktyabrın 15-də Xankəndi şəhərində III Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi keçirilib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forum iştirakçılarına müraciətini səsləndirib.

Sonra çıxış edən BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru xanım Anaklaudiya Rossbax III Azərbaycan Milli Şəhərsalma Forumunun qlobal şəhərsalma gündəliyinin həyata keçirilməsi və dayanıqlı şəhərlərin qurulması istiqamətində mühüm çoxtərəfli əməkdaşlıq fürsəti olduğunu, təkcə Azərbaycan üçün deyil, bütün region və dünya üçün mühüm əhəmiyyət daşıdığını bildirib. İcraçı direktor həmçinin 2026-cı ildə ölkəmizin evsahibliyi edəcəyi Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasına hazırlıq proseslərində Azərbaycan hökumətinin fəaliyyətindən və dəstəyindən razılığını ifadə edib.

"Qlobal enerji istehlakının 75 faizdən, istixana qazı emissiyalarının 70 faizdən çoxu şəhərlərdə formalaşır. Bununla belə, iqlim dəyişikliyinin təsirləri də ən çox şəhərlərdə hiss olunur - temperaturun artmasından və dəniz səviyyəsinin yüksəlməsindən tutmuş daşqınlara və su qıtlığına qədər. Buna baxmayaraq, şəhərlərin ehtiyacları daxili və qlobal iqlim maliyyələşməsində kifayət qədər təmsil olunmur. Biz təkcə yumşaldıcı tədbirlərdə geridə qalmırıq, həm də ən çox ehtiyac duyulan yerlərdə davamlılığa az investisiya qoyuruq. Şəhər artımının sürətini nəzərə alsaq, bu, xüsusilə narahatedicidir", - deyən UN-Habitat-ın icraçı direktoru Anaklaudiya Rossbaxın sözlərinə görə, 2050-ci ilə qədər dünya əhalisinin təxminən 70 faizi şəhərlərdə yaşayacaq. "Şəhər davamlılığını təmin etmək üçün atdığımız addımlar bizi yüksək emissiyalı gələcəyə kilidləyəcək, yoxsa inklüziv, aşağı karbonlu şəhər inkişafı yolunu açacaq - III Azərbaycan Milli Şəhərsalma Forumu kimi tədbirlər məhz bu məqsədə xidmət edir. Anaklaudiya Rossbax bildirib ki, 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyası öhdəlikləri yeniləmək, irəliləyişi izləmək və tərəfdaşlıqları kataliz etmək üçün qlobal yoxlama məkanı olacaq.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev çıxışında 64 ölkədən 400-ə yaxın iştirakçının qatıldığı Milli Şəhərsalma Forumunun dayanıqlı şəhər inkişafı sahəsində təcrübə mübadiləsi üçün geniş imkanlar yaratdığını və Azərbaycanın urbanizasiya siyasətini beynəlxalq standartlara uyğunlaşdırmaq təşəbbüsü baxımından əhəmiyyətini vurğulayıb.

Bildirib ki, Azərbaycan Prezident İlham Əliyevin siyasi iradəsi və uzaqgörənliyi sayəsində Bakıdan Qarabağadək, ölkənin bütün bölgələrinə qədər genişmiqyaslı şəhərsalma transformasiyası həyata keçirir. Bu transformasiya Azərbaycanın dayanıqlı inkişaf, innovativ şəhərsalma və inklüziv böyüməyə olan sadiqliyini əks etdirir.

Onun sözlərinə görə, Azərbaycanda keçirilən Milli Şəhərsalma forumları dialoq, əməkdaşlıq və təcrübə mübadiləsi üçün mühüm platforma kimi çıxış edir. 2022-ci ildəki ilk forum hökumət nümayəndələri, ekspertlər və beynəlxalq tərəfdaşları bir araya gətirərək, milli şəhərsalma çərçivəsini formalaşdırmağa imkan verdi. Bu təməlin üzərində, 2023-cü ildə keçirilən ikinci forum əməkdaşlıq mühitini daha da gücləndirib və innovasiyaların təşviq edilməsi ilə yanaşı, Yeni Şəhər Gündəliyi və Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluğu təmin edib.

Son üç il ərzində Milli Şəhərsalma Forumu sadəcə adi tədbir deyil, davamlı şəhərsalma sahəsində dialoq, əməkdaşlıq və ortaq irəliləyiş üçün institusional bir platformaya çevrilib.

Çıxışlarla davam edən forumda BMT-nin Məskunlaşma Proqramı Assambleyasının prezidenti, Malayziyanın Mənzil tikintisi və yerli özünüidarəetmə naziri Nqa Kor Minqin tədbir iştirakçılarına video müraciəti təqdim olunub.

Forum panel müzakirə ilə davam edib.

# Azərbaycan ilə Niderland arasında ikitərəfli və çoxtərəfli gündəlikdə olan mövzular müzakirə edilib

**Oktyabrın 15-də Niderlandda səfərdə olan Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov bu ölkənin xarici işlər nazirinin müavini Marsel de Vink ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə son dövrlər iki ölkə arasında yüksək səviyyədə baş tutmuş təmasların, xüsusilə də "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə Toplantısı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Niderlandın Baş naziri Dik Sxof arasında keçirilmiş görüşün əlaqələrin inkişafı üçün müsbət zəmin yaratdığı qeyd olunub.

Tərəflər mütəmadi siyasi dialoqun, bu çərçivədə xarici işlər nazirləri arasında beynəlxalq platformalar çərçivəsində görüşlərin təşkili, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin aparılması üçün cari ilin fevralında nazir müavini Marsel de Vinkin Bakıya səfərinin və qarşılıqlı səfərlərin davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Görüşdə müxtəlif sahələrdə əlaqələrin inkişafı üçün mövcud imkanlar ətrafında fikir mübadiləsi aparılıb, iqtisadi əməkdaşlığın iki ölkə arasında əlaqələrdə mühüm yer tutduğu qeyd olunub və Niderland şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətindən məmnunluq ifadə edilib.

İkitərəfli və çoxtərəfli gündəlikdə duran mövzular, habelə qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlər, o cümlədən postmünaqişə dövründə regionda yaranmış yeni reallıqlar, sülh prosesi və tarixi Vaşinqton görüşünün nəticələri də görüşdə diqqət mərkəzində olub.

Nazir müavini Elnur Məmmədov Azərbaycanın bölgədə davamlı inkişaf və sabitlik naminə atdığı addımlar barədə qarşı tərəfə məlumat verib.

# Azərbaycan-ATƏT əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub

**Oktyabrın 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Finlandiyanın xarici işlər naziri və ATƏT-in fəaliyyətdə olan sədri Elina Valtonen ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan-Finlandiya ikitərəfli münasibətləri, Finlandiyanın ATƏT-də sədrliyi dövründə prioritet istiqamətlər, ATƏT-in qarşısında duran çağırışlar, Azərbaycan-ATƏT əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri, eləcə də bölgədə postmünaqişə dövründə vəziyyət, Azərbaycan-Ermənistan sülh prosesi müzakirə olunub.

Tərəflər ötən il COP29 çərçivəsində Bakıda, eləcə də bu ilin sentyabrında BMT Baş Assambleyasının yüksəksəviyyəli həftəsi zamanı Nyu Yorkda liderlər arasında keçirilmiş görüşlərin ikitərəfli münasibətlərin inkişafına töhfəsini məmnunluqla qeyd ediblər. Nazirlər münasibətlərin genişləndirilməsi məqsədilə qarşılıqlı səfərlərin və dialoqun intensivləşdirilməsinin vacibliyini vurğulayıblar.

Görüş zamanı Finlandiyanın ATƏT sədrliyi çərçivəsində prioritetlərə toxunulub.

Ceyhun Bayramov diqqətə çatdırıb ki, Finlandiyanın sədrliyi Avropada təhlükəsizliyin ciddi çağırışlarla üzləşdiyi dövrə təsadüf edir. Bu şəraitdə ATƏT-in çoxtərəfli platforma kimi çevik şəkildə yeni reallıqlara uyğunlaşmasının, öz aktuallığını və funksionallığını qoruyub saxlamasının əhəmiyyəti vurğulanıb.

Nazir həmçinin regionda son vəziyyət, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri, məcburi köçkünlərin geri qayıdışı istiqamətində görülən tədbirlər və mina təhdidi barədə finlandiyalı həmkarını məlumatlandırıb.

Görüşdə Azərbaycan-Ermənistan sülh prosesi də müzakirə edilib. Nazir Ceyhun Bayramov bu il avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin tarixi görüşünün və imzalanmış Birgə Bəyannamənin əhəmiyyətini qeyd edib. Sülh sazişinin imzalanması istiqamətində atılacaq növbəti addımlar və Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması zərurəti bir daha diqqətə çatdırılıb.

"Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" (TRIPP) layihəsinin regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpası baxımından əhəmiyyəti vurğulanıb.

Tərəflər postmünaqişə dövründə reallıqları nəzərə alaraq, funksional əhəmiyyətini itirmiş Minsk prosesi, fəaliyyətdə olan sədrin xüsusi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupu kimi ATƏT təsisatlarının fəaliyyətinin sentyabrın 1-dən dayandırılması barədə qərarı müsbət qiymətləndiriblər.

Nazir Ceyhun Bayramov ATƏT çərçivəsində əməkdaşlıq layihələrinin həyata keçirilməsi istiqamətində mövcud maneələrdən bəhs edərək, Azərbaycan Əməkdaşlıq Proqramının icrasına start verilməsinin vacibliyini qeyd edib. O, xüsusilə minalardan təmizləmə, ekoloji vəziyyətin qiymətləndirilməsi və kibertəhlükəsizlik sahələrində praktiki əməkdaşlığın inkişaf etdirilməsinin faydalı olacağını vurğulayıb.

C.Bayramov həmçinin ATƏT-in iqtisadi və ətraf mühit ölçüsü üzrə təşəbbüslərin əhəmiyyətini qeyd edərək, Azərbaycan tərəfindən təşəbbüs göstərilən "Xəzər dənizi regionunda yaşıl limanların və bağlantıların təşviqi" layihəsinin uğurla icra olunduğunu və artıq üçüncü mərhələyə keçdiyini bildirib.

Nazir Finlandiyanın ATƏT sədrliyinə uğurlar arzulayaraq, bu sədrliyin çoxtərəfli dialoq və əməkdaşlıq mühitinin gücləndirilməsinə, ATƏT-in fəaliyyətinin canlandırılmasına mühüm töhfə verəcəyinə ümidvar olduğunu qeyd edib.

Tərəflər, bundan əlavə qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçıları Şuşa şəhəri ilə tanış olublar










**"İqlimədavamlı və sağlam şəhərlərə doğru: regional tərəfdaşlıqlar və innovativ həllər" mövzusunda 3-cü Milli Şəhərsalma Forumunun iştirakçıları Azərbaycanın tarixi və mədəniyyətinin simvolu olan Şuşa şəhəri ilə tanış olublar.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Şuşa şəhəri ilə tanışlıq ilk inşa edilən yaşayış kompleksi ilə başlayıb. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov onlara şəhərdə aparılan tikinti-quruculuq işləri barədə məlumat verib. Bildirib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhəri, o cümlədən tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb: "Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastruktur layihələri həyata keçirilib, 23 binadan ibarət ilk yaşayış kompleksi istifadəyə verilib və keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı təmin edilib. Bu istiqamətdə işlər davam etdirilir. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpası da həyata keçirilir".

Qonaqlar sonra Azərbaycanın tanınmış şəxsiyyətləri Üzeyir bəy Hacıbəylinin, Bülbülün və Xurşidbanu Natəvanın güllələnmiş heykəlləri olan mərkəzi meydan, Yuxarı Gövhər ağa məscidi və qala divarları ilə tanış olublar.

# Energetika naziri Pərviz Şahbazov vətəndaşların müraciətlərini dinləyib

**Energetika naziri Pərviz Şahbazov Sumqayıt şəhəri, Cəlilabad və Xaçmaz rayonlarından olan vətəndaşlarla görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə qaz təchizatı, qaz sayğacının quraşdırılması, elektrik enerjisi təchizatı, transformatorun yenilənməsi və digər istiqamətlərdə müraciətlər dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün aidiyyəti struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, Energetika Nazirliyi tərəfindən vətəndaş müraciətlərinə baxılması işinin səmərəli təşkili məqsədilə rəhbər vəzifəli şəxslərin vətəndaş qəbulu qrafiki nazirliyin rəsmi internet saytında yerləşdirilib.



# ÜÇ CƏBHƏDƏ MÜBARİZƏNİ ZƏRURİ EDƏN MƏQAMLAR

**Qarabağ uğrunda mübarizə, əslində, həm də Azərbaycanın müstəqilliyi, suveren dövlət kimi yaşaması uğrunda mübarizə olub!**

*Erməniləri Azərbaycana məxsus torpaqlarda yerləşdirərək onlara forpost dövlət yaratmaq ideyası əvvəl çar Rusiyasının, sonra sovet Rusiyasının məkrli planı idi.*

**Bunda bir neçə məqsəd güdülürdü:**

*Əvvəla,* əlaltı dövlət olan Ermənistan vasitəsilə bölgədə münaqişə ocağı yaradaraq onu qaynar vəziyyətdə saxlamaq, bu münaqişə vasitəsilə hər iki tərəfə təzyiq göstərməklə onları daimi itaət altına salmaq;

*İkincisi,* Ermənistanda rus hərbi bazası yaratmaqla Türkiyəni təhdid altında qoymaq;

*Ən nəhayət,* türk dünyasını parçalayaraq onların quru yolla bir-birlərindən əlaqələrini kəsmək, əl-ələ verərək birgə inkişaflarının qarşısını almaq idi!

*Hər dəfə əlverişli məqam yarananda Rusiyanın köməyilə Azərbaycandan torpaq qoparılaraq Ermənistana pay verilirdi:*

* Azərbaycan birinci dəfə dövlət müstəqilliyi qazananda Xalq Cümhuriyyətini torpaq güzəştinə vadar etdilər.

* Stalinin imzaladığı qərarla 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlı dədə-baba torpaqlarından deportasiya olundu.

* Ötən əsrin sonlarında Azərbaycan ikinci dəfə dövlət müstəqilliyi qazananda 366-cı sovet alayının köməyi ilə əvvəlcə Qaradağlıda, Bağanıs-Ayrımda, Xocalıda soyqırımları törədildi, sonra Azərbaycanın yeddi rayonu keçmiş DQMV ilə birlikdə Ermənistanın tərkibinə qatıldı.

**Bütün bunlar riyakarlıqlarla, ikiüzlülüklərlə, üzdə bir söz söyləyib, arxada başqa əməl törətməklə baş verirdi.**

"Dağlıq Qarabağ münaqişəsi"nin tarixinə, müxtəlif dövr və zamanda bununla bağlı baş verən hadisələrə nəzər saldıqda müəyyən qənaətlərə gəlmək mümkündür.

Azərbaycandan ərazi qoparılmasına xidmət edən və ikili standartlardan qaynaqlanan bu münaqişə heç də yalnız iki dövlət arasında baş verməyib, daim bunda maraqlı olan digər dövlətlər də açıq və gizli formada onun iştirakçılarına çevriliblər.

*Mübarizə adətən üç mühüm müstəvidə davam edib, beynəlxalq qurum və təşkilatlar prosesə müdaxilə edəndə isə həmişə tərəf tutublar, bütövlükdə ədalətin bərpası və sülhyaratma yolunda heç bir həlledici nəticəyə nail olmayıblar, əksinə, heç bunu istəməyiblər də!*

❖ ❖ ❖

Dünyanın güclü dövlətlərinin üzdə özlərini bitərəf, sülh istəyən kimi qələmə verərək əməldə daim tərəf tutmaları, zaman-zaman öz parlamentlərində Azərbaycana təzyiq məqsədilə müzakirələr keçirərək qərəzli sənədlər qəbul etmələri, həmsədr dövlətlərin Yeltsin, Makron, Bayden kimi prezidentlərinin Ermənistana maliyyə yardımı göstərmələri, pulsuz silah-sursatla təmin etmələri, beynəlxalq təşkilatlarda beynəlxalq hüququ unudaraq Azərbaycana siyasi təzyiqlər göstərmələri, sonradan adi kağız parçalarına çevrilən müxtəlif sənədlər qəbul etmələri, ATƏT-in Minsk qrupu adlı guya sülhyaradıcı bir təşkilat yaratmaqla münaqişəni mənasız sülh danışıqları ilə uzatmaları, beləliklə, Azərbaycanı işğal faktı ilə barışdırmaq, Ermənistana növbəti dəfə ərazi "bağışlamağ"a razı salmaq niyyəti güdürdü.

**Dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən aparılan belə çirkin bir mübarizə Azərbaycanı da müxtəlif müstəvilərdə iş görməyə, müxtəlif istiqamətlərdə mübarizə aparmağa sövq edirdi.**

*Lakin münaqişə başlayan ilk dövrlərdən Azərbaycana başçılıq edənlərin heç də hamısı bu riyakarlıqlardan və çirkin niyyətlərdən kifayət qədər baş çıxarmırdı.*

A.Mütəllibov SSRİ-nin yenə də yaşayacağına, "xalqlar dostluğu və proletar beynəlmiləlçiliyi" prinsipi əsasında münaqişənin mərkəz tərəfindən ədalətli şəkildə həll olunacağına inanaraq ölkədə SSRİ-nin saxlanılması ilə bağlı referendum keçirirdi.

AXC-Müsavat cütlüyünün iqtidarı isə özünü daha avam aparırdı.

"Bəylər" ölkəyə "demokratik qüvvələr"in rəhbərlik etdiyini görən dünya birliyinin onlara dayaq duraraq işğalın qarşısını alacaqlarına, münaqişəyə ərazi bütövlüyü əsasında son qoyulacağına uşaq sadəlövhlüyü ilə inanırdılar.

*Bu avamlıq və sadəlövhlük onları xəyanət yoluna, Laçın və Şuşanı düşmənə təslim etmələrinə qətirib çıxardı.*

**Yalnız Ulu Öndər Heydər Əliyev dünyada gedən mürəkkəb prosesləri incəliklərinə qədər təhlil edir, tezliklə qırmızı imperiyanın dağılacağını və belə halda yalnız özümüzə arxalanmağın zəruriliyini bilirdi!**

*Odur ki, xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdarkən özünəgüvənlə uzaqgörən addımlarını atdı:*

* *Əvvəlcə,* Azərbaycanı bir dövlət kimi məhvolmadan, əvvəllərdə olduğu kimi, kiçik xanlıqlara parçalanmadan qorudu.

* İki dəfə dövlət çevrilişi cəhdinin qarşısını aldı, əhalidəki külli miqdarda silah-sursatı yığdırdı, ölkədə möhkəm və dönməz sabitlik yaratdı.

* Daha sonra 1994-cü ilin yanvarında uğurlu Horadiz əməliyyatı keçirməklə 22 kəndi düşməndən azad etdi, bundan sonra atəşkəs müqaviləsi imzaladı.

* Beynəlxalq təşkilatlarda işi gücləndirdi, Azərbaycanın gələcək iqtisadi inkişafını təmin edəcək "Əsrin müqaviləsi"nin imzalanacağına nail oldu, eyni zamanda yeni ordu quruculuğuna başladı.

* Ən nəhayət, layiqli siyasi varisini yetişdirərək Azərbaycan xalqına məşhur müraciətini edib əbədiyyətə qovuşdu.

❖ ❖ ❖

**İlham Əliyev ölkənin çox ağır və çətin dövründə ölkəyə rəhbərliyə başlasa da, ilk vaxtlardan doğru və uzaqgörən addımlar atdı, nəyi necə edəcəyini dəqiq müəyyənləşdirdi, üç mühüm istiqamətdə mübarizəsini davam etdirdi!**

Birinci mərhələdə əsas diqqət yetirilən məqamlardan biri Azərbaycanın sürətli və davamlı iqtisadi inkişafını təmin etmək, ölkə daxilindəki iqtisadi problemlərin həllinə nail olmaq idi.

Belə problemlər isə istənilən qədər idi:

* İşsizlik və yoxsulluq 49-50 faizə çatırdı.

5-6 faizədək endirildi.

* Elektrik enerjisi çatışmazlığı vardı, regionların enerji təchizatında daimi fasilələr təkcə məişətdə çətinliklər yaratmır, həm də aqrar sahənin və sahibkarlığın inkişafına əngəl törədirdi.

Regionların inkişafına dair bir-birinin ardınca dörd dövlət proqramı qəbul olundu, sistemli enerji təchizatı qaydaya salındı, sahibkarlar üçün münbit şərait yaradıldı, üstəlik, ölkəmizdə yeni yol infrastrukturunun yaradılması başa çatdırıldı.

* Rusiya Azərbaycana təbii qaz ixracını dayandırdığından əhali böyük çətinliklərlə üzləşirdi.

Tezliklə bu problem də aradan qaldırılmaqla ölkə üzrə qazlaşdırma 95 faizi keçdi, hazırda Azərbaycan 14 dövlətə təbii qaz ixrac edir.

* Məcburi köçkünlərin bir qismi ağır şəraitdə, sosial qayğılar məngənəsində yaşayırdı.

Prezident İlham Əliyev "Bir nəfər də olsun çadır şəhərciyində yaşamayacaqdır" vədini qısa müddətdə icra etdi, 116 yeni yaşayış kompleksi və qəsəbə salınaraq 300 mindən artıq məcburi köçkünün həyat şəraiti yaxşılaşdırıldı, dövlətin onlara sistemli qayğı və dəstəyi təmin olundu.

* Enerji resurslarından əldə olunan gəlirlər iqtisadiyyatın digər sahələrinin inkişaf lokomotivinə çevrildi.

*Məqsədyönlü və uzaqgörən tədbir, bazar iqtisadiyyatına keçidin doğurduğu nəticələr qısa zaman kəsiyində tarixinin ən qüdrətli Azərbaycanının yaradılması ilə nəticələndi.*

❖ ❖ ❖

**Azərbaycan siyasi-diplomatiya sahəsində də böyük uğurlara imza atdı.**

Yaxın-uzaq dövlətlərlə bir-birinin suverenliyinə hörmət, daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqları təmin etmək prinsiplərinə əməl etməklə qurulan əməkdaşlıq tezliklə öz bəhrəsini verdi, Azərbaycanla dostluq əlaqəsi quranların və mövqeyini müdafiə edənlərin sayı xeyli artdı.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə hücum diplomatiyasına keçid, beynəlxalq təşkilatlarda fəallığımızın artırılması həm tərəfdarlarımızın sayını çoxaltdı, həm də düşmənin əvvəlkitək sərbəst fəaliyyətinə ciddi maneə törətdi.

*Xüsusən də Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurasının iclaslarına, habelə İslam Əməkdaşlıq Təşkilatına, Qoşulmama Hərəkatına rəhbərliyi dövründə çoxluğun maraqlarına xidmət edən təşəbbüslər irəli sürməsi, inkişaf etməkdə olan ölkələrin mənafelərini qoruyan qətiyyətli addımlar atması Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə, çəkisinin artmasına səbəb oldu.*

❖ ❖ ❖

**Çoxcəhətli istiqamətlərdə fəaliyyət göstərən cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpasının özü üçün birnömrəli vəzifə olduğunu kimsədən gizlətmirdi.**

*Bütün görüş və tədbirlərdə, danışıqlarda torpaqların sülh yolu ilə qaytarılmasının baş tutmayacağı təqdirdə digər vasitələrə əl atacağını açıq şəkildə bəyan edirdi.*

Yeni ordu quruculuğu, Azərbaycanın hərbi gücünün artırılması da əsas hədəflərdən biri sayılırdı.

**Yaranan iqtisadi imkanlardan səmərəli istifadə edən dövlət başçısı daim müasir ordu yaradılması məsələləri ilə ciddi məşğul olurdu.**

* Bu münvalla yeni gənclər nəsli tərbiyə olundu, onların da yaxından iştirak etdiyi müasir ordu quruldu.

* Ordu ən yeni texnologiyalara əsaslanan silah və sursatlarla təmin edildi.

* Yeni və çoxsaylı xüsusi təyinatlılar dəstəsi, Komando hissələri təşkil olundu.

* Ordu yeni taktika və strategiya ilə təmin olunaraq müntəzəm hərbi təlimlər keçirməklə hər an torpaqların işğaldan azad edilməsində hazır vəziyyətə gətirildi.

*2016-cı ilin aprelində dördgünlük müharibədə düşmənə sarsıdıcı zərbələr endirilərək bir sıra strateji əhəmiyyətli mövqelərin ələ keçirilməsi artıq ən müasir ordu quruculuğunun başa çatdırılmasından xəbər verirdi.*

Doğrudur, düşmən baş verənlərdən lazımi nəticələr çıxara bilmədi, sülhə gəlmədi.

Amma tezliklə öz ağılsız əməllərinin bədəlini döyüş meydanında ödəməli oldu!

❖ ❖ ❖

**Cəmi 44 gün davam edərək Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan Vətən müharibəsində də əsas mübarizə üç istiqamətdə aparıldı.**

*Ermənistan müdafiəçilərinə və dəstəkçilərinə güvəndiyindən torpaqları sülh yolu ilə qaytarmağa razılaşmır, Qarabağa daxil olmayan iki rayon da daxil "Artsax" adlandırdıqları qondarma quruma müstəqillik verilməsini tələb edirdi.*

Lovğalanaraq özlərini "məğlubedilməz xalq", "məğlubedilməz ordu" adlandırırdılar.

Hətta o qədər qudurmuşdular ki, bizi "yeni müharibə, yeni ərazilər olacaq" deyə növbəti işğalla hədələyirdilər.

Növbəti təhdidləri strateji ixrac boru kəmərlərimizlə bağlı oldu.

Ən nəhayət, baş nazir Paşinyan içib sərxoş olaraq "Qarabağ Ermənistandır və nöqtə" söylədi.

*Azərbaycan 44 gün ərzində hansı ordunun güclü və məğlubedilməz olduğunu, Qarabağın, əslində, kimə məxsusluğunu sübuta yetirdi!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə "məğlubedilməz" ordunu darmadağın edərək diz çökdürdü, düşmənin qarşısına öz şərtlərini qoyaraq ona kapitulyasiya aktını imzalatdırdı!**

*Azərbaycan XXI əsrin ən yeni müharibəsini apardı, nümunəvi, başqalarına örnək olan müharibə apardı, müharibələr tarixinə qızıl hərflərlə yazılan, yeni strategiya və taktikanın tətbiq edildiyi müharibə apardı.*

**Bu müharibənin fərqləndirici cəhətlərindən biri də o idi ki, təkcə hərb meydanında getmirdi.**

*Diplomatiya sahəsində də müharibə aparılırdı.*

Ermənistanın dostu sayılan dövlət başçıları dayanmadan Azərbaycan Prezidentinə zənglər edir, hərbi əməliyyatların dərhal dayandırılmasını xahiş edir, bu baş verməyəndə təzyiqə can atır, hətta təhdid belə edirdilər.

**Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin polad iradəsini heç nə sarsıda bilməzdi.**

Şuşa işğaldan azad ediləndən və düşmənin iyirmi minlik ordusu real məhvedilmə təhlükəsi ilə üzləşəndə Müzəffər Ali Baş Komandanımızın bütün şərtləri, ilk növbədə düşmən qoşunlarının ərazilərimizdən çıxarılma qrafiki təqdim olunandan, Ağdam, Laçın və Kəlbəcər rayonları bir güllə atılmadan geri qaytarılandan sonra hərbi əməliyyatlar dayandırıldı.

*44 günlük Zəfər müharibəsi dövründə informasiya müharibəsində də amansız çarpışmalar getdi.*

**İlham Əliyev bu cəbhənin də yeganə baş qəhrəmanı oldu!**

Otuzdan çox dünya KİV-inə, o cümlədən telekanallara və informasiya agentliklərinə müsahibələr verdi.

Ondan müsahibə alan müxbirlərin böyük əksəriyyəti ermənipərəst mövqedə duraraq qərəzli yanaşmalar sərgiləyirdilər!

*Lakin cənab İlham Əliyev bütün sualları konkret faktlar əsasında cavablandıraraq yalanları ifşa etdi, əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün ermənipərəst KİV-in öz tribunalarını özlərinə qarşı çevirdi!*

Beləliklə, Azərbaycana hər üç müstəvidə qələbə sevinci yaşatdı!

❖ ❖ ❖

**Zəfər müharibəsindən sonrakı mərhələdə də mübarizə üç istiqamətdə davam edir.**

Biz sülh istəyirik!

Biz istəmirik ki, müharibə olsun!

*Amma əgər sülh istəyirsənsə, müharibəyə hazır olmalısan!*

Üstəlik, potensial düşmənindən daha güclü, daha yaxşı silahlanmalısan!

**Müharibə qələbə ilə başa çatandan sonra Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u bütün parametrlər üzrə yenidən hazır vəziyyətə gətirdi!**

Ötən ay Kəlbəcər şəhərinin sakinləri ilə görüşündə bu məsələyə toxunaraq açıq şəkildə bildirdi:

*"Biz hər an müharibəyə hazır olmalıyıq. Çünki dünyada proseslər elə istiqamətdə gedir ki, bilmək olmaz sabah nə olacaq. Bizim təhlükəsizliyimizin qarantı biz özümüzük - dövlət, xalq və Silahlı Qüvvələrimiz. Ona görə əgər kiminsə xəstə ağlına Azərbaycana qarşı hər hansı bir təxribat törətmək gələrsə, məncə, yenə də peşman olacaq. Biz isə bundan sonra müzəffər xalq və müzəffər, qalib dövlət kimi yaşayacağıq".*

❖ ❖ ❖

**Siyasi-diplomatik sahədə də uğurlu işlər gedir!**

*Ermənistan uzun müddət üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirmədi, heç həmin bəyanata vasitəçi qismində imza atan Rusiya da bunu ondan tələb etmədi...*

Azərbaycan ermənipərəst vasitəçilərdən birdəfəlik imtina edərək ikitərəfli görüşlərə üstünlük verdi.

ABŞ Prezidenti Donald Trampın iştirakı ilə avqustun 8-də Vaşinqtonda imzalanan sənədlər isə sülhün az vaxtda reallaşacağına inam yaradır.

Əngəl yaratmaq niyyətində olan dövlətlərin isə heç biri açıq şəkildə ABŞ-yə qarşı çıxmaq, Zəngəzur dəhlizinə (TRIPP) mane yaratmaq cəsarətində deyil.

Proses davam edir.

❖ ❖ ❖

**Azərbaycanın iqtisadi sahədə gördüyü işlər, xüsusən Orta dəhlizin işə salınması ilə bağlı atdığı uğurlu addımlar sülh prosesinə güclü təkandır!**

İlham Əliyevdən daha bir sitat:

*"İndi Azərbaycan ərazisindən bir neçə nəqliyyat dəhlizi keçir və bu, əlbəttə ki, ölkəmizin önəmini artırır. Bir dəhliz də məhz bu istiqamət üzrə gedəcək. Artıq Zəngilana qədər dəmir yolunun inşası uğurla davam edir, yəqin ki, gələn il başa çatacaq. Biz indi Naxçıvan Muxtar Respublikasında dəmir yolunu tam müasirləşdirəcəyik. Ermənistan ərazisində də dəmir yolunun tikintisi nəzərdə tutulur. Yəni Ermənistan bu öhdəliyi də üzərinə götürüb və bu, bizim növbəti tarixi uğurumuzdur".*

Azərbaycan yeni əməkdaşlıq formatlarında uğurla iştirak edir.

Azərbaycan balanslaşdırılmış siyasət yürüdür.

Azərbaycan hamı ilə hamının maraqlarını təmin edən əlaqələr qurur.

Odur ki, iqtisadi sahədə nailiyyətləri sürətlə artır, tərəfdaşları çoxalır, siyasi nüfuzu isə daim yüksəlir.

❖ ❖ ❖

44 gündə Azərbaycanın Ermənistan üzərindəki qələbəsi həqiqətən möhtəşəmdir!

Sonrakı addımlarının - ərazi bütövlüyünün təmini və dövlət suverenliyinin bərpası əməliyyatlarının da analoqu yoxdur!

Həm də Azərbaycan təkcə otuz il torpaqlarımızı işğalda saxlayan düşmən üzərində qələbəyə nail olmayıb.

* Dünya erməniliyi üzərində zəfər çalıb!

* Ermənistanın müdafiəçiləri, dəstəkçiləri üzərində zəfər çalıb!

* Artıq ləğv edilmiş ATƏT-in Minsk qrupunun simasında münaqişəni qərəzli və məqsədli şəkildə uzadan beynəlxalq təşkilatlar üzərində zəfər çalıb!

* İkili standartlar üzərində zəfər çalıb!

Separatizmin üzərində qələbə nümunəsini ortaya qoyub!

**Bu gün isə öz qələbələrini iqtisadi sahədə davam etdirmək, dünyaya əməkdaşlıq nümunəsi, faydalı layihələr gerçəkləşdirmək nümunəsi də göstərir!**

Çalışdığı bütün sahələrdə, mübarizə apardığı bütün müstəvilərdə sülhə, insanlığa, xalqların rahat və firavan sabahına töhfələr verən addımlar atır.

Onun uğur və nailiyyətlərinin əsas səbəblərindən biri də məhz bunlardır.

**Bəxtiyar SADIQOV**

# Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisinin açılışı olub

**Oktyabrın 14-də Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi açılıb.**



AZƏRTAC xəbər verir ki, sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Heydər Əliyev Fondunun, IDEA İctimai Birliyinin və Azərbaycanın Almaniyadakı səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən sərginin açılış mərasimində çıxış edən səfir Nəsimi Ağayev daha əvvəl bir sıra ölkələrdə uğurla həyata keçirilən bu mədəniyyət layihəsinin Berlində təqdimatının əhəmiyyətini qeyd edib. Səfir bildirib ki, mühüm problemlərin yaşandığı hazırkı çətin dövrdə təbiət və insanlıq arasında bənzərsiz əlaqənin və vəhdətin təbliğinə xidmət edən belə sərgilərin təşkili böyük önəm daşıyır. Azərbaycanın nümunəsi göstərir ki, biz qüvvələrimizi birləşdirsək iqlim dəyişikliyi probleminin qarşısını ala bilərik.





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva çıxışında MAMA "Ana təbiət" sərgisində 31 ölkədən 54 rəssamın əsərlərinin təqdim olunduğunu vurğulayaraq, bu əsərlərin incəsənətin sərhədləri aşaraq təbiəti qorumaq istəyinin ifadəçisi olduğunu bildirib.

Sərginin təşkilatçılarına, layihəyə qoşulan rəssamlara təşəkkürünü ifadə edən Leyla Əliyeva layihənin Bakıda başlandığını, daha sonra Bəhreyn, London, Roma və Tbilisidə təqdim olunduğunu diqqətə çatdırıb. Sərginin dünyanın ən "yaşıl" şəhərlərinin birində - Berlində təşkilindən məmnunluğunu ifadə edən Leyla Əliyeva əsas diqqəti iqlim problemlərinin yaratdığı fəsadlara cəlb edərək Azərbaycanın müxtəlif ekosisteminin də bu təsirlərdən yan keçmədiyini vurğulayıb, Xəzər dənizinin səthinin kiçildiyini, Xəzər suitisi və Xəzər nərəkimiləri kimi nadir canlı növlərinin tədricən yox olduğunu qeyd edib.





Rəhbəri olduğu IDEA İctimai Birliyinin bütün layihələrinə yaradıcılıq və pozitiv ruhla yanaşdığını deyən Leyla Əliyeva təbiətin mühafizəsi məqsədilə həm Azərbaycanda, həm də dünyanın müxtəlif yerlərində bir milyondan çox ağac əkildiyini qeyd edib, nadir heyvan növlərinin qorunması, məktəb və universitetlərdə tələbələrə təbiətin mühafizəsinin vacibliyinin təbliği istiqamətində, eləcə də suya qənaətlə bağlı "Bir damcı" layihəsi çərçivəsində görülən işləri diqqətə çatdırıb.





IDEA İctimai Birliyinin rəhbəri istedadlı azərbaycanlı heykəltaraş, Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalmış Samir Kaçayevin (1994-2016) də Berlində sərgisinin açıldığını qeyd edərək bildirib ki, onun həyatı faciəvi şəkildə yarımçıq qalsa da, ruhu, yaradıcılığı və Vətən sevgisi əsərlərində yaşamaqdadır.

Çıxışlardan sonra Leyla Əliyeva, Arzu Əliyeva və iştirakçılar sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar.



Qeyd edək ki, müasir rəssamlar qrupunun heyrətamiz yaradıcılığının bəhrəsi olan MAMA "Ana təbiət" incəsənət layihəsinə 2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 çərçivəsində Heydər Əliyev Mərkəzində start verilib. Heydər Əliyev Fondunun vitse-prezidenti və IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın ideya müəllifliyi ilə konseptual şəkildə hazırlanmış sərgi təbiəti passiv bir fon kimi deyil, əksinə, canlı, qidalandırıcı, davamlı və bərpaedici əsas qəhrəman kimi təqdim edir.

Sərgi iqlim dəyişiklikləri üzrə mesajı dünyaya yaymaq məqsədilə Bakı, Manama, Roma, London və Tbilisidə uğurla təqdim olunub. Layihənin Berlin mərhələsi də öz missiyasını davam etdirərək ekologiya, dayanıqlılıq və mədəni müdriklik mövzularında qlobal dialoqu təbliğ edir.

MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsi Azərbaycan da daxil olmaqla, 31 ölkədən - ABŞ, Almaniya, Böyük Britaniya, Braziliya, Cənubi Koreya, Gürcüstan, Hindistan, İspaniya, İsrail, Latviya, Pakistan, Rusiya, Türkiyə, Ukrayna və digərlərindən fərqli sənətkarları bir araya gətirərək incəsənət vasitəsilə planetimizi gələcək nəsillər üçün qorumağa çağırır. Burada fərqli instalyasiya, rəsm, toxuculuq və multimedia nümunələri vasitəsilə müasir dövrün ekoloji və sosial problemləri ilə səsləşən hekayələr təqdim edilir. Layihə bəşəriyyət və təbiət arasındakı zəngin və mürəkkəb münasibətləri ön plana çəkir. Ekspozisiyadakı hər bir incəsənət əsəri insanın təbiətlə dərin bağlılığına bir mesajdır. Həmin mesajın məqsədi Yer kürəsini təkcə ilham mənbəyi kimi deyil, həm də həyat üçün zəruri qidalandırıcı qüvvə kimi təqdim etməkdir.



Ekspozisiya dünya səyahəti zamanı insanla təbiət arasındakı ayrılmaz bağlılığı vurğulayır və Ana fiqurunu həm mənəvi, həm də fiziki mənada həyatın əsas mənbəyi kimi ön plana çıxarır. Sərgi izləyiciləri təbiətə qarşı məsuliyyət, qayğı və ekoloji yenilənmənin zəruriliyi barədə düşünməyə dəvət edir.

❖ ❖ ❖

Qeyd edək ki, Leyla Əliyeva və Arzu Əliyeva həmin gün "Q" Berlin İncəsənət Qalereyasında istedadlı azərbaycanlı heykəltaraş, Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalmış Samir Kaçayevin "Yarımçıq qalmış, lakin əbədi" adlı sərgisinin də açılışında iştirak ediblər.

Sərginin açılışında şəhid Samir Kaçayevin ailə üzvləri də iştirak ediblər.

Sərgi Berlin tamaşaçılarını Samirin dünyasına - dəqiqliyə, sənətə bağlılığa uzanan zəngin mənəvi dərinliyə malik bir aləmə dəvət edir. Bu sərgi Samir Kaçayevin yarımçıq qalan sənət dünyasının sükutla yazılmış davamıdır. Onun fırçasının toxunuşları yarımçıq qalsa da, hər bir əsərində zamanın sərhədlərini aşan bir nəfəs yaşayır. Sərgi Samirin sönməyən ilhamını, sənətin ölümə meydan oxuyan əbədiliyini və ruhunun rənglərdəki davamını təcəssüm etdirir. Burada hər baxış, hər bir xətt onunla bitməyən, amma sonsuzluğa uzanan bir hekayənin parçasıdır.

---

ZƏFƏR gündəliyi

16 oktyabr 2020-ci il

## İlham ƏLİYEV: "Namərd hücumlar Azərbaycanı yolundan döndərə bilməz"

*Oktyabrın 16-na keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində əməliyyat şəraiti yenə də gərgin olaraq qalıb.*

*İşğaldan azad edilmiş Cəbrayıl və Hadrut istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini, eləcə də cəbhə xəttinə yaxın kəndləri düşmən dünən gün ərzində raket, artilleriya və minaatanlardan atəşə tutub. Gecə ərzində cəbhənin bəzi istiqamətlərində düşmən fəallaşmağa cəhd göstərib. Qoşunlarımız tərəfindən bunun qarşısı alınıb, düşmən ciddi itki verib.*

### Düşmənin 2 tankı, 8 artilleriya qurğusu, 8 avtomobil texnikası məhv edilib

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd BM-21 "Qrad" YARS, 5 ədəd D-30 haubitsa topu, 2 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu və döyüş sursatı ilə yüklənmiş 8 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

### Erməni hərbçiləri döyüşməkdən imtina edərək qaçıblar

Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə zolağında hərbi qulluqçular və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər arasında kütləvi şəkildə fərarilik halı qeydə alınıb. Bunun qarşısını almaq məqsədilə Ermənistan rəhbərliyi Gorus və Turşsu yaşayış məntəqələrinin avtomobil yollarında hərbi polisin komendant postlarını qurub.

5-ci dağatıcı alayın müdafiə zolağında mövqe tutan şəxsi heyət arasında xeyli sayda ölən və yaralanan olub. Alayın bölmələrində ərzaq və döyüş sursatı çatışmazlığı açıqlanıb.

10-cu alayın müdafiə zolağına könüllüləri daşıyan avtomobil texnikasının vurulması nəticəsində ölən və yaralanan olub. Geri çəkilən düşmən xeyli sayda avtomobil və zirehli texnikanı mövqedə buraxaraq qaçıb.

9-cu motoatıcı alayın müdafiə zolağında artilleriya batareyası məhv edilib, alay komandirinin müavini isə yaralanıb. Dağlıq Qarabağ ərazisinə gələn muzdluların bir qisminin döyüşə girməkdən imtina etməsi məlum olub.

### İlham ƏLİYEV: "Artıq Füzuli bizim gözümüzün qabağındadır"

Prezident İlham Əliyev Türkiyənin "A Haber" televiziya kanalına müsahibə verib. Ermənistanın humanitar atəşkəs elan olunan zaman Gəncə və Tərtərə artilleriya zərbəsi endirməsinə sərt reaksiya verən Ali Baş Komandan deyib ki, bu namərd hücumlar Azərbaycanı yolundan döndərə bilməz, xalqın iradəsini qıra bilməz: "Biz öz ərazi bütövlüyümüzü bundan sonra da bərpa etməyə davam edəcəyik".

Prezident həmçinin ordumuzun uğurlu hərbi əməliyyatlarından söz açaraq bildirib ki, artıq Hadrut qəsəbəsi Azərbaycanın nəzarətindədir, Füzulinin ətrafında kəndlərin mütləq əksəriyyəti bizdədir: "Artıq Füzuli bizim gözümüzün qabağındadır. Ondan sonra cənub istiqamətində də irəliləmişik. Şimalda Murovdağ mövqeləri bizdədir, Suqovuşan bizdədir. Yəni bütün istiqamətlər üzrə böyük uğurlar əldə etdik və bu proses davam edir. Hesab edirəm və əminəm ki, Azərbaycan xalqı bunu diqqətlə izləyir. Xüsusilə o kəndlərin sakinləri ki, o kəndlər işğaldan azad edilir, onlar üçün, əlbəttə, bu, tarixi günlərdir".

### Tərtər, Ağdam, Goranboy və digər rayonlara 220-dən çox mərmi düşüb

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri səhər saatlarından başlayaraq, Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutublar. Səhər saat 06 radələrindən 08-ə qədər Tərtər, Ağdam, Goranboy və digər rayonlara 220-dən çox mərmi düşüb.

### Prezidentdən növbəti müjdəli xəbər

Prezident İlham Əliyev özünün rəsmi "X" səhifəsində daha bir xoş xəbəri paylaşıb:

"Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### Müdafiə Nazirliyi növbəti erməni yalanını ifşa edib

Ermənistan uydurma məlumatlar yayaraq Hadrut qəsəbəsinin hələ də onların nəzarətində olduğunu bildirib. Azərbaycan Müdafiə Nazirliyi isə işğaldan azad olunan Hadrut qəsəbəsindən yeni videogörüntülər yaymaqla növbəti erməni yalanını ifşa edib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları

## Azərbaycanın mövqeyini gücləndirən xarici siyasət

### Yaxın Şərq Sülh Sammitində iştirak ölkəmizin diplomatiyasının növbəti qələbəsidir

**Nə qədər ki, qlobal geosiyasət var, bir o qədər də şəxsiyyətlərin tarixdəki rolu müzakirə olunacaq. Bu fenomenə baxışlar, əlbəttə ki, müxtəlifdir, amma bir fakt danılmazdır: istənilən dövləti irəliyə cəmiyyətdaxili birliyin möhkəmləndirilməsinə əsaslanan siyasi liderin müdrikliyi aparır. Biz hamımız bunun təsdiqini günahsız qanların tökülməkdə davam etdiyi, dağıntıların ardınca fəlakətlərin gəldiyi, insanların dəfələrlə evlərini tərk etməyə məcbur olduğu dünyada aydın görürük. Bununla yanaşı, hər zaman özünü ən firavan ölkələr kimi göstərən dövlətlər bu gün qaynayır və sabitsizliklə üzləşirlər. Bu problemlərə daha dərindən baxsaq, belə ölkələrdə müdrik siyasi yanaşmanın olmamasını aydın görə bilərik, çünki həmin dövlətlərin başçıları və ya hakimiyyət komandaları vəziyyətin nəinki yaxın bir neçə il, hətta yaxın gələcək üçün inkişaf perspektivlərini proqnozlaşdıra bilmirlər.**



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, bu baxımdan Azərbaycan son illər ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi və dövlətin milli maraqlarının müdafiəsinə, beynəlxalq hüquq normalarının aliliyinə əsaslanan və üçüncü dövlətlərə xələl gətirmədən formalaşdırılan xarici siyasətə dönməz sadiqliyini inamla nümayiş etdirib: "Bu unikal təməl Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub və Prezident İlham Əliyev bu siyasəti zəmanəmizin sürətlə dəyişən tendensiyalarına uyğun inkişaf etdirir. Bu siyasətin kökündə isə Azərbaycanın milli maraqlarının qorunmasının sarsılmaz prinsipi dayanır. Azərbaycanın xarici siyasətinin və beynəlxalq fəaliyyətinin çoxtərəfliliyinin uğuru və müsbət təsirləri təkcə ölkə rəhbərinin mühüm beynəlxalq sammitlərdə iştirakı ilə deyil, həm də onun irəli sürdüyü ideyalar, o cümlədən Bakının sülh quruculuğu sahəsində öz təcrübəsini bölüşmək niyyəti ilə bir daha nümayiş etdirildi. Buna görə də ABŞ və Misir liderlərinin Prezident İlham Əliyevi bütün planetin izlədiyi Yaxın Şərq Sülh Sammitinə dəvət etmələri təəccüb doğurmamalıdır, Azərbaycanın uğurlu diplomatiyasının növbəti qələbəsi kimi qəbul edilməlidir".

Deputat qeyd edib ki, bu kontekstdə ölkə rəhbərinin cəmi 20 ölkənin iştirakı ilə keçirilən ən mühüm qlobal zirvə toplantısına iki prezidentdən dəvət alması, əlbəttə ki, əlamətdardır. Bu ilin avqustunda Donald Tramp İlham Əliyevi böyük lider kimi xarakterizə etdiyini və BMT Baş Assambleyasının 80-ci sessiyası ilə bağlı rəsmi qəbulda iki prezident arasında baş tutmuş dialoq zamanı Azərbaycan rəhbərini özünün dostu adlandırdığını və ictimaiyyət qarşısında "Sizinlə fəxr edirəm, siz çox gözəl insansınız" dediyini xatırlamaya bilmərik. Öz növbəsində 2024-cü ildə Azərbaycan-Misir danışıqlarından sonra Əbdülfəttah əs-Sisi heyrətamiz Şərq üslubunda müxtəlif sahələrdə ikitərəfli münasibətlərin möhkəmləndiyini və bu məqsədə doğru yeni yolun açıldığını qeyd etdi. O həmçinin vurğuladı ki, Bakı və Qahirə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə diqqət yetirir. İlham Əliyev isə bu mövzunu genişləndirərək beynəlxalq məsələlərdə fikir ayrılığının olmadığını bildirdi. Qəzzadakı faciəyə tezliklə son qoyulmasının vacibliyini vurğulayan və Qahirənin bu səylərə dəstəyini etiraf edən Azərbaycan Prezidenti Misirin təşəbbüslərinin nəzərə alınmasının vacibliyini qeyd etdi.

K.Bayramov xatırladıb ki, bu ilin yanvarında Prezident İlham Əliyev Bakının İsrail-Fələstin məsələsində dəyişməz mövqeyini bir daha bəyan edərək Azərbaycanın "iki dövlət" prinsipini dəstəklədiyini bildirib: "Dövlət başçısı qeyd edib ki, müstəqil Fələstin dövlətinin yaradılması bu münaqişəyə son qoyacaq. İyun ayında Fələstinin yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Əhməd Metaninin etimadnaməsini qəbul edən İlham Əliyev xalqlarımız arasındakı əlaqələri dövlətlərarası münasibətlərdə mühüm amil kimi qeyd edərək, Azərbaycanın Fələstin xalqının haqlı tələbini, İsrail-Fələstin münaqişəsinin "iki dövlət prinsipi" və BMT-nin müvafiq qərarları əsasında həllini dəstəklədiyini bildirib".

Azərbaycanın qlobal islam birliyi ilə əlaqələrin inkişafına həmişə xüsusi önəm verdiyini vurğulayan K.Bayramov deyib ki, hələ 2023-cü ildə "Euronews" telekanalına müsahibəsində Prezident İlham Əliyev Bakının müsəlman ölkələri ilə münasibətlərini həmrəylik və tərəfdaşlıq nümunəsi adlandıraraq ölkəmizin İslam Əməkdaşlıq Təşkilatının (İƏT) ən fəal üzvlərindən biri hesab edildiyini vurğulamışdı. Elə həmin il o, ölkəmizin İƏT çərçivəsində bütün sahələrdə əməkdaşlığın inkişafına dəstək verdiyini açıqladı. Bu xüsusda vurğulanmalıdır ki, Azərbaycan-Misir danışıqlarından sonra Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının genişləndirilməsi məsələsini gündəmə gətirərək İƏT üzvü də daxil olmaqla, bir daimi yerin ayrılmasının zəruri olduğunu qeyd edib. Bundan başqa, dövlət başçısı bildirib ki, namizədin irəli sürülməsi məsləhətləşmələr əsasında birbaşa İƏT tərəfindən həyata keçirilməlidir. Onun sözlərinə görə, bu cür islahatlar daha ədalətli və təhlükəsiz dünyanın yaradılmasına töhfə verəcək. Azərbaycan Prezidenti bu fikri dəfələrlə dilə gətirib.

Deputat qeyd edib ki, bu kontekstdə Bakının vasitəçilik səyləri üçün platforma kimi tez-tez istifadə edilməsini qeyd etmək vacibdir: "Konkret olaraq, Azərbaycan Suriya və İsrail rəsmiləri arasında danışıqlara vasitəçilik edib, məqsəd iki ölkə arasında münasibətlərin normallaşmasına kömək etmək və proqnozlaşdırıla bilən şərait yaratmaq olub. Türkiyə ilə İsrail arasındakı gərginlik kontekstində Prezident İlham Əliyev vurğulayıb ki, əgər Bakıdan vəziyyətin sabitləşməsinə müdaxilə etmək istənilirsə, biz bunu edəcəyik. Əks halda biz ümumi dil tapmağa kömək etmək üçün bir sıra diplomatik səylər göstərməyə çalışacağıq. Bu məqamda xüsusi qeyd edilməlidir ki, islam dünyası ilə qarşılıqlı anlaşmanın xüsusi formatı Azərbaycan və İsrail arasında münasibətlərə əngəl törətmir ki, bu da ölkəmizin çoxşaxəli xarici siyasətinin unikal cəhətlərindən biridir. İsrail Prezidenti İsxak Hersoq ölkəsinin Azərbaycanla strateji tərəfdaşlığa verdiyi yüksək qiyməti, "həm İsrail, həm də regionumuz üçün sabitlik çırağı" olduğunu vurğuladı. Hersoqun sözlərinə görə, İlham Əliyev regionda sülhə nail olmaq üçün səyləri prioritetləşdirdi və bu, Azərbaycanı dialoq və diplomatiya üçün mühüm platformaya çevirdi. Prezident İlham Əliyev öz növbəsində Azərbaycan ilə İsrail arasında dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyəsini xalqlarımız arasında möhkəm qarşılıqlı etimad və dəstəyə əsaslanan tarixi əlaqələrin və qarşılıqlı hörmətin parlaq ifadəsi kimi dəyərləndirdi".

K.Bayramov bildirib ki, göstərilən məqamlar Azərbaycanın xarici siyasətinin çoxşaxəliliyini əyani şəkildə nümayiş etdirir ki, bu da Prezident İlham Əliyevin fikrincə, ölkəmizə hadisələrin mərkəzində olmağa imkan verir. Ona görə də ABŞ və Misir prezidentlərinin Sülh Sammitində iştirak etmək üçün Azərbaycan rəhbərini dəvətləri tamamilə təbiidir. Bu, Prezidentin diqqətlə düşünülmüş addımlarının Azərbaycanın imicini qlobal miqyasda necə gücləndirdiyini, ölkəmizin yeni geosiyasi səviyyəyə yüksəlməsinə kömək etdiyini təsdiqləyir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Çoxvektorlu xarici siyasətin uğuru

### Azərbaycan Prezidentinin Yaxın Şərq Sülh Sammitinə dəvəti bəşəri dəyərlər naminə müdrik qərardır

**Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etmək üçün Misirə işgüzar səfəri ölkəmizin qlobal siyasətdə artan nüfuzunun və beynəlxalq proseslərə aktiv təsir imkanına malik və ümumbəşəri problemlərin həllində iştirak edən dövlətə çevrilməsinin göstəricisidir.**



Müasir dövrdə dünyada qütblərarası ziddiyyətlərin və ayırıcı xətlərin dərinləşməsi fonunda baş verən sürətli dəyişikliklərin hər bir dövlətin prioritetlərinin, təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsinin, həmin risklərin qabaqlanması və aradan qaldırılması üzrə adekvat tədbirlərin həyata keçirilməsinin zərurətə çevrilməsi şəraitində Qəzza zolağında daimi atəşkəsin əldə edilməsi, regional sülh və sabitliyin bərqərar edilməsi istiqamətində diplomatik səylərdə mühüm mərhələ olan Yaxın Şərq Sülh Sammiti, heç şübhəsiz ki, son dövrlər qlobal müstəvidə əsas siyasi səhifə sayılır. Bu səhifənin önəmli aktorlarından biri kimi Azərbaycanın çıxış etməsi isə ölkəmizin çoxvektorlu xarici siyasətinin uğuru olmaqla yanaşı, uzun dövr ərzində atılan qətiyyətli addımların və həyata keçirilən düzgün və praqmatik gedişlərin göstəricisidir.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, siyasi və iqtisadi müstəqilliyi, o cümlədən milli iradə tərəfindən idarə olunması Azərbaycan Respublikasına da bu reallıqları sağlam formada dəyərləndirməyə imkan verir və ölkəmiz müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu, xalqın və ölkənin milli maraqlarını, daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd, prinsip və yanaşmalarını bütün rakurslardan müəyyənləşdirə bilib: "Azərbaycan hər zaman bu strateji problemin həllini güclü olmaqda, eyni zamanda əməkdaşlıq və dialoq mühitinə inamında görüb. Təsadüfi deyil ki, dövlətimiz ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi 6 konstitusion niyyətindən biri kimi müəyyən edib. Həmçinin milli maraqların Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olmaqla bərabər, həm də hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsipləri ehtiva etməsi, başqa dövlətlərlə münasibətlərini məhz bu prinsiplər əsasında qurması, ölkəmizin başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd etməsi, beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi kimi hədəflərimizin səmimiliyinə şübhə yaratmır".

Deputat vurğulayıb ki, Yaxın Şərq Sülh Sammitinə məhdud çərçivədə yalnız proseslərə təsir imkanına malik dövlətlər dəvət edilib. Azərbaycan Respublikası beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapmış prinsipləri rəhbər tutaraq, hərbi-siyasi yolla Qarabağ münaqişəsinə son qoyaraq BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməklə özünü qlobal miqyasda təsir imkanına malik orta güc kimi təsdiq edə bilib. Eyni zamanda ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü, habelə Qoşulmama Hərəkatına sədrliyi, eləcə də COP29 kimi nüfuzlu, qlobal miqyaslı tədbirlərə evsahibliyi dövlətimizə münasibətdə etimad mühitinin formalaşdığını göstərməkdədir. Xüsusən Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərində hərbi-siyasi yolla əldə etdiyi böyük zəfərlə Cənubi Qafqazda sülh və təhlükəsizliyə nail olması beynəlxalq ictimaiyyəti ölkəmizə sülhün və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində təcrübəsinə müraciət edilə biləcək subyekt kimi yanaşmağa vadar edir. "Bu mənada Prezident İlham Əliyevin yeni reallıqların yaradıcısı, sülh, sabitlik və əməkdaşlıq mühitində ehtiva olunan konfiqurasiyanın memarı qismində təcrübəsinə müraciət edilməsi üçün Yaxın Şərq Sülh Sammitinə dəvət olunması gözlənilməz hesab edilə bilməz. Azərbaycan BMT çərçivəsində tərəfdaşlığı bütövlükdə Avroatlantik məkanda ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək vasitə kimi görür. Bu çərçivədə ölkəmiz o cümlədən ABŞ ilə tərəfdaşlığa hər zaman böyük perspektivə malik istiqamət kimi baxıb və antiterror koalisiyasında, beynəlxalq terrorizm, separatçılıq, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, korrupsiya, qanunsuz silah və insan alveri kimi qlobal çağırış və təhdidlərə qarşı mübarizə məsələlərində, ikitərəfli münasibətlər səviyyəsində isə siyasi, hərbi, iqtisadi, enerji təhlükəsizliyi sahələrində uğurla əməkdaşlıq edib. Ötən dövr kifayət qədər mürəkkəb tarixi inkişaf yolu keçmiş ABŞ-Azərbaycan münasibətlərini təhlil etsək, əminliklə deyə bilərik ki, cənab İlham Əliyevin 20 gün öncə ABŞ Prezidenti Donald Trampın dəvəti ilə ABŞ-yə işgüzar səfəri və bu səfərin özlüyündə məhz xüsusi dəvətlə reallaşması münasibətlərimizdə tam yeni bir səhifədir", - deyə deputat əlavə edib.

B.Məhərrəmov bildirib ki, proseslərin gedişindən də göründüyü kimi, Prezident İlham Əliyevin yaratdığı yeni geosiyasi reallıq şəraitində ABŞ-Azərbaycan münasibətləri özünün ən effektiv inkişaf dövrünə qədəm qoyub. Xüsusən liderlər səviyyəsində əlaqələrin intensiv xarakter daşıması və qarşılıqlı hörmət, habelə strateji səviyyəyə yüksələn münasibətlər ciddi perspektiv vəd etməkdədir. İkinci dəfə hakimiyyətə gəldikdən sonra əsas diqqəti dünyada sülhün və təhlükəsizliyin bərqərar edilməsinə yönəltmiş Prezident Donald Tramp bu prosesin nə qədər ağır və diplomatik məharət tələb edən səylər məcmusu olduğunu yaxşı başa düşür. Bu mənada Tramp anlayır ki, Cənubi Qafqaz kimi mürəkkəb coğrafiyada mütləq qələbəyə əsaslanan hərbi-siyasi yolla de-fakto sülhə və dayanıqlı təhlükəsiz mühitə nail olmaq sadə məsələ deyil. Prezident İlham Əliyevin qlobal miqyasda Azərbaycanın ikili standartlara məruz qalmasına, beynəlxalq ictimaiyyətin faktiki olaraq işğala, təcavüzə və separatizmə, o cümlədən beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin köklü pozuntusuna göz yumması şəraitində arzuolunan nəticələrə nail olması eyni məqsədi özünə hədəf seçmiş ABŞ Prezidentinin diqqətindən kənarda qala bilməzdi. Bu mənada istər özünün sosial media səhifələrində, istər beynəlxalq tədbirlərdə, o cümlədən Yaxın Şərq Sülh Sammitindəki çıxışında Trampın Prezident İlham Əliyevin ünvanına xoş sözlər söyləyərək onu böyük lider adlandırması təsadüf hesab edilə bilməz.

Deputat qeyd edib ki, Cənubi Qafqazda yaranan yeni geosiyasi reallıq, Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinə və sərhədlərin delimitasiya və demarkasiyasına yönəlik qəti addımların realizəsi şəraitində Prezident İlham Əliyevin qlobal miqyaslı liderlik qabiliyyəti şübhə doğurmur: "Lakin ABŞ Prezidenti tərəfindən bunun bir daha dilə gətirilməsi Soros-Demokratlar iqtidarının, o cümlədən digər çoxsaylı qərəzli subyektlərin fiaskosu deməkdir. Sirr deyil ki, Azərbaycan ABŞ-nin ötən dövrkü administrasiyası tərəfindən ədalətsiz yanaşmalarla üzləşib, beynəlxalq arenada məqsədli formada haqsız vəziyyətlərə düşürülməyə çalışılıb. Amma Donald Tramp indiki məqamda Azərbaycanın əhəmiyyətini, xüsusən proaktiv, balanslaşdırılmış xarici siyasət kursunun uğurlu istiqamətlərini aydın şəkildə görən kifayət qədər praqmatik siyasətçidir və qarşılıqlı bərabərhüquqlu əməkdaşlıq çərçivəsində hansı nailiyyətlər, hansı uğurların bizi gözlədiyini aydın qiymətləndirə bilir və Amerikanın maraqlarının yalnız bu şəkildə təmin ediləcəyini haqlı olaraq başa düşür. Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində də ifadə etdiyi kimi, bu ilk növbədə ona görədir ki, cənab Tramp Qərb liderlərinin ənənəvi imicindən tamamilə fərqli bir şəxsiyyətdir. Yəni əgər əvvəlki dövrdə Amerika-Azərbaycan münasibətləri Azərbaycan-Ermənistan və yaxud Amerika-Ermənistan prizmasından qiymətləndirilirdisə, Donald Tramp praqmatik siyasətçi kimi bu prosesləri birbaşa, yəni real vəziyyəti qiymətləndirərək dəyərləndirə bilir".

B.Məhərrəmov deyib ki, Prezident Donald Tramp eyni məntiqdən çıxış edərək hazırkı geosiyasi gedişatda Azərbaycanın qlobal siyasətdə güclənən mövqeyi və artan təsir imkanları fonunda ölkəmizin bəşəri miqyasda sülh və təhlükəsizliyə mümkün töhfələr perspektivlərini doğru proqnozlaşdıra bilir. Bu mənada Azərbaycanın artıq yeni reallıqlar yaratdığı bir şəraitdə Donald Trampın məsələyə daha praqmatik yanaşması, bu bölgədə bərabərhüquqlu tərəfdaşlıqda maraqlı olduğunu göstərməsi, o cümlədən Yaxın Şərqdə sülhün bərqərar olunmasında Azərbaycanın potensialına istinad edilməsi, yeni reallıq yaratmış çox azsaylı liderlərdən biri kimi Prezident İlham Əliyevin Yaxın Şərq Sülh Sammitinə dəvət edilməsi yalnız Azərbaycan adına yox, qlobal sülh və sabitlik, o cümlədən bəşəri dəyərlər naminə müdrik qərardır və həllyönümlü, effektiv nəticəyə aparan səmimi məqsədin nümayişidir.

*Ə.QARDASXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycan, Rusiya və İran "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizini necə inkişaf etdirir?

**"Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putinin Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində görüşü "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin (ŞCBND) formalaşması istiqamətində atılan addımlara yeni təkan verdi".**

AZƏRTAC xəbər verir ki, bu fikir Rusiyanın "News.ru" saytında dərc olunan analitik materialda əks olunub.

Qeyd olunub ki, oktyabrın 13-də Bakıda Rusiya, Azərbaycan və İran nümayəndələri görüşərək dəhlizin fəaliyyətinin artırılması və digər texniki məsələləri müzakirə ediblər. Müzakirələrin nəticəsində hər 3 ölkənin gömrük, sərhəd və nəqliyyat orqanlarının təmsilçilərindən ibarət işçi qruplarının yaradılması qərara alınıb ki, bu da dəhlizin inkişafında müsbət rol oynayacaq.

Müəllif "ŞCBND iştirakçı dövlətlər üçün niyə bu qədər əhəmiyyətlidir" sualına cavab verərək bildirir ki, hər 3 ölkədə uyğun nəqliyyat infrastrukturu qurmalı və tərəflər üçün eyni imkanlar yaradılmalıdır. Dəhliz hər 3 ölkənin ixracatçısı, idxalçısı, istehsalçısı, istehlakçısı üçün geniş inkişaf imkanları yaradır.

Materialda nəzərə çatdırılıb ki, ŞCBND-nin inkişafı istiqamətində Azərbaycan digər dövlətlərdən daha səmərəli addımlar ataraq irəliləyib: "Astara transsərhəd dəmir yolunun modernləşdirilməsi yaxın zamanda başa çatacaq. Azərbaycanda logistik hab yaradılır, 2027-ci ildə Azərbaycan dəmir yolları tamamilə modern vəziyyətə gətiriləcək".

Məsafəsi 160 kilometr olan Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun tikilib başa çatdırılması İran və Rusiyanın dəmir yollarını Azərbaycan dəmir yolu vasitəsilə birləşdirəcək ki, bu da Rusiyaya Körfəz ölkələrinə çıxış əldə etməsi üçün imkan verəcək.

"RusİranGkspo" şirkətinin direktoru Aleksandr Şarov bildirib ki, Rəşt-Astara dəmir yolunun tikintisi 2032-ci ilədək başa çatdırılacaq: "Özəl mülkiyyətdə olan torpaq sahələrini almaq və bu ərazilərdə geoloji kəşfiyyat işləri aparıb ərazinin çökmə səviyyəsini yoxlamaq vaxt aparacaq. Hazırda ŞCBN dəhlizi ilə avtonəqliyyat vasitələrilə



5 milyon ton yük daşınır ki, bunun da əksəriyyəti Azərbaycandan tranzit keçir. Yüklər Moskvadan avtomobillərlə İranla yanaşı, Qətərə, Səudiyyə Ərəbistanına, Birləşmiş Ərəb Əmirliklərinə və İraqa 10-12 günə çatdırılır. Geri qayıdarkən isə İrandan Rusiyaya meyvə, tərəvəz gətirirlər. Hələlik dəmir yolu ilə Azərbaycandan tranzit olaraq İrana 1 milyon ton yük ixrac edilir. Rəşt-Astara dəmir yolu hazır olandan sonra yükdaşımaların artacağı şübhəsizdir".

Asiyanın İnkişafı Fondunun direktoru, hərbi ekspert Aleksandr Sobyanin bildirib ki, ŞCBND min il əvvəl mövcud olan ticarət yoludur: "Bu dəhliz Körfəz ölkələrinə və Hindistana yüklərin ən ucuz çatdırılmasını təmin edir ki, bu da çox vacibdir. Əgər qədim zamanlarda bu yolla Rusiya dəri və gümüş ticarətini həyata keçirirdisə, indi strateji əhəmiyyətli yüklər daşınır. Ona görə də Moskva ilə Bakı yalnız özlərinin deyil, bütün iştirakçı dövlətlərin strateji yüklərinin daşınmasına yardım göstərir".

Ekspert nəzərə çatdırıb ki, Prezident İlham Əliyevin oktyabrın 13-də Şarm əl-Şeyxdə Qəzzada atəşkəs məsələsinin müzakirəsi üçün keçirilən sammitdə Pakistan və İndoneziya prezidentləri ilə görüşməsi təsadüfi deyil.

Rusiya Dövlət Dumasının Dağıstandan seçilmiş deputatı Cəmaləddin Həsənov sayta bildirib ki, ŞCBND sadəcə ticarət yolu deyil: "Bu gün dünyada baş verən geosiyasi vəziyyəti nəzərə alaraq dəhlizin Rusiya və Azərbaycan üçün mahiyyətini görürük. Ticarət yollarının diversifikasiyası, nəqliyyat əlaqələrinin genişləndirilməsi və artırılması təhlükəsizlik üçün vacib amillərdir".

# Azərbaycanın xarici siyasətinin uğurları



## 5 müxtəlif coğrafiyada, 5 fərqli tədbirdə

### Azərbaycan Prezidenti bütün siyasi platformalarda hörmətlə qarşılanan liderdir

**Oktyabrın 15-də dövlətimizə rəhbərliyinin 22 ili tamam olan Prezident İlham Əliyevin ötən dövrdə yürütdüyü uzaqgörən və məqsədyönlü siyasət həm də Azərbaycanın bugünkü dünya nizamında tutduğu vacib yerini və rolunu müəyyənləşdirib. Cənubi Qafqazın bütün sferalarda ən inkişaf etmiş ölkəsi olan Azərbaycan bu gün qlobal siyasi böhranların həll edildiyi masalarda söz sahibidir.**

Dünyanın gələcək taleyinin həll olunduğu beynəlxalq sammitlərdə böyük rəğbətlə ölkəmizin sülh modeli misal çəkilir, örnək götürülür, daha ədalətli dünya nizamının qurulması üçün etdiyi vacib çağırışlar diqqətə alınır. Qlobal siyasi toplantılarda dünya nəhəngləri ilə bərabər qərarlaşması, heç şübhəsiz, Azərbaycanın qət etdiyi və milli maraqlarının təmininə doğru istiqamətlənmiş qətiyyətli və nümunəvi yolu sayəsində mümkün olub.

#### Nyu York, Kopenhagen, Qəbələ, Düşənbə və Şarm əl-Şeyx...

Müstəqilliyini qazandığı ilk illərdən işğal faktı, bir milyondan çox qaçqın, məcburi köçkün problemi, siyasi, iqtisadi, sosial böhranlarla üz-üzə qalan Azərbaycanın düşdüyü bu çətin vəziyyətdən sürətlə çıxması və hazırda hərtərəfli inkişafa malik ölkə kimi adından söz etdirməsi beynəlxalq səviyyədə etiraf olunan gerçəklikdir. Şərqlə Qərbin enerji, nəqliyyat qovşağı olan Azərbaycan hazırda əksər ölkələrin ikitərəfli əlaqələr qurmaqda maraqlı olduğu tək-tük dövlətlərdəndir.

BMT TŞ-nin qətnamələrini hərb yolu ilə özü yerinə yetirərək beynəlxalq hüququ təmin edən Azərbaycan apardığı haqq savaşında müharibə qanunlarını heç bir halda pozmayıb, mülki insanlara, obyektlərə zərər verməyib. Bakının liderliyi ilə yürüdülən normallaşma prosesi bölgədə de-fakto sülhə yol açıb. Bu il avqustun 8-də Vaşinqtonda ABŞ rəhbəri Donald Trampın iştirakı ilə Ermənistanla Azərbaycan arasında sülh sazişinin mətni paraflanaraq barış üçün həlledici mərhələnin, sülh sazişinin imzalanmasının təməli qoyulub. Bununla da üç onillik boyu Cənubi Qafqazda var olan münaqişə birdəfəlik bitib və bölgədə təkcə region ölkələri üçün deyil, daha geniş coğrafiya üçün əhəmiyyət daşıyan əməkdaşlıqlara geniş imkanlar açılıb.

Bütün bunlar Azərbaycanın yaratdığı və tam mübaliğəsiz demək olar ki, dünyanın nümunə götürəcəyi inkişaf, əməkdaşlıq və sülhü özündə ehtiva edən unikal modeldir. Buna görədir ki, ölkəmizin beynəlxalq miqyaslı məsələlərin həllində oynadığı aktiv rol bu gün ön plana çıxır. Dünyanın istənilən qütbündə yerləşən ölkələr Azərbaycanın ortaya qoyduğu bu modeli rəğbətlə qarşılayır, təqdir edirlər.

Prezident İlham Əliyevin son 20 günə yaxın bir müddətdə müxtəlif nüfuzlu tribunalardan ölkəmizin həqiqətlərini dünyaya çatdırması, istər Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası, istər Azərbaycanın evsahibliyi etdiyi Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü zamanı etdiyi çıxışlar, istərsə də Kopenhagendə keçirilən "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısındakı mühüm görüşləri zamanı verdiyi mesajlarla dünyada əbədi sülhün bərqərar olması üçün mühüm çağırışlar etməsi də bu qəbildəndir. Cənubi Qafqazda davamlı sülh üçün üfüqlər açan ölkənin rəhbəri kimi Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq Sülh Sammitində iştirak etməsi təsadüfi xarakter daşımırdı. Həmçinin oktyabrın 9-da Tacikistanın paytaxtı Düşənbədə keçirilən MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində dövlətimizin başçısı İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında baş tutan görüş iki ölkə arasında münasibətlərin normal məcraya yönəlməsi üçün əhəmiyyətli oldu.

#### Qalib rəhbər

"Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam", - deyə Prezident İlham Əliyev sentyabrın 25-də Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışına Azərbaycanın keçdiyi inkişaf yolu və qazandığı qələbələrin yol xəritəsi kimi də adlandırılacaq bu fikirlərlə başladı.

Həmin zaman Azərbaycan lideri Nyu Yorka Qarabağ məsələsini məhz öz qətiyyəti və uzaqgörən siyasəti sayəsində nizama salan qalib rəhbər kimi yollanmışdı. Respublikamızın başçısının adıçəkilən sessiyadakı çıxışının gündəliyini regionda ölkəmizin yaratdığı yeni reallıqlar, əməkdaşlıq üçün formalaşdırılmış mühüm fürsətlər və sülh təşkil etdi.

BMT Baş Assambleyasının 80-ci sessiyasında Prezident İlham Əliyevə göstərilən böyük ehtiram, nüfuzlu tədbir çərçivəsində qarşı tərəflərin istəyi ilə Azərbaycan lideri ilə keçirilən yüksəksəviyyəli görüşlər diqqət çəkdi.

O cümlədən "Avropa Siyasi Birliyi"nin Kopenhagendə keçirilən 7-ci Zirvə toplantısında müxtəlif ölkələrin liderlərinin, qurumların rəhbərlərinin Prezident İlham Əliyevlə görüşməkdə maraqlı olmaları təbii idi. Belə ki, həmin səfər çərçivəsində dövlətimizin başçısı Kopenhagendə qarşı tərəflərin müraciətlərinə əsasən çoxsaylı mühüm görüşlər keçirdi. Prezident İlham Əliyev Moldova Prezidenti Maya Sandu, Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen, İtaliya Nazirlər Şurasının Sədri Ciorcia Meloni, Ukrayna Prezidenti Volodimir Zelenski, Niderland Krallığının Baş naziri Dik Sxof, Fransa Prezidenti Emmanuel Makronla danışıqlar apardı.

Bu Zirvə görüşündə məhz qarşı tərəflərin istəyi ilə keçirilən görüşlər Prezident İlham Əliyevin Avropada yüksək nüfuza malik olmasına, ona ali səviyyədə göstərilən hörmət və ehtirama dəlalət edirdi.

Azərbaycanın tarixi şəhəri Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının XII Zirvə görüşü isə Azərbaycanın türk dünyasının həmrəyliyində oynadığı mühüm rolu bir daha göstərdi. Türkdilli dövlətlərin liderlərinin bir araya gəldiyi tarixi toplantıda türk birliyinin zamanın çağırışı olması mesajı bir daha verildi.

#### Beynəlxalq proseslərin fəal aktoru

9 oktyabr tarixində Tacikistanda keçirilən MDB Dövlət Başçıları Şurasının iclası həm regional əməkdaşlığın gücləndirilməsi, həm də iclas çərçivəsində dövlətimizin başçısı İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında baş tutan görüş baxımından mühüm əhəmiyyət kəsb etdi. Qonşu ölkələrin liderləri arasında keçirilən görüş sayəsində Azərbaycan-Rusiya münasibətlərində yeni səhifə açıldı. Bir ilə yaxındır Rusiya hava məkanında baş verən təyyarə qəzası ilə bağlı ölkələrimiz arasında yaranmış gərginlik aradan qaldırıldı. Rusiyanın HHM sistemlərinin bu faciəyə səbəb olduğunu etiraf edən V.Putin bildirdi ki, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək.

Prezident İlham Əliyevin 13 oktyabr tarixində Misirdə keçirilən Yaxın Şərq Sülh Sammitində ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə iştirak etməsi sülh yaradan Azərbaycan liderinə qlobal ehtiramı bir daha nümayiş etdirdi.

Şarm-əl-Şeyxdə keçirilən Sülh Sammitində dünya nəhəngi ABŞ-yə rəhbərlik edən Donald Trampın Prezident İlham Əliyevə səmimi dostluq münasibəti göstərməsi xüsusi diqqət çəkdi.

Sammitdə ABŞ lideri dövlətimizin başçısı haqqında yüksək fikirlər səsləndirdi: "Budur, mən bu yaxınlarda bu şəxs üçün müharibəni bitirdim. Azərbaycan, işimi bəyəndinizmi? Bəs Sizin həmkarınız haradadır? Budur, buradadır. Siz ikiniz artıq yola gedirsiniz, elə deyilmi? Onlar 32 il müharibə etdilər, biz isə bir saata bu məsələni həll etdik, elədirmi? İndi onlar yola gedirlər, bu yaxşıdır, düşünürəm ki, bu əladır".

Bəli, bu sadalananlar sadəcə Prezident İlham Əliyevin diplomatik gündəliyinin son 20 günü ilə bağlı qısa xülasə idi. Dövlətimizin başçısının bu müddət ərzində müxtəlif coğrafiyalarda və fərqli formatlarda keçirilən beş nüfuzlu beynəlxalq sammitdə iştirak etməsi həm də Azərbaycan liderinin yürütdüyü çoxşaxəli və balanslaşdırılmış siyasətin uğurundan xəbər verir. Bu onu göstərir ki, Azərbaycan çoxqütblü dünyanın diqqət mərkəzindədir və ona yuxarıda da vurğuladığımız kimi məsafəsindən və yerləşdiyi ərazidən asılı olmayaraq, etimad və ehtiram göstərən ölkələr mütləq əksəriyyət təşkil edir. Azərbaycanın beynəlxalq hüquqa söykənən və dövlətlərin suverenliyini dəstəkləyən siyasətindən heç zaman dönməməsi onu yeni və ədalətli dünya nizamının formalaşdırılmasında fəal aktora çevirir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Azərbaycanın qlobal siyasi proseslərə təsir imkanları artıb

**Oktyabrın əvvəllərində Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında Azərbaycan Prezidentinin iştirakı və orada keçirdiyi görüşlər ekspertlərin diqqətini cəlb edib. Onlar Azərbaycanın beynəlxalq arenada nüfuzunun yeni səviyyəyə yüksəldiyi fikrini ifadə edir, ölkəmizin geosiyasi təsir imkanlarından bəhs edirlər.**

#### Strateji diskussiyalar

Hazırda Avropanın gələcəyi ilə bağlı strateji diskussiyaların vacibliyi ümumilikdə hər kəs tərəfindən qəbul edilir. Müxtəlif platformalarda bununla bağlı müzakirələr də aparılır. Bu kontekstdə siyasətçilərin və ekspertlərin diqqətini daha çox çəkən platformalardan biri "Avropa Siyasi Birliyi"dir.

"Avropa Siyasi Birliyi" hökumətlərarası əməkdaşlıq platformasıdır. Onun yaradılması ideyası 2022-ci ildə irəli sürülüb. Məqsəd Avropanın gələcəyi ilə bağlı siyasi və strateji müzakirələr aparmaqdan ibarətdir. Bu platforma Avropa İttifaqına üzv olan ölkələrlə qeyri-üzv ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq edir.

Layihənin əsas məqsədi Avropada təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə ümumi maraqları müəyyənləşdirməklə problemləri həll etməkdir. Həmin məqsədə çatmaq üçün iki istiqamətdə fəaliyyət gücləndirilməlidir: birincisi, bütün Avropa ölkələrinin siyasətlərinin koordinasiyasında yeni səviyyəyə çatmaq lazımdır. İkincisi isə, məsələlərin həllində dialoq və əməkdaşlığa nail olunmalıdır.

Bu prosesdə enerji böhranının aradan qaldırılması xüsusi yer tutur. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi buradakı ölkələrin milli təhlükəsizliyinin təmini kontekstində nəzərə alınır.

"Avropa Siyasi Birliyi" təşkilatın gələcək taleyinin inkişaf, təhlükəsizlik və əməkdaşlıq kontekstlərində kompleks şəkildə müzakirə olunduğu platformadır. Onun toplantılarında Avropa İttifaqına üzv olmayan dövlətlərin də iştirak etməsi onu göstərir ki, qonşuluq siyasətinə daxil olan ölkələrin də problemlərin həllində müəyyən dərəcədə iştirakı arzuolunandır. Bu kontekstdə Azərbaycanın yeri və rolu digər ölkələrdən fərqlənir.

#### Azərbaycanın substantiv iştirakı

Sirr deyil ki, Avropa İttifaqının bütün üzvləri Azərbaycanın "Avropa Siyasi Birliyi"ndə iştirakında son dərəcə maraqlıdırlar. Bunun başlıca səbəbi Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmininə ciddi dəstək verməsidir. Təsadüfi deyil ki, ölkəmizin "Avropa Siyasi Birliyi"ndə təmsil olunan 47 dövlətdən 16-sı ilə strateji tərəfdaşlıq münasibətləri var, onlardan 10-u Aİ-nin üzvüdür. Ölkəmiz hazırda Avropanın 10, o cümlədən Aİ-nin 8 üzv dövlətinə "mavi yanacaq" ixrac edir. Bunlardan başqa, Azərbaycan Avropanın bir çox dövləti ilə müxtəlif sferalara aid layihələr həyata keçirir. Avropa Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Yeni layihələrdə enerji təhlükəsizliyi, "Cənub qaz dəhlizi"nin genişləndirilməsi, "yaşıl enerji" sahəsində əməkdaşlıq və yeni nəqliyyat marşrutlarının formalaşdırılması xüsusi yer tutur.

Qlobal geosiyasi proseslər fonunda aydın görünür ki, Avropanın Azərbaycana ehtiyacı daha da artıb. O cümlədən Rusiyanın enerji daşıyıcılarından imtina məsələsi Bakının aktuallığını Brüssel üçün ən yüksək səviyyəyə çıxarıb.

Nəhayət, Avropa üçün Azərbaycanı çox qiymətli edən bir faktı da vurğulamaq lazımdır. Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində qalib gəlməklə sübut etdi ki, Avropasız da uğur qazana bilər. Üstəlik, regional miqyasda nizamı, sülhü, barışığı və əməkdaşlığı təmin etmək iqtidarındadır. Buna görə də Avropa İttifaqı Azərbaycanla əməkdaşlığı daha da inkişaf etdirməyə məhkumdur. Və bütün bunların fonunda "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının keçirilməsi və orada Azərbaycan Prezidentinin iştirakı ekspertlərin böyük marağına səbəb olub.

#### 7-ci Zirvə toplantısı

Kopenhagendəki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak ediblər. Liderlər hazırkı geosiyasi vəziyyətdə Avropanı daha güclü və təhlükəsiz etməyin yollarını müzakirə edib, ümumi təhlükəsizlik və ayrıca Ukrayna ilə bağlı müzakirələr aparıblar. Bu sırada miqrasiya, iqtisadi təhlükəsizlik, ənənəvi və hibrid təhdidlər diqqət mərkəzində olub.

Müzakirə olunan mövzuların məzmunu göstərir ki, Azərbaycan Prezidenti ilə müzakirələrə ciddi maraq gözlənilən idi. İlham Əliyev həm qalib lider, həm də Avropanın təhlükəsizliyinə töhfələr verən dövlətin başçısı kimi yüksək nüfuza malikdir. Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin dövlət başçısı İlham Əliyevlə birgə görüşü ciddi mesajdır. Onlar Azərbaycan Prezidentini Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik ediblər, halbuki ötən illərdə məhz həmin sazişin imzalanmasına əngəllər yaradılırdı.

Bundan başqa, Aİ rəsmiləri nəqliyyat, enerji və rəqəmsal texnologiyalar sahəsində sərmayə qoyuluşunun davam etdiriləcəyini ifadə ediblər. Onlar bəyan ediblər ki, Aİ Azərbaycanı vacib tərəfdaş kimi qiymətləndirir və əlaqələrin möhkəmləndirilməsinə sadiqdir. Buradan geosiyasi və siyasi əhəmiyyətli bir nəticə çıxarmaq olar.

#### Dünya siyasəti və Azərbaycanın artan beynəlxalq nüfuzu

Kopenhagen sammitindən sonra ekspertlər belə bir tezis irəli sürürlər: müstəqil, çoxvektorlu xarici siyasət yürüdən Azərbaycanın təkcə regionda deyil, beynəlxalq arenada da nüfuzu artır. Azərbaycan regional və qlobal miqyasda əməkdaşlıq əlaqələrini gücləndirir, beynəlxalq aləmdə baş verən proseslərə, qlobal təhlükəsizliyə təhdid yaradan halların aradan qaldırılmasına öz töhfələrini verir.

Buna görə də Kopenhagendə Prezident İlham Əliyevlə ünsiyyət qurmağa çalışan çox dövlət başçıları olmuşdur. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol Ukrayna-Rusiya müharibəsi fonunda daha vacib faktor kimi dəyərləndirilir. Azərbaycan Avropa İttifaqının həm enerji təhlükəsizliyinin təminatında əsas tərəfdaşlardan biridir, həm də "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin Qafqazda əsas mərkəzi məkanıdır. Sözsüz ki, bunlar Azərbaycanın dünyada nüfuzunu daha da artırır.

Bu prosesin özünəməxsus nəticələri də var. Onlardan biri qlobal geosiyasi proseslərə ölkəmizin təsir imkanlarının genişlənməsi ilə bağlıdır.

#### Qlobal siyasi proseslərə təsir imkanlarının genişlənməsi

Bu, çox əhəmiyyətli ümumi nəticədir. Onun vacibliyi Kopenhagendə Prezident İlham Əliyevə olan münasibətin fonunda qabarıq görünür. Çünki hər bir liderin qlobal siyasi proseslərə təsiri mühüm göstəricidir. Ekspertlərin Azərbaycanın Avropa İttifaqının gələcəyi ilə bağlı müzakirələrdəki mövqeyinə xüsusi önəm verməsi tamamilə yerindədir.

Onlara bir həqiqəti də əlavə etmək gərəkdir. Azərbaycan son zamanlar Orta dəhliz kontekstində Zəngəzur məsələsini Qərbin siyasi gündəminə çıxarmağa müvəffəq olub. Bu addımın böyük nailiyyət olduğunu gələcək daha yaxşı göstərəcək. Ancaq indidən aydındır ki, Aİ-nin geosiyasi iddiaları müstəvisində Zəngəzur açar rolunu oynayan məsələlərdən biridir. Bu baxımdan E.Makronun İlham Əliyevə xüsusi hörmət nümayiş etdirməsi ilə yanaşı, N.Paşinyanla aparılan müzakirələrdə Zəngəzur məsələsinə ayrıca önəm verilməsi diqqətdən yayınmamışdır. Ekspertlər məsələnin bu tərəfini xüsusi təhlil edirlər.

Beləliklə, Azərbaycan Prezidentinin "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirakı mühüm tarixi hadisədir. Dövlət başçısının müzakirə etdiyi mövzular göstərir ki, Azərbaycanın dünyada siyasi və geosiyasi rolu yeni səviyyəyə yüksəlməklə yanaşı, qlobal siyasi proseslərə təsir imkanları da genişlənib. Eyni zamanda Avropa rəsmilərinin münasibəti təsdiqləyir ki, həmin istiqamətdə proses davam edəcək.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

## TÜRKPA-nın yeni baş katibi səlahiyyətlərinin icrasına başladı

**Oktyabrın 15-də Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) yeni baş katibi Ramil Həsən vəzifəsinin icrasına başlayıb. Bu münasibətlə TÜRKPA-nın baş ofisində təhvil-təslim mərasimi keçirilib.**

Tədbiri açan sabiq baş katib Mehmet Süreyya Er Türk dünyasında əməkdaşlığın getdikcə möhkəmlənməsindən, türk dövlətləri başçılarının siyasi iradəsinin bu prosesdəki mühüm rolundan bəhs edib. O, Katibliyə rəhbərliyi dövründə görülən işlərdə əməyi keçən hər kəsə, o cümlədən TÜRKPA Katibliyinin əməkdaşlarına minnətdarlığını ifadə edib.

Mehmet Süreyya Er yeni baş katib Ramil Həsənin vaxtilə TÜRKPA-nın ilk baş katibi olduğunu xatırladıb, onun yenidən bu vəzifəyə qayıtmasının təşkilatın inkişafı baxımından əhəmiyyətini vurğulayıb, ona gələcək fəaliyyətində uğurlar diləyib.

Sonra TÜRKPA-nın yeni baş katibi Ramil Həsən çıxış edərək, Mehmet Süreyya Erə baş katib kimi səmərəli fəaliyyətinə görə təşəkkür edib, gələcək fəaliyyətində ona uğurlar arzulayıb. O qeyd edib ki, TÜRKPA-nın Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilmiş 14-cü plenar sessiyasında Milli Məclisin Sədri Sahibə Qafarovanın təqdimatı ilə baş katib seçilib. Ramil Həsən ona göstərilən yüksək etimadı doğrultmaq üçün əməyini əsirgəməyəcəyini bildirib. O, qardaş və dost türk dövlətləri arasında inteqrasiyanın, əməkdaşlığın inkişaf etdirilməsinin önəmini vurğulayıb. Çünki Azərbaycan Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, "bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır".




Yeni baş katib türk dövlətlərinin liderlərinin həyata keçirmiş olduqları tarixi missiyanın parlament müstəvisində davamı olan TÜRKPA-nın möhkəmləndirilməsi, türk ailəsinin birliyinin və həmrəyliyinin dərinləşdirilməsi barədə fikirlərini bölüşüb, TÜRKPA Katibliyinin gələcək fəaliyyətinin prioritetlərini açıqlayıb, əməkdaşlıq və koordinasiyanın daha da gücləndiriləcəyini vurğulayıb.

Mərasimdə TÜRKPA-nın bayrağı yeni baş katibə təhvil verilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İqtisadiyyat və sosial həyat

## 9 ayda ÜDM istehsalı 1,3 faiz artıb

**Cari ilin yanvar-sentyabr aylarında ölkədə 95 milyard 229,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,9 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 2,9 faiz artmışdır.

ÜDM istehsalının 34,2 faizi sənaye, 10,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,6 faizi tikinti, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 20,7 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 9300,3 manata bərabər olmuşdur.

## Əsas kapitala 13 milyard manatdan çox vəsait yönəldilib

**9 ayda əsas kapitala 13 milyard 48,1 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,0 faiz çox investisiya yönəldilmişdir.**



Dövlət Statistika Komitəsi bildirir ki, neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 11,5 faiz azalmış, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 7,0 faiz artmışdır.

İstifadə olunmuş investisiyanın 51,0 faizi məhsul istehsalı sahələrinə, 32,9 faizi xidmət sahələrinə, 16,1 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. 77,1 faizini daxili investisiyalar təşkil edən əsas kapitalın 78,8 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə yönəldilmişdir.

# Hər görüşdə növbəti uğurların bünövrəsi qoyulur

### Azərbaycan və Qazaxıstan arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 21-ci iclasında perspektivlər müzakirə olunub

**Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin siyasi iradəsi və müdrik rəhbərliyi nəticəsində ölkələrimiz arasında əməkdaşlıq bütün sahələrdə dinamik şəkildə inkişaf edir və davamlı xarakter daşıyır. Hazırda iki ölkədə "2022-2026-cı illər üzrə əməkdaşlığın inkişaf etdirilməsi haqqında Kompleks Proqram" həyata keçirilməkdədir. Birgə reallaşdırılan çoxsaylı layihələr var.**

Azərbaycan və Qazaxıstan arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya ikitərəfli əlaqələrin dərinləşdirilməsində əhəmiyyətli rol oynayır. Komissiya artıq iki onillikdən çoxdur fəaliyyət göstərir və bu günlərdə Bakıda özünün 21-ci iclasını keçirib.

Yaranmış ənənəyə uyğun olaraq, tədbirdən əvvəl komissiyanın həmsədrləri - Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Qazaxıstanın nəqliyyat naziri Nurlan Sauranbayev arasında ikitərəfli görüş olub. Görüşdə strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə edilib. Eləcə də enerji, nəqliyyat və digər sahələrdə qarşılıqlı fəaliyyətin gücləndirilməsi üçün həyata keçirilən və planlaşdırılan tədbirlər müzakirə olunub.

Belə ki, bu ilin birinci yarısında iki ölkə arasında ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,2 dəfə artaraq 501 milyon dollara çatıb. Keçən il isə bu göstərici 50 faiz artımla 470 milyon dollar təşkil etmişdi.

İclasda çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov bunları bildirərək enerji sahəsində də əməkdaşlığın uğurla inkişaf etdiyini diqqətə çatdırıb: "2023-cü ildən indiyə qədər Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə dünya bazarına 3,4 milyon ton Qazaxıstan nefti nəql olunub. 2027-ci ilədək tranzit həcmlərinin illik 7 milyon tona çatdırılması və qarşılıqlı faydalı prinsiplər əsasında daha da artırılması imkanları nəzərdən keçirilir".

İndi Azərbaycan və Qazaxıstan arasında enerji əməkdaşlığı daha da şaxələndirilir. Odur ki, sözügedən iclasda Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi layihəsinin enerji tərəfdaşlığını gücləndirən və regional enerji təhlükəsizliyinə töhfə verən strateji rolunun diqqətə çatdırılması təsadüfi deyil. Həmçinin əlavə edilib ki, gələn ay məsləhətçi şirkətin seçimi başa çatdıqdan sonra layihənin texniki-iqtisadi əsaslandırmasının hazırlanmasına başlanacaq.



Daha bir məsələ vurğulanıb. Bu da Azərbaycanın Trans-Xəzər Nəqliyyat Dəhlizinin inkişafı sahəsində tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsinə və Zəngəzur dəhlizinin (TRIPP) açılması perspektivləri də daxil olmaqla yeni imkanların birgə və səmərəli reallaşdırılmasına hazır olmasıdır.

"Bugünkü danışıqlarımız konstruktiv, səmimi və əsl işgüzar atmosferdə keçdi. Biz Qazaxıstan və Azərbaycan arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsinə yönəlmiş yüksək maraq, qarşılıqlı anlayış və etimad nümayiş etdirdik. İclas zamanı ticarət və sənaye əməkdaşlığından tutmuş nəqliyyat, energetika, rəqəmsallaşma və mədəniyyət sahələrinə qədər əməkdaşlığımızın müxtəlif istiqamətlərinə toxunan bir sıra məzmunlu ideya və təşəbbüslər səsləndirildi". Bunları isə Qazaxıstanın nəqliyyat naziri Nurlan Sauranbayev deyib.

Ötən il iki ölkə arasında tranzit daşımalarının ümumi həcminin 21 faiz artaraq 3,6 milyon ton təşkil etməsi də müsbət hal kimi qiymətləndirilib. Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və turizm sahələrində də əməkdaşlıqda müsbət dinamikanın müşahidə olunduğundan, bir sıra birgə təşəbbüslərin uğurla həyata keçirildiyindən bəhs edilib.

Qeyd edək ki, hər iki ölkədə prioritet infrastruktur və istehsal layihələrinə investisiyaların cəlb edilməsində Birgə İnvestisiya Fondunun əhəmiyyəti böyükdür.

Qazanılmış nailiyyətlərlə yanaşı, ticarət-iqtisadi, energetika, nəqliyyat və logistika, kənd təsərrüfatı, qida təhlükəsizliyi, rəqəmsallaşma, informasiya-kommunikasiya texnologiyaları, səhiyyə, elm və təhsil, mədəniyyət, turizm və digər sahələrdə əməkdaşlığın daha da inkişafı üçün həmçinin perspektivlər mövcuddur. Odur ki, bununla bağlı aktual məsələlər də müzakirə olunub və bir sıra istiqamətlər üzrə razılaşmalar əldə edilib.

Sonda Azərbaycan-Qazaxıstan Birgə Hökumətlərarası Komissiyanın 21-ci iclasının yekunlarına dair Protokol imzalanıb.

Xatırladaq ki, komissiyanın keçən il mart ayının 5-də keçirilən 20-ci iclasına Astana evsahibliyi etmişdi. Gələn il növbə yenə Qazaxıstanındır. Belə ki, 22-ci iclasın Qazaxıstanda keçirilməsi razılaşdırılıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Şimal-Cənub" dəhlizinin imkanları genişlənəcək

### Bu barədə 3 qonşu ölkə - Azərbaycan, Rusiya və İran arasında razılıq əldə olunub

**Prezident İlham Əliyevin apardığı logistika siyasətinin Azərbaycanı dünya əhəmiyyətli tranzit ölkəsinə çevirməsi əksər dövlətlər tərəfindən etiraf olunan faktdır. O da faktdır ki, bu gün Şərqdən Qərbə, Şimaldan Cənuba gedən iki önəmli tranzit marşrutunda açar ölkə Azərbaycandır və bunun üçün ölkəmiz tərəfindən uzun illər həm diplomatik müstəvidə, həm də yolların çəkilməsində çox iş görülmüşdür.**




Dövlət başçısının Orta dəhlizə yeni ölkələrin qoşulması istiqamətində apardığı uğurlu xarici siyasət sayəsində marşruta qoşulan ölkələrin sayı artır, coğrafiyası genişlənir. Hazırda Çin, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğızıstanla yanaşı, Əfqanıstan və Pakistanla da Orta dəhlizə qoşulmaq barədə razılıq əldə olunub. Xəzərin qərb sahilində isə Azərbaycan, Gürcüstan, Türkiyə çoxdan bu sahədə sıx əməkdaşlıq edir. Avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı əldə olunan razılıqdan sonra Ermənistanın da layihəyə qoşulması realdır. Bununla yanaşı, qonşu ölkənin ərazisindən keçəcək Araz dəhlizinin açılması İranın da Orta dəhlizə qoşulması sayılacaq.

Uzun illər şimal və cənub qonşularımızın ölkəmizə Orta dəhlizlə bağlı mane olmaq cəhdləri heç kəsə sirr deyil. Ancaq Azərbaycan təmkinli və diplomatik fəaliyyəti ilə həmin cəhdlərin qarşısını məharətlə ala bildi. Düşənbə görüşündən sonra isə bu sahədə də qarşılıqlı anlaşma və razılaşma əldə edildi.

Xəbər verildiyi kimi, oktyabrın 13-də Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev, Rusiya hökuməti sədrinin müavini Aleksey Overçuk, İranın yol və şəhərsalma naziri Fərsanə Sadıq arasında üçtərəfli görüş olub. Görüşdə tərəflər arasında nəqliyyat, energetika və gömrük sahələrində əməkdaşlıq məsələləri geniş və hərtərəfli müzakirə edilib, ən əsası isə üç ölkə arasında əlaqələrin, o cümlədən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin fəaliyyətinin genişləndirilməsi barədə birgə Kommünike imzalanıb. Kommünikedə üç ölkə arasında tranzit əlaqələrin daha da yaxşılaşdırılması üçün görülməli işlər və tədbirlər əksini tapıb. Vurğulanıb ki, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi üzrə daşımaların həcminin 15 milyon tona çatdırılması üçün tədbirlərin görülməsi və yük axınlarının davamlı artımının təmin edilməsi vacibdir. Sənəddə həmçinin "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi boyunca infrastrukturun genişlənməsi işlərinin sinxron şəkildə həyata keçirilməsinin əhəmiyyəti qeyd edilib. O da bildirilib ki, planlaşdırılan tədbirlər üzrə fəaliyyət planının 3 ay müddətində hazırlanması üçün, eləcə də 3 ölkənin gömrük, sərhəd və nəqliyyat qurumlarının nümayəndələrindən ibarət avtomobil daşımaları üzrə işçi qruplarının yaradılması barədə razılıq əldə olunub.

Bunlardan başqa, sənəddə "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin potensialından tam şəkildə istifadə edilməsi üçün "Rəşt-Astara" dəmir yolu xəttinin inşasının, eləcə də dəhlizin komponentlərindən olan müvafiq dəmir yolu terminalı tikintisinin tamamlanmasının əhəmiyyəti, Araz çayı üzərində "Ağbənd-Kəlalə" avtomobil yolu körpüsünün tikintisi, o cümlədən sərhəd-buraxılış məntəqələrinin inşası üzrə işlərin yekunlaşdırılmasının üçtərəfli əlaqələrin möhkəmləndirilməsi baxımından vacibliyi qeyd edilib.

Azərbaycan həmişə qonşu ölkələrlə mehriban və qarşılıqlı fayda əsasında əməkdaşlığa hazır olub. Görüşdə Baş nazirin müavini Şahin Mustafayev ölkəmizin bu mövqeyini bir daha vurğulayaraq deyib ki, Azərbaycan İran və Rusiya ilə münasibətlərdə qarşılıqlı anlaşma prinsiplərinə sadiqdir.

Məlum olduğu kimi, Rusiya-Ukrayna müharibəsi üzündən şimal qonşumuzun Avropaya olan nəqliyyat əlaqəsi kəsilib. Üstəlik "qoca qitə" tərəfindən tətbiq edilən çoxsaylı sanksiyalar Rusiyanı yeni bazarlar axtarmağa məcbur edib. Çıxış yolu, göründüyü kimi, Azərbaycanla kommunikasiya əlaqələrinin genişləndirilməsidir. O üzdən Rusiya "Şimal-Cənub" nəqliyyat dəhlizinin fəaliyyətini artırmaq istəyir.

Şimal qonşumuz öz ərazisində dəhlizin keçid imkanlarını artırmaq üçün bir sıra texniki tədbirlər həyata keçirir. Artıq Rusiya Azərbaycanla dövlət sərhədində yerləşən avtomobil keçid məntəqələrinin buraxılış qabiliyyətini 5 dəfə - gündəlik 400-dən 1900 yük nəqliyyat vasitəsinə qədər artırmağa imkan verən tədbirlər görüb. Novo-Filya, Tahirkənd-Qazmalar və Yaraq-Qazmalar avtomobil keçid məntəqələrinin yenidən qurulmasından sonra Rusiya tərəfindən yük nəqliyyatı üçün ümumi buraxılış qabiliyyəti gündə 3 min nəqliyyat vasitəsinə qədər artırılıb.

"Şimal-Cənub" nəqliyyat dəhlizi tam fəaliyyətə başlasa onun qlobal ticarət marşrutuna çevrilə bilmək potensialı var. Bu dəhliz şimalda Barens və Baltik dəhlizləri ilə cənubda Fars körfəzini birləşdirsə, geniş bir coğrafiyada çoxsaylı dövlətlərin əlavə ticarət marşrutu əldə etmələrinə imkan yaranacaq. Azərbaycan isə Orta dəhlizdə olduğu kimi, "Şimal-Cənub" nəqliyyat dəhlizində də qovşaq ölkə statusunda olacaq, ərazimiz üzərindən daha çox yük daşınacaq və tranzit gəlirlərimiz artacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## 370 mindən çox şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi bu ilin 9 ayında 371,2 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib.**

Onlardan 137 min şəxs münasib işlərlə təmin olunub, 15,7 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib.

Yanvar-sentyabr aylarında 13,5 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub, 205 min şəxsə peşəyönümü xidmətlər göstərilib.

## İqtisadi sektorda orta aylıq əməkhaqqı 1100 manata yaxındır

**Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci il sentyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 764,9 min nəfər olmuşdur.**

Onlardan 855,3 min nəfəri iqtisadiyyatın dövlət, 909,6 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,0 faizi təhsil, 13,9 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,8 faizi tikinti, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 14,6 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

9 ayda ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,7 faiz artaraq 1093,8 manat təşkil etmişdir. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# "Şəfəq" stansiyasının tikintisində işlər qrafikə uyğun gedir

**Cəbrayıl rayonunda "Şəfəq" Günəş-Elektrik Stansiyasının tikinti işləri nəzərdə tutulmuş qrafikə uyğun irəliləyir. Bu barədə layihənin investorları məlumat veriblər.**

"Şəfəq"in önəmi ilk növbədə ondadır ki, işğaldan azad edilmiş və Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonası elan olunmuş ərazilərimizdə tikilir. Stansiyanın təməli keçən il Bakıda COP29-un davam etdiyi vaxt qoyulub. Yekun investisiya qərarı isə bu ilin iyun ayında qəbul edilib.

Daha sonra layihə üzrə iki əsas müqavilə imzalanıb. Bunlardan biri Mühəndislik, Təchizat və Tikinti (EPC) müqaviləsidir. Təxminən 117 milyon dollar dəyərində olan bu müqavilə "Intec" və "Complant" şirkətlərinə verilib. Müqavilə mühəndislik, təchizat və tikinti xidmətləri üzrə bütün iş həcmini, eləcə də obyektin ilk iki il ərzində istismar və texniki xidmət işlərini əhatə edir.

Qeyd edək ki, layihə sahəsində hazırlıq işləri artıq tamamlanıb və indi tikinti prosesinin torpaq işləri və daxili yolların çəkilməsi işləri gedir.

İkinci müqavilə isə Modul təchizatı müqaviləsidir. Bu müqavilə günəş panellərinin təchizatı üçündür. Dəyəri 29 milyon dollardan çoxdur. Müqavilə "Trina Solar" ("Schweiz") AG şirkətinə verilib. Modul təchizatı müqaviləsi çərçivəsində işlərə artıq başlanıb və ilk panellər bu ilin avqust ayında uğurla əraziyə çatdırılıb.



"Shafag (Jabrayil) Solar Limited" (SJSL) şirkətinin direktoru Kolin Allan deyir: "Çox məmnunuq ki, tərəfdaşlarımız "SOCAR Green və ABİF ilə birlikdə və digər çoxsaylı maraqlı tərəflərlə əməkdaşlıqda həyata keçirdiyimiz "Şəfəq" günəş layihəsi uğurla irəliləməkdədir. Torpaq işləri zamanı layihə ərazisinin şimal hissəsində bir tarixi arxeoloji abidənin aşkarlanması da bizim üçün sevindirici hadisədir. Hasarlanmamış açıq yaşayış məskəni olan bu tapıntının Tunc və Erkən Dəmir dövrlərinə aid olduğu ehtimal edilir. Arxeoloji sahədə dəyirman daşlarının fraqmentləri, gil saxsı qırıqları (küplər, qablar, bişirmə qazanları) və çay daşlarından düzülmüş tikinti strukturları kimi səth materialları aşkarlanıb. Bu tapıntıların tarixi dəyərini və əhəmiyyətini qiymətləndirmək məqsədilə Azərbaycan Arxeologiya və Antropologiya İnstitutunun mütəxəssisləri ilə sıx işləyirik".

Layihə üzrə tikinti işlərinin 2027-ci ilin ortalarına qədər davam edəcəyi planlaşdırılır. Bu işlərin yerinə yetirilməsində yerli resurslardan maksimum dərəcədə istifadə etməyə xüsusi diqqət veriləcək. Tikintinin pik dövründə layihə üzrə 400-ə yaxın iş yerinin yaradılacağı gözlənilir.

Xatırladaq ki, iyun ayında təsdiqlənmiş 200 milyon dollar dəyərində olan "Şəfəq" günəş layihəsi çərçivəsində tikilən stansiya 240 MVt AC gücündə olacaq.

Layihə Səngəçal terminalının elektrikləşdirilməsi (STEL) layihəsi ilə "virtual enerji ötürmə mexanizmi" adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, Səngəçal terminalı "Azərenerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulacaq. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kV-luq elektrik yarımstansiyası inşa ediləcək.

Proqnozlara və planlara görə, "Şəfəq" və STEL layihələri birlikdə Səngəçal terminalının gələcək istismar dövründə terminal əməliyyatlarından yaranan emissiyaların təxminən 50 faiz azaldılmasına imkan yaradacaq.

Hazırda terminal öz enerji ehtiyacını qarşılamaq üçün yeddi qaz turbinindən istifadə edir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə demontaj olunacaq və bu da istifadə olunmayan yanacaq qaz həcmlərinin ixraca yönəldilməsinə imkan verəcək.

*"Azərbaycan"*



# Mədəniyyət



Mətbuat tariximiz

# Müstəqillik ideyalarının ifadəçisi - "Açıq söz"

**Azərbaycan mətbuatı tarixin yoluna 1875-ci ildə "Əkinçi" qəzeti ilə qoşuldu. İlk qəzetin yaradıcısı - Həsən bəy Zərdabini qayğılandıran, müşkülə salan çox məsələlər vardı. Onların bəlkə də ən ümdəsi bunlar idi: baş redaktorun fəaliyyətə başlamasına çətinliklərlə izn aldığı mətbu orqana nə yazmaq üçün jurnalist, nə də oxucu tapacağına ümidi vardı. Soydaşlarının çoxu heç yazıb-oxumağı bacarmırdı. Həsən bəy əmin idi ki, nəşr etdiyi qəzeti "...bir-iki yüzdən artıq da oxuyan olmayacaq". Ancaq bu acı həqiqət onu ruhdan salmadı. Müdrik, uzaqgörən Həsən bəy xalqının, məmləkətinin yalnız o günlərini deyil, gələcəyini düşünərək yoluna davam etdi.**






"Əkinçi"nin fəaliyyətə başlaması mübarizlik, fədakarlıq idi. Və "əkinçi"lərin məmləkəti, xalqı üçün gördükləri ən böyük işlərdən birincisi Azərbaycan mətbuatının təməlini düz və möhkəm qoymaları oldu. "Əkinçi"dən sonra saysız-hesabsız problemlərə, çətinliklərə rəğmən yaradılan qəzet və jurnallar həmin bünövrə üzərində qərar tutdular. "Ziya" ("Ziyayi-Qafqaziyyə"), "Kəşkül", "Həyat", "İrşad", "Füyuzat", "Molla Nəsrəddin", "Tərəqqi", "Dəbistan", "Tazə həyat", "Məzəli", "Səda", "Sədayi-həqq", "Rəhbər", "Məktəb", "İşıq" və digər mətbu orqanlar "Əkinçi" kimi maarifçiliyi təbliğ etdilər, milli şüuru oyandırmağa çalışdılar, cəhalətə, geriliyə, ətalətə düşmən kəsildilər. Fəaliyyətləri nəinki təqdir olunmadı, təzyiqlərlə, maneələrlə üzləşdilər, ancaq öz məqsədlərindən əl çəkmədilər, məramlarını, məsləklərini dəyişmədilər, xalqımızın milli özünüdərkində, milli oyanış prosesində müstəsna rol oynadılar. Belə mətbu orqanlardan biri də "Açıq söz" qəzeti oldu.

İlk sayı 1915-ci il oktyabrın 2-də Bakıda, "İqdam" qəzetinin mətbəəsində işıq üzü görən "Açıq söz" qəzeti Məhəmməd Əmin Rəsulzadənin baş mühərrirliyi ilə fəaliyyətə başlayıb. Tədqiqatlara əsasən, qəzetin 422 sayı Əli Muxtar Ələkbərovun "İqdam" elektrik mətbəəsində, 423-cü saydan 704-ə qədər qəzetin nəşri Hacı Zeynalabidin Tağıyevin "Kaspi" mətbəəsi əsasında formalaşdırılmış "Açıq söz" elektrik tipoqrafiyasında çap olunub. Qəzetin sentyabr-oktyabr aylarını əhatə edən 8 sayı isə "Novruz" mətbəəsində buraxılıb.

Bir sıra araşdırıcılar ayrı-ayrı vaxtlarda "Açıq söz" qəzetinin naşirlərinin və redaktorlarının Məhəmməd Əmin Rəsulzadə, Məhəmməd Əli Rəsulzadə, Üzeyir bəy Hacıbəyli, Oruc, Qənbər və Abuzər Orucov qardaşları olduğunu qeyd ediblər. Filologiya üzrə fəlsəfə doktoru Rüxsarə Məmmədova isə "Açıq söz" qəzetinin fəaliyyət göstərdiyi 4 il müddətində M.Ə.Rəsulzadənin redaktorluğu ilə nəşr olunduğunu, yalnız 1918-ci ilin sentyabr-oktyabr saylarının redaksiya heyəti tərəfindən buraxıldığını yazıb: "Elmi ədəbiyyatlarda qəzetin redaktorları məsələsi ilə bağlı müəyyən yanlışlıqlara yol verilmişdir. Bir sıra nəşrlərdə, o cümlədən N.Axundovun "Azərbaycanda dövri mətbuat" biblioqrafiyasında, A.Aşırlının "Azərbaycan mətbuatı tarixi", Q.Dünyaminqızının "Cümhuriyyət dövründə Azərbaycan mətbuatı", Z.Kərimovun "XX əsrin əvvəllərində Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət mətbuat səhifələrində" kitablarında qəzetin redaktorları kimi M.Ə.Rəsulzadə ilə yanaşı, M.Ə.Əbdüləzizoğlu, X.İbrahim, Orucov qardaşları və Ü.Hacıbəylinin də adları qeyd olunub. Lakin M.Ə.Rəsulzadə "Açıq söz"ün təkcə 1918-ci il sentyabr-oktyabr nömrələrində iştirak etməyib. Çünki həmin dövrdə o, Bakıda deyildi. Qəzetin haqqında bəhs olunan sayları redaksiya heyəti tərəfindən buraxılmışdır. Mətbuat tədqiqatçısı A.Rüstəmli qəzetin nəşrinin bərpasında M.B.Məhəmmədzadənin böyük rol oynadığını qeyd edir".

"Açıq söz" qəzetinin naşirlərindən bəhs edərkən isə araşdırıcı ilk olaraq Məhəmmədəli Əbdüləzizoğlunun (Rəsulzadənin) adını çəkib. Onun bu vəzifəni 1917-ci ilin avqustunadək icra etdiyini, avqustun 1-dən 1918-ci il yanvarın 3-nə qədərki nömrələrinin Məhəmməd Əmin Rəsulzadə və Oruc, Abuzər, Qənbər Orucov qardaşlarının müştərək naşirliyi ilə buraxıldığını diqqətə çatdırıb. Bildirib ki, 1918-ci il yanvar-mart nömrələrinin naşiri M.Ə.Rəsulzadə, sentyabr-oktyabr nömrələrinin naşiri isə yenidən M.Ə.Əbdüləzizoğlu olmuşdur.

Məhəmməd Əmin Rəsulzadə rəhbərlik etdiyi və əsas yazarlarından olduğu "Açıq söz" qəzetinin ətrafına



istedadlı qələm adamlarını toplamışdı. Qəzetin yazarları sırasında Ömər Faiq Nemanzadə, Yusif Vəzir Çəmənzəminli, Mirzə Bala Məmmədzadə, Xəlil İbrahim, Hüseyn bəy Mirzəcamalov, Əhməd Həmdi Qarağazadə, Üzeyir bəy Hacıbəyli, Sənətullah Eynullayev, Tağı Şahbazi Simurq, Abdulla Şaiq, Abbas Səhhət, Məhəmməd Hadi, Əhməd Cavad, Hüseyn Cavid və digər vətənpərvər ziyalıların adlarını çəkmək olar.

"Açıq söz" gündəlik "siyasi, ictimai və ədəbi türk qəzetəsi" idi. Tədqiqatlarda qeyd olunub ki, bu qəzet özünə qədər çıxan mətbu orqanlardan bir sıra xüsusiyyətlərinə görə əsaslı şəkildə fərqlənib. Belə ki, "Açıq söz"ə qədər Azərbaycanda nəşr olunan heç bir mətbuat orqanında "siyasi" sözü əvvəldə işlədilməyib.

Qəzetin "Bakı xəbərləri", "Daxili xəbərlər", "Millətlər müharibəsi", "Son teleqraflar", "Sülh ətrafında", "Dövlət Duması", "İran işləri", "Ərzaq işləri", "Türküstan xəbərləri", "Müsavatda", "Bizim mətbuat", "Şəhər Duması", "Açıq sütunlar" və başqa daimi rubrikaları olub.

Qəzetin ümumi sayına gəlincə, bu barədə də tədqiqatçıların nəticələri fərqlidir. Ayrı-ayrı mənbələrdə "Açıq söz"ün fəaliyyəti boyunca işıq üzü görmüş sayları 704, 720, 724, 725, 750 kimi qeyd olunub. Bu barədə R.Məmmədovanın qənaəti isə belədir: "1918-ci ilin mart qırğınınadək 704 nömrə çıxıb. Sentyabrda çıxan nömrələr isə 717-dən başlayır və 724-ə qədər davam edir. Burada iki versiyanın olması mümkündür. Ya qəzet 704-cü sayından 717-ciyədək gizli şəkildə nəşr olunub, sadəcə olaraq həmin nömrələr indiyədək tapılmayıb, ya da qəzetin nəşri bərpa edilərkən sonuncu nömrənin sayı dəqiq olaraq xatırlanmayıb. Ona görə də qəzetin davamı 717-cidən başlanılıb və qəzetin 724-cü nömrəsi son nömrə olub. Qəzetlə bağlı digər bir yanlış hal onun bir sıra mənbələrdə "Müsavat" partiyasının rəsmi orqanı kimi qələmə verilməsindədir. Düzdür, "Açıq söz" "Müsavat" ideyalarının ən əsas daşıyıcısı kimi tanınır. Burada M.Ə.Rəsulzadə faktoru da heç şübhəsiz, böyük rola malikdir. Lakin bununla belə qəzet heç zaman rəsmi partiya orqanı kimi fəaliyyət göstərməyib, ümummilli və müstəqil qəzet funksiyasını sonadək haqqı ilə yerinə yetirib".

Qəzetin məramı, məsləki ilk sayında M.Ə.Rəsulzadə imzası ilə verilmiş "Tutacağımız yol" adlı baş məqalədə açıqlanıb: "İştə millətimizin bir qəzetəçisi olmaq hesabilə öhdəmizə düşən rəhbərlik vəzifəsinin ifası üçün tutacağımız yolun nöqteyi-əzimətini təşkil edəcək əsas - milliyyət əsası". Məqalənin sonunda bildirilir: "Xülasə, tutacağımız yolda önümüzə çıxacaq olanlara qarşı yeganə vasitəmiz olacaq açıq söz!"

"Açıq söz" Əli bəy Hüseynzadənin irəli sürdüyü "Türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyasına xidmət edirdi. Qəzetin birinci sayında Məhəmməd Əmin Rəsulzadə yazırdı: "Hər bir millət azadə yaşayıb da tərəqqi edə bilmək üçün 3 əsasa istinad etmək məcburiyyətindədir:

Dil, Din və Zaman...

Dilcə - biz türküz, türklük milliyyətimizdir... Dincə - müsəlmanız. Hər bir din inananları arasında məxsusi bir mədəniyyət vücuda gətirmişdir ki, bu mədəniyyət də bir beynəlmiləliyyət səbəbi təşkil edir... Zamanca da - biz texnikanın, elm və fənnin möcüzələr yaradan bir dövründəyiz...

Demək ki, sağlam, mətin və oyanıq məfkurəli bir milliyyət vücuduna çalışmaq istərsək ki, zaman bunu iqtiza ediyor - mütləqa 3 əsasa sarılmalıyız:

Türkləşmək, islamlaşmaq və müasirləşmək".

Qəzet nəşrə başlayanda Birinci Dünya müharibəsi davam edirdi. Dünya ictimaiyyəti bəşəriyyətin gələcəyindən narahatlıq keçirir, əndişə içərisində sabahını düşünürdü. "Açıq söz"ün ilk sayında dərc olunmuş sözügedən proqram səciyyəli baş məqalədə həmin duyğular ifadə olunmuşdu. Müəllif yazırdı: "Dəhşətlərinə şahid olduğumuz böyük müharibə böyük bir həqiqəti - əsrimizin millətçilik əsri olduğunu isbat etdi.

"Dünyanın xəritəsi qəribə dəyişəcək" - deyə heyrətlə qarışıq bir cümlə imdi bir çox ağızlardan eşidilməkdədir. Dünya xəritəsinin alacağı yeni şəklə vətəndaşların fədakarlığı, dövlətlərin təşkilatı və orduların əzəməti ilə bərabər heç şübhə yoxdur ki, aşkarlı və qətiyyət göstərmiş milliyyət məfkurələrinin də böyük təsiri var və olacaqdır".

Dəhşətli müharibənin tərəflərindən biri Azərbaycanın da müstəmləkəsində olduğu sar Rusiyası idi. Dünya ölkələrinin müqəddəratlarının döyüş və siyasət meydanlarında həll olunduğu bir vaxtda həm də böyük imperiyanın daxilində gərgin ictimai-siyasi hadisələr baş verirdi. Rusiyanın böyük şəhərlərində çarizmə qarşı getdikcə artan narazılıqlar, etiraz səsləri əyalətlərdə də yüksəlirdi. Belə bir zamanda mətbuat meydanına çıxan "Açıq söz" qəzetinin səhifələrində Birinci Dünya müharibəsinin gətirdiyi bəlalar hərtərəfli və obyektiv işıqlandırılırdı. Eyni zamanda çar Rusiyasının daxilində gedən ictimai-siyasi proseslər, mövcud vəziyyət barədə müntəzəm surətdə məlumatlar, Azərbaycanın müqəddəratı, muxtariyyət məsələlərinə dair yazılar verilirdi. "Açıq söz" yalnız dövrün əsas ictimai-siyasi hadisələrini diqqətdə saxlamırdı, iqtisadi, ədəbi-mədəni məsələlər də qəzetin daimi mövzuları sırasında mühüm yer tuturdu.

Qəzetdə dövrün tələblərindən irəli gələn məsələlər daim diqqətdə saxlanılırdı. Dünyanı çənginə almış savaş, mürəkkəb və gərgin ictimai-siyasi vəziyyət sabahını düşünməyə qadir, tərəqqi etməyə səy göstərən millətləri fəal olmağa, məqsədyönlü işlər görməyə sövq edirdi. Məhəmməd Əmin Rəsulzadə "Açıq söz"də yazırdı: "Özləri lüzumunca bilib, istiqbal üçün müəyyən bir ideal (məfkurə) bəsləyən millət, şübhəsiz ki, böyük bir qüvvət təşkil edir... Bu surətdə ayrı-ayrı millətlər, bir millət olaraq yaşaya bilmək üçün, hər şeydən əvvəl, özlərin bilməli, müəyyən fikir və əməllər ətrafında birləşərək, böyük bir məfkurəyə, qayeyi-xəyalə hədəf olacaq yıldıza sahib olmalıdırlar. Çünki müttəhid bir ruh və müştərək bir qayəyə malik olmayan millətlərlə yeni əsaslar üzərində qurulacaq həyat hesablaşmayacaq və böylə silahdan məhrum olan heyətlər kimsəyə söz eşitdirəməyəcəkdir".

1917-ci il fevral burjua inqilabından sonra ictimai-siyasi, ədəbi-mədəni mühitdə, mətbuatda canlanma müşahidə olunmağa başladı. "Açıq söz" də bu canlanmadan geri qalmadı.

Tədqiqatçılar bildiriblər ki, "Açıq söz" Şimali Azərbaycanın bütün bölgələrində, eləcə də Cənubi Azərbaycan, İrəvan, Orta Asiya, Volqaboyu, Dərbənd, Borçalı, Türkiyə və digər yerlərdə yayılıb.

Fəaliyyətinin ilk illərindən ciddi senzura nəzarəti altında olan, təqiblərə məruz qalan, maneələr törədilən "Açıq söz"ün bir sıra sütunları ağ buraxılırdı.

Sovet hakimiyyəti Azərbaycan xalqının milli kimliyini, milli mənlik şüurunu əks etdirmiş, müstəqillik ideyalarının ifadəçisi olmuş bir sıra qəzet və jurnallar kimi, "Açıq söz"ün də geniş tədqiqata cəlb olunmasına, ətraflı araşdırılmasına imkan verməfi. Bu mətbu orqan barədə də səthi məlumat verməklə kifayətlənilir, ya da ondan mürtəce istiqamətli, burjua millətçi ideyalarını təbliğ edən qəzet kimi bəhs olunurdu.

Professor Şirməmməd Hüseynov isə "Milli haqq və ədalət axtarışında" kitabında haqlı olaraq bildirirdi: "Uzun illər dəmir seyflərdə gözdən və tədqiqatdan uzaq saxlanılan, yalnız xüsusi icazə ilə tanış olmaq imkanı verilən "Açıq söz"ün hər bir nömrəsi tariximizin kollektiv yaddaşı, canlı, düşünülmüş və həyat həqiqətlərini doğru və dolğun əks etdirən salnamədir".

XX əsrin sonlarında Azərbaycan xalqı dövlət müstəqilliyinin bərpasına nail oldu. Azərbaycan mətbuatının tarixində, inkişafında mühüm yer tutan, milli kimliyin, azadlıq ideyalarının carçısı olduqları üçün sovet rejiminin doğru, dürüst araşdırılmasının yasaq edildiyi digər qəzet və jurnallar kimi, "Açıq söz"ün də uzun illər sonra Azərbaycan xalqına yenidən tanıdılması zamanı gəldi...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Səhnə xadimləri

# Teatr sənətimizin Məcnunu

**Tamaşaçıların yaddaşında "Qatarda" televiziya tamaşasındakı Fatı, "Yarımştat" tamaşasındakı Murtuz və başqa maraqlı rollarla qalan Məcnun Hacıbəyov 1935-ci il oktyabrın 5-də Quba rayonunun İkinci Nügədi kəndində dünyaya gəlib. Ailədə doqquz uşaq olublar.**



Onun aktyorluq bacarığını hələ uşaq yaşlarından ətrafındakılar hiss etməyə başlayıblar. Ancaq o illərdə Məcnun Hacıbəyov üçün aktyor olmaq, səhnəyə çıxıb müxtəlif rollar oynamaq, tamaşaçıların alqışlarını qazanmaq az qala möcüzə, şirin olduğu qədər də uzaq xəyal idi.

Doğma kəndində orta məktəbi bitirən Məcnun Hacıbəyov tükənməz arzular, sonsuz ümidlərlə yola çıxıb, Sumqayıt şəhərindəki zavodların birində işə düzəlib. Uşaqlıqdan zəhmətə alışmışdı. Odur ki, işdə çətinliyi olmayıb. Şəhər həyatına da alışmağa başlayıb. Amma bir gün gördüyü afişa Məcnun Hacıbəyovu bambaşqa bir aləmə səsləyib...

O gün işdən çıxıb şəhəri gəzirdi. Küçədə asılmış afişaların arasında biri diqqətini cəlb etdi. Afişadan Quba Dövlət Teatrının aktyorlarının tamaşa göstərəcəklərini oxuyub. Qeyd olunmuş gün tamaşaya bilet alıb.

Tamaşaya baxa-baxa xəyala dalıb. Özünü səhnədəki aktyorların yerində görüb. Əmin olub ki, əgər səhnədə olsa, həmin aktyorlardan daha yaxşı oynayar. Bu hiss, düşüncə tamaşadan sonra da onu tərk etməyib. Məcnun Hacıbəyov qətiyyətlə arzularının ardınca getməyə qərar verib. Quba Dövlət Teatrına yollanıb. Teatrın direktoru ilə görüşüb. Ona əvvəlcə özü barədə məlumat verib. Deyib ki, onuncu sinfi bitirib, sonra texniki məktəbdə oxuyub, indi də zavodda işləyir. Amma arzusu aktyor olmaqdır. Direktor Məcnundan səsinin olub-olmadığını xəbər alıb və "Bayatı-Şiraz" oxumasını istəyib. Məcnun Hacıbəyov "Bayatı-Şiraz"ı ifa edib. Direktor onun səsini bəyənib və Quba Dövlət Teatrına aktyor kimi işə götürüb.

Aktyor kimi işə başlayan Məcnun Hacıbəyov günlər keçdikcə bu sənətə, səhnəyə daha da bağlanıb. Amma evlənmək ərəfəsində müvəqqəti də olsa, teatrdan ayırılmalı olub. Çünki çoxları kimi Məcnun Hacıbəyovun gələcək qayınatası da aktyora qız vermək istəməyib. Ancaq Məcnun sevdiyi qızla ailə qurandan sonra yenidən teatra qayıdıb, aktyorluq fəaliyyətini davam etdirib.

Milli Dram Teatrının rejissoru Tofiq Kazımovun gəlişi, Quba teatrında tamaşa hazırlaması gənc aktyor Məcnun Hacıbəyovun həyatının ən unudulmaz xatirələrinə çevrilib. O, görkəmli rejissorun məsləhəti ilə Bakıya gələrək sənədlərini Teatr İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) verib. 1961-ci ildə Teatr İnstitutunun Aktyorluq fakültəsinə daxil olan Məcnun Hacıbəyov Tofiq Kazımov, Adil İsgəndərov kimi böyük sənətkarlardan dərs alıb.

İnstitutda ilk dərs günü müəllimi Tofiq Kazımov üzünü auditoriyaya tutaraq deyib: "Uşaqlar, bu institut aktyor yetişdirmir. Bu institut aktyorluğa gedən cığırı açır. Aktyor səhnədə yetişir. Çalışın yaxşı akyor olun". Məcnun Hacıbəyov müəlliminin bu sözlərini heç zaman yaddan çıxarmır.

O, 1965-ci ildə ali təhsilini başa vurub. Bir çox gənc aktyorun arzusu olan Milli Dram Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı) işə götürülüb. Böyük həvəslə səhnəyə çıxan, ona həvalə edilən rolların öhdəsindən uğurla gələn aktyor teatrda maaş az olduğuna görə on altı il zavodda gecə növbəsində fəhlə işləyib. Və bu barədə heç kimə deməyib.

O, 1989-cu ildə "Əməkdar artist" fəxri adına layiq görülüb. Məcnun Hacıbəyov "Canavar balası", "Evlənmək istəyirəm", "Gənclik macərası", "Göz həkimi", "Gülüş sanatoriyası", "Kişilər", "Qatarda", "Qəzəlxan", "Yarımştat" kimi film və televiziya tamaşalarında yaddaqalan rollar yaradıb. Müxtəlif xarakterli rollar yaradan aktyor müsahibələrində yalnız "Solğun çiçəklər" tamaşasında Əbdül rolunu oynamadığı üçün heyfsləndiyini söyləyib.

Məcnun Hacıbəyovun hər kəsə bəlli olan, etiraf edilən aktyorluq bacarığına, istedadına, təəssüf ki, kinorejissorlar laqeyd yanaşıb, nədənsə onun peşəkarlığını görməyiblər. Ömrünün sonlarında sənətkar özü də bunu həm gileylə, həm də inciklikIə dönə-dönə söyləyib.

Həyatının son illərini dünyaya göz açdığı, boya-başa çatdığı Quba rayonunun İkinci Nügədi kəndində keçirib.

Səksən altı yaşına çatan aktyorun səhhətində problem olmayıb. Məcnun Hacıbəyov 2021-ci il noyabrın 16-da koronavirus xəstəliyindən dünyasını dəyişib. Sənətkar Qubanın İkinci Nügədi kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Moskvada Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans keçiriləcək

**Oktyabrın 31-də Rusiya Teatr Sənəti İnstitutunun (GİTİS) Elmi Kitabxanasında dahi Azərbaycan bəstəkarı, sənətşünas, pedaqoq, maarifçi Üzeyir bəy Hacıbəylinin anadan olmasının 140 illiyinə həsr olunmuş "Xalqın ruhunun səsi..." adlı beynəlxalq konfrans keçiriləcək.**



Tədbir GİTİS-in Üzeyir Hacıbəyli adına Azərbaycan Musiqi Akademiyası ilə birgə "Prioritet 2030" strateji akademik liderlik proqramı çərçivəsində təşkil olunur.

İştirakçılar Üzeyir bəy Hacıbəylinin musiqi mədəniyyətinin inkişafına verdiyi töhfə, onun islahatçı ideyalarını və Azərbaycan, sovet və dünya musiqi sənətinə təsirini müzakirə edəcəklər.

Konfrans bu mövzuları əhatə edəcək: Azərbaycan xalq musiqi mədəniyyəti Üzeyir bəy Hacıbəyli yaradıcılığının əsası kimi; onun əsərlərində Azərbaycan xalq musiqisi ilə Avropa ənənəsinin qarşılıqlı əlaqəsi; bəstəkarın ilk milli opera truppasının və Azərbaycan opera məktəbinin banisi kimi rolu; Üzeyir bəy Hacıbəylinin Azərbaycan musiqi təhsilinin banisi kimi əhəmiyyəti; bəstəkarın irsi və musiqili teatrın inkişafı.

Konfransda Azərbaycan və Rusiyadan nümayəndələr, tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqişünaslar, müəllimlər, tədqiqatçılar iştirak edəcəklər.

Konfrans əyani və onlayn formatlarda keçiriləcək.

*Fəridə Abdullayeva,*
*AZƏRTAC*

## "Şükriyyə" tamaşası Gürcüstanda nümayiş etdirilib

**Yazıçı Cavid Zeynallının eyniadlı əsəri əsasında hazırlanmış "Şükriyyə" tamaşası Gürcüstanın Şota Rustaveli adına Milli Dram Teatrının böyük səhnəsində tamaşaçılara təqdim olunub.**



Səhnə əsəri Akademik Milli Dram Teatrının Tbilisiyə Azərbaycan və Gürcüstanın Mədəniyyət nazirliklərinin dəstəyi ilə qastrol səfəri çərçivəsində nümayiş etdirilib.

Gürcü dilində subtitrlərlə göstərilən tamaşanı Azərbaycanın Gürcüstandakı səfirliyinin nümayəndələri, Gürcüstanın mədəniyyət nazirinin müavini Giorgi Mirtsxulava, Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri Hacı İsmayılov, azərbaycanlı icmanın üzvləri, mədəniyyət xadimləri, ziyalılar, Gürcüstanın Robert Sturua, Davit Uplisaşvili kimi tanınmış teatr xadimləri izləyiblər.

Azərbaycanın istiqlal şairi Əhməd Cavadın həyat yoldaşı Şükriyyə Axundzadənin Qazaxıstandakı sürgün həyatından bəhs edən səhnə əsəri maraqla və alqışlarla qarşılanıb.

Nümayiş çərçivəsində teatrın foyesində Azərbaycan teatrının tarixini əks etdirən fotolar da sərgilənib.

Qeyd edək ki, yazıçı Cavid Zeynallının eyniadlı pyesi əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Bəhram Osmanovdur.

Tamaşada Əməkdar artist Münəvvər Əliyeva (Şükriyyə), Xalq artisti Nurəddin Mehdixanlı (Fyodor Alekseyeviç), Xalq artisti Əli Nur (Süleyman bəy), Əməkdar artistlər Mehriban Xanlarova (Zöhrə), Vəfa Rzayeva (Mariya), aktyorlar Afət Məmmədova (Tamar), Rada Nəsibova (Lola), Ləman İmanova (Suğra), Əməkdar artist Şəlalə Şahvələdqızı (qadın müstəntiq), aktrisa Dilarə Nəzərova (Olqa), aktyor Rüstəm Rüstəmov (nəzarətçi), aktrisalar Aylin Həşimova (Lali), Lalə Süleymanova (Nino), Nəzrin Abdullayeva (Ayçiçək), aktyorlar Elsevər Rəhimov və Tural İbrahimov (nəzarətçilər) çıxış ediblər.






# Gənclik






Gələcəyə dəstək

# Bakıdan Qərbi Papuaya uzanan yol

**Azərbaycanda təhsilin inkişafı və peşəkar kadrların yetişdirilməsi dövlət siyasətinin mühüm strateji prioritetlərindəndir. Bu istiqamətdə normativ hüquqi bazanın təkmilləşdirilməsi, dövlət proqramlarının uğurla icra olunması, kadr islahatları və digər addımlar cəmiyyətin ən dinamik təbəqəsi olan gənclərin inkişafı, onların həm cəmiyyət həyatının müxtəlif sahələrində fəal iştirakı, həm də ölkəni beynəlxalq müstəvidə layiqincə təmsil etməsi baxımından böyük əhəmiyyətə malikdir.**



Bu günədək müvəffəqiyyətlə icra olunan və hazırda da icrası davam etdirilən Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət proqramları qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından istifadə edərək yeni nəsil mütəxəssislərin yetişdirilməsi və insan kapitalının inkişafı baxımından böyük önəm daşıyır. Bu proqramlardan yararlanan Azərbaycan gəncləri uğurlu karyera yolu qət edərək müxtəlif ölkələrdə səmərəli fəaliyyət göstərirlər.



"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində təhsil alan gənclərdən biri də Sərxan Bayramlıdır. Bakıda həkim ailəsində doğulan, Böyük Britaniyada təhsil alan Sərxan Bayramlının da karyera yolu Çinin nəhəng sənaye zavodlarına, Londondan Melburna, Batam adasından Cakarta və Qərbi Papuaya qədər uzanıb. Hazırda o, 7 milyard dollarlıq BP "Tangguh UCC" layihəsində quru terminalının tikinti rəhbəri kimi çalışır. Ən əsası, S.Bayramlı bu layihədə yeganə azərbaycanlıdır.

"2011-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olundum, ixtisasım Geologiya mühəndisliyi idi. Amma bir ildən sonra təhsilə xaricdə davam etmək qərarı verdim. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Böyük Britaniyada, Nyukasl Universitetində Dəniz texnologiyası və mühəndisliyi ixtisası üzrə təhsil aldım. Bu, mənim üçün çox böyük təməl oldu və beynəlxalq müstəvidə karyera inkişafına yol açdı" deyən S.Bayramlı bildirdi ki, ilk olaraq "Şahdəniz-2" layihəsində quru tikililərində mühəndis kimi işləməyə başlayıb, ardınca isə "Azəri-Mərkəzi-Şərqi" layihəsində polad konstruksiyaların istehsalı və quraşdırılmasına rəhbərlik edib.

2018-ci ildə Şanxaya göndərilən və "Greater Tortue Ahmeyim" (GTA) layihəsi çərçivəsində üzən hasilat, saxlama və boşaltma qurğusunun texnoloji təchizat üst modulları tikintisinə və quraşdırılmasına rəhbərlik edən Sərxan Bayramlı qeyd edir ki, bu, olduqca mürəkkəb iş idi: "Gənc idim, cəmi 27 yaşım vardı. Amma işin həcmi və məsuliyyəti o qədər böyük idi ki, mənim üçün həm məktəb, həm də imtahan oldu. Layihəni uğurla başa vurduq və bu, mənim karyeramda dönüş nöqtəsi idi".

O, Çindən sonra Londona göndərilib və bir il boyunca orada çalışaraq GTA layihəsinin iş sahələrinə dəstək verib: "Qısamüddətli ezamiyyətlər məni Avstraliyanın Melburnuna və İndoneziyanın Batam adasına apardı. Mən burada sualtı konstruksiyaların hazırlanmasına nəzarət etdim. Hər ölkə yeni mədəniyyət, yeni dərs və yeni baxış demək idi. 2023-cü ildə isə mən yeni layihə üçün İndoneziyaya ezam olundum. BP-də hər zaman olduğu kimi, şəffaf seçim prosesi nəticəsində 2023-cü ildə dəyəri 7 milyard dollar olan İndoneziyadakı Ubadari Karbon Tutulma və Saxlama layihəsinin quru tikililərinə tikinti rəhbəri vəzifəsinə seçildim. Əvvəlcə Cakartada layihənin ilkin mühəndislik dizaynı mərhələsində çalışdım, hazırda isə Qərbi Papuadakı tikintiyə rəhbərlik edirəm. UCC layihəsi Ubadari qaz yatağının işlənməsini, karbonun tutulması, istifadəsi və saxlanması vasitəsilə təkmilləşdirilmiş qaz hasilatını və quruda sıxılmanı əhatə edir və İndoneziya hökuməti tərəfindən milli strateji layihə kimi təyin olunub".

S.Bayramlı deyir ki, BP-də keçirdiyi 10 il ərzində həm yerli, həm də xarici mütəxəssislərin dəstəyi və bilikləri sayəsində səmərəli inkişaf yolu keçib: "BP hər bir əməkdaşının inkişafına xüsusi önəm verir və onların peşəkar potensialını reallaşdırmaları üçün geniş imkanlar yaradır. Ümumilikdə isə, 10 illik karyeramda mən bunu öyrəndim ki, məsuliyyət yaşdan asılı deyil. 27 yaşında nəhəng layihədə tikintiyə rəhbərlik edəndə anladım ki, əsas olan cəsarət, inam və əzmkarlıqdır. Karyera fəaliyyətimdə çox qürurverici anlarım olub. Amma xüsusi olaraq bir məqamı qeyd etməliyəm: 2018-ci ildə Xəzər Neft və Qaz sərgisində stendə baxış zamanı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşmək mənim üçün müstəsna önəm daşıyan unudulmaz an oldu. Bu, mənə həm motivasiya verdi, həm də böyük məsuliyyət demək idi. Uğur anlayışı mənim üçün yalnız layihəni müvəffəqiyyətlə başa vurmaq deyil, ən əsası, Azərbaycanın adını dünyada ləyaqətlə təmsil etməkdir".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Uğura imza atanlar

# Müasir ədəbiyyatın gənc tədqiqatçısı

**Cəmiyyətin aparıcı qüvvəsi olan gənclər daim yenilik axtarışındadırlar. Dövlətimiz də onların sağlam, ölkəyə, xalqa layiqli vətəndaş kimi yetişmələri üçün hər cür şərait yaradır. Çünki sağlam gənclik sağlam nəsil, sağlam gələcək deməkdir.**



Prezident İlham Əliyevin gənclərimiz haqqında dediyi bu sözlər çox qürurvericidir. "Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər. Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik".

Doğma vətəninə ürəkdən bağlı olan Azərbaycan gəncliyi bütün sahələrdə uğur qazanmağa çalışır. Belə fəal, çalışqan gənclərimizdən biri də Nəzrin Əliyevadır. Bu gənc xanım elm adamıdır - ədəbiyyatçıdır. Yaşı az olsa da, çalışdığı sahədə xeyli uğurlar əldə edib.

Qazandığı uğurlardan söhbət açmazdan əvvəl onun ömür yoluna nəzər salaq. 1999-cu il yanvarın 11-də Bakıda dünyaya göz açan Nəzrin 2016-cı ildə Masallı şəhər Rafiq Əlihəsənov adına 1 nömrəli tam orta məktəbi yüksək göstəricilərlə bitirib. Kiçik yaşlarından ədəbiyyata böyük maraq göstərib. Dünyaca məşhur olan şair və yazıçıların həyatını, yaradıcılığını öyrənib. Oxuduğu kitablar onun bu sahəyə olan maraq və həvəsini artırıb. O üzdən orta təhsilini uğurla başa vurduqdan sonra arzularının ardınca ali məktəbə üz tutub. Sınaqlardan uğurla keçərək Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə qəbul olub. Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə bakalavr təhsili alıb. 2020-ci ildə ali təhsilini bitirərək Masallının Ərkivan qəsəbəsindəki 3 nömrəli orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib. Azərbaycan ədəbiyyatını və dilini sevə-sevə şagirdlərə öyrədib. Bir il sonra - 2021-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq (türk xalqları ədəbiyyatı) ixtisası üzrə magistratura pilləsinə qəbul olub. Təhsil aldığı illər ərzində bir sıra müxtəlif beynəlxalq və respublika elmi konfranslarında iştirak edib və bu tədbirlər onun təcrübə və biliklərini daha da artırıb. Bundan başqa, Nəzrin xanım elmi jurnallara müxtəlif mövzularda məqalələr yazıb.

Onun üçün 2023-cü il düşərli olub. Həmin il Nəzrin xanım filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənlinin rəhbərliyi ilə "1970-ci illər qırğız və Azərbaycan nəsrində arxetiplər (Çingiz Aytmatov və Mövlud Süleymanlı yaradıcılığı əsasında)" adlı dissertasiya işini müdafiə edərək magistratura təhsilini qırmızı diplomla başa vurub. Gənc filoloq həmin ildən AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda türk xalqları ədəbiyyatı üzrə dissertantdır. O həmçinin institutun direktorunun köməkçisidir.

Bacarığı, işgüzarlığı və elmi bilikləri sayəsində Nəzrin xanım 2024-cü ildə də bir sıra yaddaqalan uğurlar əldə edib. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Polşanın Bialystok Universiteti arasında təşkil olunmuş "Erasmus+" proqramı çərçivəsində tələbə mübadiləsi proqramında iştirak etmək hüququ qazanan Nəzrin mədəniyyətlərarası və elmi əlaqələrin daha da gücləndirilməsi məqsədilə təşkil olunan tələbə mübadiləsi proqramı çərçivəsində universitetin Filologiya fakültəsində 5 aylıq təhsil alma imkanı əldə edib.

Nəzrin xanım bir gün də olsun elmi və yaradıcılıq işlərindən qalmır. Daim çalışır, araşdırmalar aparır. Gənc alim hazırda "XXI əsr qazax və Azərbaycan romanlarında bədii məkan və zaman problemi" mövzusunda fəlsəfə doktorluğu dissertasiyası üzərində işləyir. Onu qeyd edək ki, bu mövzu müasir roman poetikasının dərkində mühüm əhəmiyyət daşıyır. Çünki məkan və zaman anlayışları yalnız bədii təsvir elementləri deyil, həm də insanın varlıq duyumunu, milli kimliyini və tarixi yaddaşını formalaşdıran əsas göstəricilərdir. Gənc alim deyir ki, müasir Qazaxıstan və Azərbaycan romanlarında məkan təkcə coğrafi anlayış kimi deyil, həm də ictimai-siyasi transformasiyaların, mədəni yaddaşın ifadəsi kimi təqdim olunur: "Zaman isə bu məkanların yaddaşla, keçmişlə və gələcəklə bağlı olan ilmələrini açır. Bu baxımdan romanlarda məkan və zaman strukturunun tədqiqi həm nəzəri baxımdan həm də milli ədəbiyyatların tipoloji müqayisəsi üçün geniş imkanlar yaradır. Mövzunun əhəmiyyəti həm də ondadır ki, Azərbaycan və Qazax ədəbiyyatlarında XXI əsrdə yazılmış əsərlər bir çox halda qlobalizm, miqrasiya, identiklik böhranı, yaddaş siyasəti kimi problemlərə toxunur. Bu problemlərin bədii məkan və zaman vasitəsilə necə təqdim olunması müasir insanın dünyagörüşü, milli kimlik axtarışları və postsovet məkanında ədəbiyyatın rolu haqqında yeni nəticələr çıxarmağa imkan verir. Tədqiqatın nəticələri yalnız nəzəri ədəbiyyatşünaslıq üçün yox, həmçinin müqayisəli ədəbiyyat, mədəniyyətlərarası dialoq və regionun ədəbi inteqrasiyası baxımından böyük əhəmiyyət kəsb edir".

İnanırıq ki, gənc alim Nəzrin Əliyeva araşdırdığı elmi işləri ilə ədəbiyyatımıza yeni töhfələr verəcək, Azərbaycan və Qazaxıstan ədəbiyyatı arasında möhkəm təməllərə söykənən körpü quracaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Ölməzliyə qovuşanlar

# Vətən müharibəsi şəhidləri ehtiramla yad edilmişlər



**Daşkəsəndə Vətən müharibəsi şəhidləri - gizir Novruz İsmayılov və kiçik gizir Şəhriyar Abdullayevin xatirələri ehtiramla yad edilib.**

Daşkəsən Rayon İcra Hakimiyyəti və hüquq-mühafizə orqanları rəhbərlərinin, şəhidlərin ailə üzvlərinin, müharibə veteranlarının, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə çıxış edən RİH-in başçısı Orxan Abbasov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan şanlı Zəfərin tarixi əhəmiyyətindən danışmış, şəhid ailələrinə, qazilərə göstərilən diqqət və qayğıdan söhbət açmışdır.

Anım mərasimində qeyd edilmişdir ki, Novruz İsmayılov 1987-ci il oktyabrın 13-də Daşkəsənin Zinzahal kəndində anadan olmuşdur. Vətən müharibəsində Xocavəndin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərən gizir N.İsmayılov 2020-ci il oktyabrın 30-da Füzuli uğrunda gedən döyüşlər zamanı müqəddəs şəhidlik zirvəsinə ucalmışdır. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və hərbi xidmətdə xüsusi xidmətlərinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir. Qız övladı yadigar qalıb.

Şəhriyar Abdullayev isə 1987-ci il martın 2-də Tərtərin Cəmilli kəndində anadan olmuşdur. Azərbaycan Ordusunun kiçik giziri idi. Cəbrayılın, Kəlbəcərin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə nümunə göstərən Ş.Abdullayev 2020-ci il oktyabrın 13-də Hadrut döyüşləri zamanı şəhid olmuşdur. 50-yə yaxın düşmən döyüşçüsünü məhv edən Şəhriyar Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Abşeronlu şəhid qəhrəmanlar anılıb

**Vətən müharibəsinin 5-ci ildönümü günlərində şəhidlik zirvəsinə ucalan, göstərdikləri şücaət və qəhrəmanlıqlarına görə orden və medallarla təltif olunan igidlərimizin anım günləri Abşeron rayonunda da qeyd edilir.**



Bu günlər rayon rəhbərliyi və ictimaiyyətin nümayəndələri şəhid ailələri və qazilərlə birgə şəhidlər - Hətəmxan Quliyev, Rahid Sadıqov, Şamil Nəcəfov, Asif Ataşov, Ülvi Rəhimov, Tofiq Həsənov, Ceyhun Useynov, Turqut Xəlilbəyli, Tərlan Məmmədov, Elnur Rütəmovun, o cümlədən Vətən Müharibəsi Qəhrəmanı Veysəl Musibovun məzarlarını ziyarət etmişlər. Çıxış edənlər Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi qələbədən, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən misilsiz abadlıq-quruculuq işlərindən danışmış, şəhid ailələrinə və qazilərə göstərilən böyük diqqət və qayğıdan söz açmışlar.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Şəhid övladı: "İfa etdiyim hər bir musiqi parçası atama sevginin, qəhrəmanlığın və Vətən eşqinin ifadəsidir"

**Musiqi bəzən insana həyatın ən ağır anlarında belə təsəlli verir. Süleyman Ramaldanov üçün musiqi yalnız məşğuliyyət deyil, həm də atasının xatirəsini yaşadan, onu gələcəyə bağlayan ümid işığıdır.**



Gənc ifaçı AZƏRTAC-ın müxbiri ilə söhbətində bu sahədə qazandığı uğurlardan, gələcək planlarından və bu sahəyə gəlişindən danışıb.

Süleymanın musiqiyə gəlişi təsadüf olmayıb. Böyük qardaşının uğurlu çıxışları onun da qəlbində ifaçılığa maraq oyadıb. "Atam istedadımı görəndə məni 34 nömrəli Uşaq Musiqi Məktəbində fortepiano üzrə təhsilə yönəltdi. Artıq 7 illik təhsilin altı ilini başa vurmuşam. Müəllimim, fortepiano şöbəsinin müdiri Afət Məmmədovanın üzərimdə əziyyəti böyükdür", - deyə Süleyman əlavə edib.

Müxtəlif tədbirlərdə, məkanlarda çıxış etsə də, Şuşadakı təqdimatı həyatında unudulmaz iz buraxıb. Qala şəhərdə şəhid övladlarının düşərgəsində, Xan qızı Natəvanın bağında "Qaytağı" rəqsini ifa etməsi və solist kimi çıxışı gənc musiqiçiyə fəxarət hissi yaşadıb. Bu, təkcə ifa deyil, həm də musiqinin azad edilmiş torpaqlarda yenidən səslənməsi idi.

Süleyman artıq respublika səviyyəsində uğurlar qazanmış gənc ifaçı kimi tanınır. O, İkinci Respublika "Akademik, xalq və caz musiqisi" müsabiqəsinin laureatı adını qazanıb. Uğurlarına baxmayaraq, musiqi onun üçün həyat tərzidir. Gələcəkdə bu sahəni davam etdirməklə yanaşı, həm də ən böyük arzusu atası kimi hərbçi olmaqdır.

Atası polkovnik-leytenant Babək Ramaldanov 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb. Bu itki ailənin həyatında silinməz iz buraxıb. "Atam şəhid olduqdan sonra musiqiyə davam etmək istəmirdim. Hər şey mənasız görünürdü. Amma sonra anladım ki, bu, atamın arzusu idi. O, mənim musiqi ilə məşğul olmağımı istəyirdi. Ona görə də davam etdim", - deyə Süleyman ürək sözlərini bölüşüb.

Şəhid Babək Ramaldanov 1982-ci il avqustun 9-da Bakı şəhərində anadan olub. O, əslən Qusar rayonundandır. Orta təhsilini 1989-1997-ci illərdə Xətai rayonunda yerləşən 59 nömrəli məktəbdə alıb, daha sonra 1997-2000-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2000-2004-cü illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib.

O həmçinin 2017-2019-cu illərdə Rusiya Silahlı Qüvvələrinin Ümumqoşun Akademiyasında ali hərbi təhsil alaraq peşəkar zabit kimi yetişib. Babək Ramaldanovun dayısı, Qarabağ müharibəsinin qazisi və Azərbaycan Silahlı Qüvvələrinin zabiti Şair Ramaldanov ailənin igidlik ənənələrinin davamçısıdır.

2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində polkovnik-leytenant Babək Ramaldanov Cəbrayıl və Füzuli istiqamətlərində gedən ağır döyüşlərdə iştirak edib. Oktyabrın 16-da Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. O, Bakıda, II Şəhidlər xiyabanında dəfn edilib. Oğulları Ramaldan və Süleyman onun əziz xatirəsini yaşadırlar.

Prezident İlham Əliyevin sərəncamları ilə Babək Ramaldanov "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Bu gün Süleyman atasının yarımçıq qalmış arzularını yaşadır, həm musiqi, həm də gələcəkdə hərbi sahədə atasının yolunu şərəflə davam etdirmək istəyir.

"İfa etdiyim hər bir musiqi parçası atama sevginin, qəhrəmanlığın və Vətən eşqinin ifadəsidir" deyir həmsöhbətimiz.

Jurnalist araşdırması

# Gələcəyin qaranlıq başlanğıcı

## Erkən nikahlar təkcə fərdi taleləri deyil, bütöv cəmiyyətin inkişafını əngəlləyir

**"16 yaşım vardı nikaha daxil olanda. Nişanlım məndən 9 yaş böyük idi. Toya qədər cəmi bircə dəfə görmüşdüm. O da valideynləri, qohumları bizə elçi gələndə. Həyətdə qardaşlarımla söhbət edirdi. Nə qədər istəmirəm desəm də, günlərlə ağlasam da, atam fikrindən dönmədi. Deyirdi ki, boş-boş evdə oturana qədər get ailəni qur, öz evin olsun. Evdə oturmağı özüm seçmişəm kimi... Atam qardaşlarımla bir olub məni 9-cu sinifdə məktəbdən çıxartdılar, təhsilimi davam etməyə qoymadılar. Dərslərimi yaxşı oxuyurdum, həkim olmaq istəyirdim. Müəllimlərim, məktəb direktorumuz nə qədər desələr də, atama kar eləmədi. İndi 23 yaşındayam. İki qızım, bir oğlum var. Evli olduğum müddətdə eşitmədiyim təhqir, görmədiyim şiddət qalmadı. Daha dözə bilmədim, ötən il boşandım. Atamın baxışlarından peşman olduğunu görürəm. Amma bir ömrü məhv eləmiş addımın peşmanlığından nə fayda. Anamdan isə, ümumiyyətlə, incimirəm. Həmişə tərəfimdə olsa da, heç nə edə bilmirdi. Evdə onun söz haqqı yox idi. Heç vaxt olmamışdı da. Taleyi taleyimə bənzəyirdi. Amma mən bu zənciri qırdım. Övladlarım mənim yaşadığımı yaşamayacaq. Onların yaxşı təhsil alması, Vətənə xeyirli övlad olmaqları üçün var gücümlə mübarizə aparacağam", - deyir C.Günay.**

Biz birini dinlədik, gördük. Amma onlar yüzlərlə, minlərlədir. Erkən nikahlar bu gün də cəmiyyətimizin qanayan yaralarından biri olaraq qalır. Bu problem təkcə fərdi taleləri deyil, bütöv cəmiyyətin inkişafını da əngəlləyir. Qız uşaqlarının uşaq yaşda ərə verilməsi onların təhsildən, sağlamlıqdan və şəxsi inkişafdan məhrum qalması ilə nəticələnir.

### Hər il dünyada 12 milyon qız uşağı 18 yaşına çatmamış evliliyə məcbur edilir



Erkən nikahlar gender zorakılığının ən dağıdıcı formalarından biri hesab edilir. BMT-nin məlumatına görə, hər il dünyada 12 milyon qız uşağı 18 yaşına çatmamış evliliyə məcbur edilir, onlardan 2 milyonu isə hətta 15 yaşından əvvəl ərə verilir. Bu problem dünya üzrə hər beş qızdan birinə təsir göstərir. Təşkilatın hesablamalarına görə, indiyə qədər uşaq nikahlarının azaldılması sahəsində əldə olunan irəliləyişə baxmayaraq, problemin tam aradan qaldırılması üçün hələ 300 il lazım olacaq. Uşaq nikahlarının sayının azalmasında ən böyük irəliləyiş Cənubi Asiyada müşahidə olunub, lakin ən çox hal da məhz burada baş verir. 18 yaşına çatmamış ərə verilən qız və qadınların təxminən 45 faizi burada yaşayır, onların üçdəbiri isə Hindistanın payına düşür.

Son illər gender zorakılığının aradan qaldırılması istiqamətində əldə edilən irəliləyiş ciddi təhlükə altına düşüb. Yoxsulluğun artması, silahlı münaqişələr və iqlim böhranı milyonlarla qız uşağını daha həssas vəziyyətə salır. Üstəlik, böhran dövrlərində gender zorakılığı artır, ailələr qızlarını məktəbə göndərməkdən imtina edir və ya onları evləndirməyə üstünlük verirlər. Azərbaycanda da bu problem bəzi bölgələrdə özünü daha qabarıq göstərir. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə görə nikah yaşı 18 olsa da, bir çox hallarda erkən nikahlar rəsmi qeydiyyata alınmır, sadəcə dini kəbinlə kifayətlənilir. Bu isə qızların hüquqlarının qorunmasını çətinləşdirir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən sorğumuza cavab olaraq bildirilib ki, erkən nikah problemi yalnız uşaqların hüquqlarına deyil, bütövlükdə ailələrin rifahına, cəmiyyətin sosial sabitliyinə və ölkənin gələcək inkişaf potensialına ciddi şəkildə zərər vurur. Rəsmi statistik göstəricilərdə azalma müşahidə olunsa da, bu problemin tamamilə öz həllini tapdığını demək olmaz. Dövlət Komitəsində erkən nikahla bağlı 2023-cü ildə "Tibb müəssisələrindən kənarda baş verən doğuş faktlarına nəzarətin gücləndirilməsi, belə faktlar əsasında uşaq evliliklərinin aşkarlanması" mövzusunda analitik araşdırma aparılıb, həmçinin hazırda "Erkən nikahın inzibati ərazi bölgüsü üzrə risk xəritəsinin formalaşdırılması"na dair təhlilin aparılması üzərində iş gedir.

Məlumatda qeyd edilib ki, öz səlahiyyətləri daxilində komitə tərəfindən mütəmadi olaraq ölkə üzrə maarifləndirmə tədbirləri keçirilir, xüsusilə qız uşaqlarının təhsildən yayınması kimi problemlər aidiyyəti qurumlarla birgə araşdırılır. Komitənin bir sıra rayonlarda Uşaq və Ailələrə Dəstək Mərkəzləri fəaliyyət göstərir və regionlarda bu və digər problemlər baş verən zaman aidiyyəti orqanlarla birlikdə əməkdaşlıq çərçivəsində məsələ araşdırılır. Dövlət Komitəsi tərəfindən uşaq hüquqlarının qorunması, uşaq iştirakçılığının artırılması, cəmiyyətdə baş verən mənfi hallardan onların müdafiəsi, erkən nikah və uşaqlara qarşı zorakılıq hallarının qarşısının alınması və digər istiqamətlər üzrə təlimlər, seminarlar və konfranslar, monitorinq və ailə səfərləri təşkil edilir, ailələr və uşaqlarla profilaktik iş aparılır.

Dövlət Komitəsinin 860 "Gender əsaslı zorakılıqla bağlı" dəstək xətti və 116111 "Uşaq Qaynar Xətti" fəaliyyətini davam etdirir və bütün müraciətlərə dərhal reaksiya verilir. Vətəndaşlardan daxil olan müraciətlər əsasında hüquqi və psixoloji yardım göstərilir, təcili müdaxilə hallarında müvafiq orqanlarla koordinasiya təmin olunur. Komitənin layihəsi əsasında artıq 5 ildir ki, Uşaq Səfirlər Məclisi fəaliyyət göstərir. Məclisin Azərbaycanın bütün bölgələrini əhatə edən nümayəndələri və fəalları var. Onların vasitəsilə ən ucqar rayonlarda, kəndlərdə belə uşaqlara əlçatanlıq mövcud olur. Məclisin nümayəndələri vasitəsilə ölkə üzrə bütün uşaqlar maarifləndirilir, həmçinin uşaq hüquqlarının pozulması faktları ilə bağlı məclisin nümayəndələri tərəfindən məlumat daxil olduqda, aidiyyəti qurumlarla birgə dərhal araşdırma aparılaraq tədbirlər görülür".

Erkən evlilik hallarına yol verilməsinin qarşısını almaq, uşaqların və gənclərin hüquqlarını müdafiə etmək, habelə qohum nikahlarından qaynaqlanan genetik və sosial risklərin qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilərək 1 iyul 2025-ci il tarixindən qüvvəyə minib. Dəyişikliklərə əsasən, nikah yaşının azaldılması ilə bağlı istisna ləğv edilib, yaxın qohumlarla nikahın bağlanması qadağan olunub. Həmçinin yetkinlik yaşına çatmayanları erkən nikaha məcbur edən şəxs müvafiq qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunur. Qanunvericiliyə edilən bu dəyişikliklər erkən evlilik və qohum nikahlarına qarşı effektiv addım olaraq cəmiyyətin sağlam gələcəyi üçün müstəsna əhəmiyyətə malikdir, gələcək nəsillərin sağlam formalaşmasına xidmət edir. Bu qanunvericilik dəyişiklikləri yalnız hüquqi müstəvidə deyil, həm də ictimai məsuliyyət və maarifləndirmə baxımından mühüm əhəmiyyət daşıyır. Erkən nikahlarla mübarizə gələcək nəslin sağlam və təhlükəsiz formalaşması ilə yanaşı, cəmiyyətin dayanıqlı inkişafı baxımından da strateji əhəmiyyət kəsb edir.

### Fərd kimi formalaşmadan valideyn və ya ailə başçısı roluna daxil olurlar

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmovun sözlərinə görə, erkən nikahların əsas səbəbləri sosial, iqtisadi, mədəni və psixoloji amillərin kəsişməsində yaranır: "Azərbaycanda bu hallar daha çox ənənə, mentalitet, təhsilsizlik və namus anlayışı ilə əlaqələndirilir. Əsasən kənd yerlərində və bəzi şəhərətrafı bölgələrdə qız uşaqlarının tez ərə verilməsi uzun illərdən bəri formalaşmış ənənəvi dəyərlərlə izah olunur. "Qız uşağının evdə çox qalması ayıbdır", "Bir an əvvəl ərə getsin" kimi düşüncələr hələ də bəzi ailələrdə üstünlük təşkil edir. Təhsil səviyyəsinin aşağı olması və ailələrin erkən nikahın fəsadları barədə maariflənməməsi bu problemin davam etməsinə şərait yaradır. Əgər qızlar təhsildən kənar qalırsa, valideynlər tezliklə onların ailə həyatı qurmasını çıxış yolu kimi qəbul edirlər. Bəzən iqtisadi sıxıntı yaşayan ailələr də erkən nikahı maddi yükdən qurtuluş vasitəsi kimi görürlər. Qızlarını daha "təminatlı" bir ailəyə ərə vermək arzusu ilə onların taleyini riskə atırlar. Bəzi ailələr yeniyetmə qızlarının gələcəkdə "nə isə baş verə bilər" qorxusu ilə erkən ailə qurmasına çalışırlar. Bu, xüsusilə patriarxal düşüncə tərzi üstün olan bölgələrdə "namusu qorumaq" adı altında aparılan sosial nəzarətin nəticəsidir".

Psixoloq qeyd edib ki, erkən nikahla bağlı ən böyük problem, onun insan hüquqlarını və uşağın psixoloji-fiziki inkişafını pozmasıdır. Bu, təhsildən məhrum etməklə yanaşı, yeniyetmənin müstəqil qərarvermə hüququnun əlindən alınması, gələcək karyera və sosial həyat imkanlarının məhdudlaşdırılması deməkdir. Cəmiyyətin bu məsələyə münasibəti isə problemin miqyasına birbaşa təsir edir. Əgər ictimai qınaq zəifdirsə, erkən nikahlar adi hal kimi qəbul edilir. Təəssüf ki, bəzi bölgələrdə bu cür hallar hələ də sakit qarşılanır. Cəmiyyətin müəyyən hissəsində bu məsələyə laqeyd münasibət erkən nikahların gizli və qeydiyyatsız formada davam etməsinə şərait yaradır.

Erkən yaşda ailə quran şəxslərdə geniş spektrdə psixoloji çətinliklər müşahidə olunur. Elnur Rüstəmov deyib ki, yeniyetmə yaşda evlənənlərdə əhval dəyişkənliyi, depressiya, daimi narahatlıq və özünü dəyərsiz hiss etmə halları geniş yayılıb: "Bu yaş dövrü insanın kimlik axtarışı ilə müşayiət olunur. Erkən evlilik bu axtarışa son qoyaraq şəxsin gələcək inkişafını məhdudlaşdırır. Onlar bir fərd kimi formalaşmadan valideyn və ya ailə başçısı roluna daxil olurlar. Məcburi erkən nikaha məruz qalan uşaqlar travma yaşayırlar. Onlarda özgüvən əskikliyi, sosial izolyasiya və intihara meyillilik müşahidə oluna bilər. Bu travmalar uzun illər insanın həyatına təsir göstərir, münasibət qurmaq və ailə idarə etmək bacarığını zədələyir. Yeniyetmələrin öz istəyilə erkən nikaha daxil olması da bu riski dəyişmir. Çünki bu yaşda insan emosional və intellektual cəhətdən hələ yetkin qərarvermə qabiliyyətinə malik olmur. Erkən nikahların qadınlar üzərindəki təsiri daha dərin və dağıdıcıdır. Qızlar təhsildən yayınır, iqtisadi asılı vəziyyətə düşür, kiçik yaşda ana olurlar. Bu proses onların həm fiziki, həm də psixoloji sağlamlığını zəiflədir. Oğlanlarda isə erkən yaşda ailə başçısı olmaq məsuliyyəti əlavə stres yaratsa da, onların hüquqları və inkişaf imkanları, adətən, daha az məhdudlaşdırılır".

Psixoloqun sözlərinə görə, erkən nikahların qarşısının alınması üçün sistemli və çoxşaxəli yanaşmalar tələb olunur. Xüsusilə regionlarda psixoloqlar, sosial işçilər və müəllimlər bu prosesə cəlb olunmalıdırlar. Erkən nikahın fəsadları haqqında yuxarı sinif şagirdləri üçün interaktiv seminarlar, rollu oyunlar, videomateriallar və psixoloji biliklərə əsaslanan dərslər keçirilməlidir. Bu yanaşmaların birgə tətbiqi erkən nikah hallarının azalmasına, ailələrin və cəmiyyətin bu məsələyə daha həssas və məsuliyyətli yanaşmasına gətirib çıxara bilər.

Erkən nikahlar yalnız bir fərdin deyil, bütövlükdə cəmiyyətin rifahına və inkişafına təsir edən strateji məsələdir. Hər birimizin borcu bu problemi görmək, danışmaq və qarşısını almaq üçün mübarizə aparmaqdır. Yalnız o zaman gələcək nəsillər daha azad, savadlı və sağlam bir cəmiyyətin təməlini qura bilərlər.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*



Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 17.10.2025-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə imkanı təmin ediləcəkdir.


# Dünyada 700 milyona yaxın insan aclıqla üzləşib

## Qlobal miqyasda 2,6 milyard insan adekvat və sağlam qidadan məhrumdur





**Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, ötən ilin sonuna qədər dünyada təxminən 673 milyon insan aclıqla üzləşib.**

Hər il oktyabrın 16-da qeyd edilən Dünya Ərzaq Günü sağlam qidadan məhrum olan, təhlükəsiz ərzaq mallarına çıxışı məhdudlaşmış milyonlarla insanın aclıq probleminə diqqəti yönəldir. FAO 80 illik yubileyini Romada xüsusi Ərzaq və Kənd Təsərrüfatı Muzeyinin açılışı ilə qeyd edir. Muzey oktyabrın 16-da ilk ziyarətçilərini qarşılayacaq və qlobal qida və kənd təsərrüfatı sistemlərində ənənələri və yenilikləri nümayiş etdirən interaktiv eksponatlar təqdim edəcək.

Dünya Ərzaq Gününün builki mövzusu "Daha yaxşı qidalanma, daha yaxşı gələcək üçün birlikdə" adlanır. Proqnozlara əsasən, 2024-cü ildə dünya üzrə təxminən 2,6 milyard insanın adekvat və sağlam qidaya çıxışı olmayıb. Bu, artan piylənmə və geniş yayılmış qida tullantıları ilə birlikdə bolluq və qıtlıq arasındakı balanssızlığı göstərir. Məsələn, FAO Haitidə təxminən 100 min insana toxum, alətlər və xırda mal-qara paylayıb, quraqlıq və qasırğaya meyilli ərazilərdə su anbarları, suvarma sistemləri və qoruyucu infrastruktur tikib. Sudanda isə təşkilat 2,8 milyon insana kənd təsərrüfatı yardımı edib, o cümlədən bamya toxumlarının tədarükü və 2,8 milyondan çox heyvanın peyvənd edilməsini həyata keçirib. Ukraynada da FAO kənd ailələrinə ərzaq istehsalının bərpa olunması və 32 min 339 hektar ərazini minalardan təmizləməyə kömək edib. Eləcə də Yəməndə 140 mindən çox ailə toxum, alətlər, mal-qara yemi və quşçuluq dəstləri, həmçinin baytarlıq, suvarma və balıqçılıq vasitələri ilə təmin olunub.

FAO vurğulayır ki, kənd təsərrüfatı sistemləri istixana qazı emissiyalarının əhəmiyyətli mənbəyi olsa da, qida istehsalı, yığılması və paylanması üsullarında dəyişikliklər onların azaldılmasına kömək edə bilər. Amma pisi odur ki, bütün bunlara baxmayaraq, görünməmiş çağırışlar - münaqişələr, ekstremal hava şəraiti, iqtisadi şoklar və artan bərabərsizlik fonunda kənd təsərrüfatı torpaqları, su ehtiyatları və həyatı təmin edən biomüxtəliflik təhlükə altında qalır.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Hava şəraiti dəyişkən buludlu olacaq



**Bu günə gözlənilən hava şəraiti açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 15-dən 16-na keçən gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 14-17, gündüz 19-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 767 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi şərq rayonlarında, axşama doğru isə əksər rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15, gündüz 20-25, dağlarda gecə 2-6, gündüz 8-13 dərəcə isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi görkəmli tarzən, Xalq artisti

**RAMİZ QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Dövlət Universitetinin Rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Fəlsəfə, sosiologiya və politologiya kafedrasının sabiq əməkdaşı, professor, prezident təqaüdçüsü

**HƏSƏN SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4085
Sifariş 2093

Qiyməti 60 qəpik